# 31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 275 (10020) 31 dekabr 2025-ci il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



Foto Rafiq BAĞIROVUNDUR

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün müəllifi

Heydər Əliyev dünya azərbaycanlılarının harada yaşamasından asılı olmayaraq, ümummilli mənafelərə xidmət etməli olduqlarını qəti şəkildə müəyyənləşdirərək diaspor quruculuğunu dövlət siyasətinin mühüm istiqamətinə çevirmişdi. Xarici ölkələrə səfərləri zamanı mütləq oradakı azərbaycanlılarla görüşən Ulu Öndər onları milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa çağırırdı. O, çıxışlarında dəfələrlə vurğulayırdı ki, harada doğulmağın fərqi yoxdur, əsas olan azərbaycanlı kimliyini, ana dilini, milli mədəniyyəti yaşatmaqdır.

Məhz Ulu Öndərin yorulmaz səyləri nəticəsində azərbaycançılıq milli ideologiyamıza çevrildi, cəmiyyətimizdə möhkəm həmrəylik formalaşdı, dünya azərbaycanlıları vahid ideya ətrafında birləşdilər. 2001-ci il noyabrın 9-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı bu prosesin tarixi kulminasiya nöqtəsi oldu.

Həmin qurultayda Ümummilli Lider Heydər Əliyev böyük sevinclə nitqinə bu sözlərlə başlamışdı: "Dünya Azərbaycanlılarının I Qurultayı müstəqil Azərbaycanın həyatında, bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisədir. Bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycan icmalarının nümayəndələri ilk dəfə olaraq Azərbaycana, onun paytaxtı Bakı şəhərinə toplaşmışlar və özlərinin I Qurultayını keçirirlər".

Ulu Öndər tarixi qurultayda üzünü həmvətənlərimizə tutub deyirdi ki, müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gəncdirlər: "Ancaq indi biz yeni bir mərhələyə keçmişik. Biz formalaşırıq, müstəqilliyimiz möhkəmlənir, xarici ölkələrdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanır və bizim hamımız birlikdə azərbaycançılığı yaşadacağıq, daimi edəcəyik, əbədi edəcəyik".

Bəli, dahi şəxsiyyət xalqımızın, dövlətimizin parlaq zəfərlərlə bol xoş gələcəyinin milli həmrəyliyimiz, azərbaycançılıq ideyası ətrafında birləşməyimiz sayəsində mümkün olacağına qəti şəkildə əmin idi.

Milli həmrəyliyin inkişafı istiqamətində ölkəmizdə ardıcıl olaraq mühüm qərarlar verilib, qanunlar qəbul edilib. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib. Həmin vaxtdan bütün dünyada azərbaycanlılar bu günü böyük qürurla bayram kimi qeyd edirlər.

Bu günün mühüm məram və mahiyyəti barədə Ümummilli Lider 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərinin birində deyib: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir.

Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır..."

11

# Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni illə bağlı paylaşım edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial media hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edir.




# Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2026-cı ildə Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbubəkr oğlu Naxçıvaninin 900 illiyi tamam olur.

Əcəmi Naxçıvani Orta əsrlər Azərbaycan memarlığına yeni istiqamət vermiş və dövrün memarlıq üslubuna zəriflik, dinamiklik gətirmiş böyük sənətkardır. Onun fəaliyyəti Azərbaycanın dövlətçilik tarixində xüsusi yer tutan qüdrətli Atabəylər dövlətinin paytaxtı, Yaxın Şərqin mədəniyyət, elm, ticarət və sənət mərkəzlərindən biri Naxçıvan şəhəri ilə bağlı olmuşdur. Əcəmi Naxçıvaninin yaradıcılığı XII əsr Azərbaycan mədəni-ictimai fikrinin yüksəlişinin aydın təzahürlərindəndir. Naxçıvan şəhərindəki ehtişamlı abidələrdən Əcəmi dühasının məhsulu olan Möminə xatun məqbərəsi və Yusif ibn Küseyir türbəsi islam aləminin şah əsərləri sırasında layiqli yer tutur. Bu monumental tikililər öz incə kompozisiyası və estetik mükəmməlliyi ilə seçilən, misilsiz gözəlliyə malik ölməz sənət inciləridir. Əcəminin parlaq irsi məktəb rolunu oynamış, sonrakı əsrlərdə də Azərbaycan və Yaxın Şərq ölkələrinin memarlığına güclü təsir göstərmişdir.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Əcəmi Naxçıvaninin 850 illik yubileyi 1976-cı ildə Azərbaycanda təntənəli şəkildə keçirilmişdir. Qüdrətli memarın 900 illiyinin UNESCO çərçivəsində qeyd olunan yubileylər siyahısına daxil edilməsi bütövlükdə Azərbaycan xalqının çoxəsrlik mədəniyyətinin zənginliklərinin beynəlxalq miqyasda daha geniş tanıdılmasında mühüm addımdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Orta əsrlər Azərbaycan memarlıq sənətinin inkişafında dərin və silinməz iz qoymuş böyük memar Əcəmi Naxçıvaninin 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Azərbaycan memarlığının görkəmli siması Əcəmi Naxçıvaninin 900 illik yubileyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# Milli irs və müasirliyin vəhdəti

Azərbaycan memarlığı əsrlər boyu Şərq və Qərb mədəniyyətlərinin sintezini özündə əks etdirərək milli kimliyimizin formalaşmasında mühüm rol oynayıb. İçərişəhərdən tutmuş Şəki Xan Sarayına, Qarabağ memarlıq məktəbindən Bakı modernizminə qədər zəngin irs bu gün də milli kimliyimizin ayrılmaz hissəsidir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında" sərəncamında bildirildiyi kimi, Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

13



# İdmanın inkişafı dövlət siyasətinin prioritetidir

## Prezident İlham Əliyevin idmançılara xüsusi qayğısı möhtəşəm uğurları şərtləndirib

Prezident İlham Əliyev idman sahəsini yalnız fiziki fəaliyyət kimi deyil, eyni zamanda sosial, mədəni və milli bir vasitə kimi görür. Dövlət başçısı idmanı ölkənin inkişafı üçün mühüm bir istiqamət olaraq müəyyən edib və bu sahədə çoxsaylı islahatlar, investisiyalar və proqramlar həyata keçirib.

Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev idmançılara yalnız maddi dəstək verməklə kifayətlənmir. Prezident Azərbaycan idmançılarının beynəlxalq səviyyədə uğurlu nəticələr əldə etmələri üçün yüksəksəviyyəli tədbirlər görür, onlar üçün hər cür şərait yaradır. Bu, idmançılara dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında iştirak etməklə ölkənin bayrağını yüksəltmək imkanı verir.



Dövlətin idmançılara verdiyi stimullar və mükafatlandırma sistemi də onların motivasiyasını artırır. Prezident İlham Əliyev yalnız idmançılara deyil, həm də məşqçilərə, idman təşkilatçılarının işinə yüksək qiymət verərək, bu sahədə motivasiyanı təmin edir. Olimpiya və dünya çempionatlarında medal qazanan idmançılara verilən dövlət mükafatları onların növbəti mərhələdə daha yüksək nəticələr əldə etmələrinə stimul verir.

10

# Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi, habelə "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi yaradılsın.

2. "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqini həyata keçirən və icra göstəricilərini təhlil edən, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturuna daxil olan qurumdur.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. bir ay müddətində:

4.1.1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi işçilərinin say həddini müəyyən etsin;

4.1.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinin maddi-texniki təminatı məsələlərinin həlli və saxlanılma xərclərinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görsün;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5."Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 9 fevral tarixli 48 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 2, maddə 61 (Cild I); 2024, № 3, maddə 257, № 5 (I kitab), maddə 529; 2025, № 2, maddə 119, № 8, maddələr 751, 774) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 6-cı hissədə "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

5.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə I - "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin strukturu" üzrə:

5.2.1. 2-ci hissədə "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

5.2.2. aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi;";

5.2.3. 7-ci hissəyə "yerli" sözündən sonra "(regional)" sözü əlavə edilsin;

5.3. həmin Fərmanla təsdiq edilmiş Əlavə II - "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi haqqında Əsasnamə" üzrə:

5.3.1. 1-ci və 2-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"1.Azərbaycan Respublikasının Maliyyə Nazirliyi (bundan sonra - Nazirlik) maliyyə, büdcə, audit, vergi, gömrük, dövlət rüsumu və digər büdcə daxilolmaları sahəsində dövlət siyasətini hazırlayan və həyata keçirən, dövlət maliyyəsinin idarə olunmasını təşkil edən, dövlət və icmal büdcələrin layihələrini hazırlayan və dövlət büdcəsinin kassa icrasını təmin edən, dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi, mühasibat uçotunun təşkili və aparılması sahələrində dövlət siyasətinin və tənzimləməsinin, habelə dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının vəsaitlərindən, dövlət zəmanəti ilə alınan və dövlət büdcəsinin vəsaiti hesabına verilən kreditlərdən, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitlərindən, həmçinindövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitlərindən (bundan sonra - dövlət vəsaiti)istifadə və dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri sahəsində dövlət nəzarətinin həyata keçirilməsini təmin edən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.";

5.3.2. 3-cü hissədə "icra hakimiyyəti orqanları" sözləri "dövlət orqanları (qurumları)" sözləri ilə, "və qeyri-hökumət təşkilatları ilə" sözləri ", beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə" sözləri ilə əvəz edilsin;

5.3.3. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Nazirliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.";

5.3.4. 5-ci hissəyə "fəaliyyəti" sözündən sonra ", habelə maddi-texniki təminatı" sözləri əlavə olunsun və həmin hissədə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda" sözləri ilə əvəz edilsin;

5.3.5. 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

"7. Nazirliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. Azərbaycan Respublikasının maliyyə, büdcə, vergi, gömrük, dövlət rüsumu dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri və digər büdcə daxilolmaları sahəsində dövlət siyasətini işləyib hazırlamaq və həyata keçirilməsini aidiyyəti dövlət orqanlarının və digər təşkilatların iştirakı ilə təmin etmək;

7.2. Nazirliyin fəaliyyət sahəsində dövlət tənzimləməsini, dövlət nəzarətini və əlaqələndirməni həyata keçirmək;

7.3. dövlət və icmal büdcələrin layihələrinin normativ hüquqi aktlara uyğun olaraq hazırlanmasını və dövlət büdcəsinin icrasını təmin etmək;

7.4. dövlət vəsaitinin təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təşkil etmək;

7.5. dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsini və dövlət zəmanətinin verilməsini təşkil etmək, dövlət borclanma siyasətini işləyib hazırlamaq və həyata keçirilməsini təmin etmək;

7.6. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqinin, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqinin həyata keçirilməsini və icra göstəricilərinin təhlil edilməsini təşkil etmək;

7.7. Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən hüquqi şəxslər, habelə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər tərəfindən mühasibat uçotunun təşkili və aparılması, o cümlədən maliyyə hesabatlarının hazırlanması və təqdim edilməsi sahəsində dövlət siyasətini hazırlamaq və fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilməsi üçün tədbirlər görmək;

7.8. Azərbaycan Respublikasında audit fəaliyyəti sahəsində dövlət siyasətini hazırlamaq və həyata keçirilməsi ilə bağlı təkliflər vermək, dövlət orqanlarında (qurumlarında), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə daxili audit qurumlarının fəaliyyətinin əlaqələndirilməsini və vahid metodoloji bazasının yaradılmasını təşkil etmək;

7.9. ölkə iqtisadiyyatına xarici və daxili kreditlərin cəlb edilməsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsini təmin etmək;

7.10.büdcə, vergi, gömrük, dövlət rüsumu, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri və digər büdcə daxilolmaları, dövlət xəzinədarlığı, dövlət maliyyə nəzarəti, dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi, audit, mühasibat uçotunun təşkili və aparılması sahəsində normativ hüquqi aktlarla və bu Əsasnamə ilə Nazirliyin fəaliyyət dairəsinə aid edilmiş digər məsələlər üzrə normayaratma fəaliyyətini həyata keçirmək;

7.11. Nazirliyin fəaliyyət sahəsinin inkişafını təmin etmək;

7.12. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.";

5.3.6. 8-ci hissə üzrə:

5.3.6.1. 8.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.2. maliyyə, büdcə, vergi, gömrük, dövlət rüsumu, mühasibat uçotu, dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi, dövlət maliyyə nəzarəti və audit fəaliyyəti, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin dividendləri və digər büdcə daxilolmaları sahəsində normayaratma fəaliyyətindən irəli gələn vəzifələri həyata keçirmək;";

5.3.6.2. 8.3-cü bənddən "və gömrük" sözləri çıxarılsın;

5.3.6.3.8.4-cü bənddən "hər il növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrini və sonrakı üç il üçün icmal büdcənin göstəricilərini hazırlayıb qanunvericilikdə nəzərdə tutulmuş qaydada təqdim etmək," sözləri çıxarılsın;

5.3.6.4. aşağıdakı məzmunda 8.4-1-ci, 8.5-1-ci və 8.5-2-ci bəndlər əlavə edilsin:

"8.4-1. növbəti büdcə ili üzrə dövlət büdcəsi və icmal büdcə ilə bağlı "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş sənədləri, o cümlədən büdcə qaydasının parametrlərini hazırlamaq və həmin Qanunla müəyyən edilmiş qaydada təqdim etmək;";

"8.5-1. ortamüddətli xərclər çərçivəsinin, proqram və nəticəəsaslı büdcə mexanizminin tətbiqi və fiskal risklərin idarəedilməsi üçün zəruri tədbirlər görmək;

8.5-2. ortamüddətli xərclər çərçivəsini, o cümlədən ortamüddətli büdcə çərçivəsini, habelə sektorlar üzrə icmallaşdırılmış büdcə planlarının ötən il üzrə icrasına dair monitorinqin nəticələrini hazırlamaq və bununla bağlı normativ hüquqi aktlarla Nazirliyə həvalə olunmuş digər vəzifələrin icrasını təmin etmək;";

5.3.6.5. 8.6-cı bəndə üçüncü halda "vəsaitləri" sözündən sonra ", dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin vəsaiti" sözləri əlavə edilsin;

5.3.6.6. 8.7-ci bənddə "Nazirliyin Dövlət Xəzinədarlığı" sözləri "Nazirlik yanında Dövlət Xəzinədarlıq" sözləri ilə, "maliyyələşən təşkilatların sifarişinə və məxaric cədvəllərinə" sözləri "maliyyə vəsaiti alan təşkilatların sifarişinə" sözləri ilə əvəz edilsin;

5.3.6.7. aşağıdakı məzmunda 8.7-1 - 8.7-4-cü bəndlər əlavə edilsin:

"8.7-1.dövlət büdcəsinə bütün daxilolmalar və ödəmələr, büdcədənkənar haqlar (ödənişlər), büdcədənkənar dövlət fondları (Azərbaycan Respublikası Dövlət Neft Fondunun gəlirləri, əməliyyat xərcləri, beynəlxalq banklarda və digər maliyyə institutlarında vəsaitinin yerləşdirilməsi ilə bağlı xərclər istisna olmaqla), məqsədli büdcə fondları, dövlət büdcəsi kəsirinin bağlanması üçün dövlət borcalmaları üzrə əməliyyatları (Azərbaycan Respublikası adından imzalanmış kredit müqavilələrinin şərtləri nəzərə alınmaqla) və digər dövlət maliyyə əməliyyatlarını Nazirlik yanında Dövlət Xəzinədarlıq Agentliyi vasitəsilə həyata keçirmək;

8.7-2. dövlət vəsaiti hesabına mal, iş və xidmətlərin satın alınmasının elektron müqavilələr əsasında həyata keçirilməsini təmin etmək və bu müqavilələrin elektron qaydada bağlanılmasını təşkil etmək;

8.7-3. dövlət orqanlarına (qurumlarına), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatlara dövlət büdcəsindən ayrılan vəsaitdən istifadənin, büdcə ssudalarının, dövlət sifarişi ilə həyata keçirilən layihələrin, subsidiya və subvensiyaların Nazirlik yanında Dövlət Xəzinədarlıq Agentliyi vasitəsilə ünvanlı icra edilməsini təşkil etmək;

8.7-4. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların bank hesablarına çıxış imkanı əldə etmək;";

5.3.6.8. 8.8-ci bəndə birinci halda "dövlət" sözündən əvvəl "dövlət investisiya siyasətinin, dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasını və həyata keçirilməsini aidiyyəti dövlət orqanları ilə birlikdə təmin etmək, həmçinin" sözləri,"proqramlarının" sözündən sonra ", strategiyalarının" sözü əlavə edilsin;

5.3.6.9. aşağıdakı məzmunda 8.8-1-ci bənd əlavə edilsin:

"8.8-1. dövlət orqanının (qurumunun) tabeliyində yaradılan publik hüquqi şəxslər istisna olmaqla,dövlət adından yaradılan digər publik hüquqi şəxslərlə dövlət sifarişi ilə dövlət büdcəsi hesabına təyinatlı tədbirlərin həyata keçirilməsi üçün məqsədli vəsaitlərin ödənilməsinə dair müqavilə bağlamaq;";

5.3.6.10. 8.9-cu bənddə "zərurət" sözü "dövlət büdcəsinin icrası prosesində dövlət büdcəsinə yenidən baxılma və xərclərə sekvestr tətbiq olunması zərurəti" sözləri ilə, "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.11. 8.10-cu bənddə "büdcə" sözü "dövlət büdcəsi" sözləri ilə, "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

5.3.6.12. 8.11-ci bənddə "ayrılan vəsaitlərdən" sözləri ", büdcədənkənar dövlət fondlarındanayrılan vəsaitlərdən, həmçinin dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitindən, dövlət zəmanəti ilə alınmış və dövlət büdcəsinin vəsaiti hesabına verilmiş kreditlərdən" sözləri ilə əvəz olunsun və həmin bənddən "əməliyyatlar üzrə" və "maliyyə orqanları ilə razılaşdırılmış qaydada" sözləri çıxarılsın;

5.3.6.13. aşağıdakı məzmunda 8.11-1-ci bənd əlavə edilsin:

"8.11-1. dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələrinin və digər infrastruktur layihələrinin, o cümlədən onların ehtimal olunan dəyərinin, layihə-smeta sənədlərinin və texniki-iqtisadi əsaslandırmalarının ilkin maliyyə ekspertizasını aparmaq, habelə həmin layihələr üzrə işlərin icrasına və ayrılan vəsaitdən səmərəli və təyinatı üzrə istifadə olunmasına nəzarət etmək məqsədilə dövlət maliyyə nəzarəti tədbirlərinin həyata keçirilməsini təmin etmək;";

5.3.6.14. 8.13-cü bənddə "büdcəsinin mərkəzləşdirilmiş xərclərindən" sözləri "büdcəsindən" sözü ilə əvəz edilsin;

5.3.6.15. aşağıdakı məzmunda 8.13-1-ci bənd əlavə edilsin:

"8.13-1. dövlət büdcəsindən maliyyələşən təşkilatlarda əməyin ödənişi,sosial ödənişlər və dövlət icbari şəxsi sığortası üzrə xərclərin büdcə ili ərzində çatışmayan hissəsinin qarşılanması məqsədilə həmin təşkilatın təsdiq olunmuş büdcə ayırmaları həddində funksional təsnifatın bölmələri daxilində, iqtisadi təsnifatın bölmə, köməkçi bölmə, paraqraf, maddə və yarımmaddələri arasında müvafiq dəyişiklikləri həyata keçirmək;";

5.3.6.16. 8.14-cü bəndə "dövlət" sözündən əvvəl "bu Əsasnamənin 8.13-1-ci bəndində göstərilən hallar istisna olmaqla," sözləri əlavə edilsin;

5.3.6.17. 8.16-cı bənddə "büdcə gəlirlərinin proqnozlaşdırılmasını və ona metodiki rəhbərliyi" sözləri "dövlət büdcəsinin və icmal büdcənin gəlirlərinin proqnozlaşdırılmasını, ona metodiki rəhbərliyi və koordinasiyanı" sözləri ilə əvəz edilsin;

5.3.6.18. 8.17-ci bəndə "rüsumlarının" sözündən sonra ", gömrük ödənişlərinin" sözləri əlavə edilsin;

5.3.6.19. aşağıdakı məzmunda 8.17-1 - 8.17-4-cü bəndlər əlavə edilsin:

"8.17-1. vergi və gömrük sahəsində güzəşt və azadolmalara dair məlumatların mərkəzləşdirilmiş elektron reyestrini aparmaq, onların dövlət büdcəsinin gəlirlərinə təsirini və səmərəliliyini qiymətləndirmək və qiymətləndirmənin nəticəsinə uyğun təkliflər vermək;

8.17-2. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əsasən tətbiq edilmiş inzibati cərimələrin dövlət büdcəsinə və (və ya) inzibati cərimə növündə inzibati tənbeh vermə barədə qərar (elektron qərar) qəbul etmiş səlahiyyətli orqanların hesablarına köçürülən hissəsinə dair məlumatları təhlil etmək və həmin məlumatların düzgünlüyünə nəzarətin həyata keçirilməsini təmin etmək;

8.17-3. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət rüsumunun düzgün hesablanmasına və vaxtında dövlət büdcəsinə köçürülməsinə nəzarət etmək;

8.17-4. dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaiti üzrə gəlir və xərclərinin proqnozlaşdırılmasını, bununla bağlı smetanın tərtibi və təsdiqi üçün zəruri tədbirlər görmək;";

5.3.6.20. 8.18-ci bənddə "qanunvericilikdə" sözü "normativ hüquqi aktlarda" sözləri ilə əvəz olunsun və həmin bəndə "etmək" sözündən sonra ", həmçinin ciddi hesabat blanklarının istifadəsinə nəzarəti həyata keçirmək" sözləri əlavə edilsin;

5.3.6.21. 8.21-ci bənddə "Respublikasının" sözündən sonra "enerji balansının və" sözləri əlavə edilsin;

5.3.6.22. 8.22-ci bənddə "qanunvericilikdə" sözü "normativ hüquqi aktlarda" sözləri ilə əvəz edilsin;

5.3.6.23. aşağıdakı məzmunda 8.23-1- 8.23-3-cü bəndlər əlavə edilsin:

"8.23-1. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının monitorinqini, habelə illik gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqini həyata keçirmək və icra göstəricilərini təhlil edərək nəticələri barədə rübdə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat təqdim etmək;

8.23-2. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin xalis mənfəətindən dövlət büdcəsinə dividendlərin ödənilməsinə nəzarəti həyata keçirmək;

8.23-3. iri dövlət şirkətlərinin gəlirlər və xərclər smetaları üzrə Komissiyanın Katibliyinin funksiyalarını həyata keçirmək;";

5.3.6.24. 8.24-cü bənd aşağıdakı redaksiyada verilsin:

"8.24. dövlət vəsaitininəldə edilməsi və təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsini təmin etmək;";

5.3.6.25. 8.25-ci bənddən "yerli maliyyə orqanlarının" sözləri çıxarılsın və həmin bənddə "Agent-bankların" sözü "müvəkkil bankların" sözləri ilə əvəz edilsin;

5.3.6.26. 8.26-cı bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə, "qərarlarına və hüquq mühafizə orqanlarının müraciətlərinə əsasən idarə, müəssisə və təşkilatlarda, məqsədli büdcə və büdcədənkənar dövlət fondlarında təftiş və yoxlamalar" sözləri ", prokurorluq və istintaq orqanlarının qərarlarına əsasən dövlət orqanlarında (qurumlarında),büdcədənkənar dövlət fondlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə dövlət maliyyə nəzarəti tədbirlərini" sözləri ilə əvəz edilsin;

5.3.6.27. aşağıdakı məzmunda 8.26-1-ci bənd əlavə edilsin:

"8.26-1. dövlət maliyyə nəzarəti tədbirləri zamanı dövlət vəsaitindən istifadə ilə bağlı aşkar olunan artıq və əsassız ödənişlərin izlənilməsi məqsədilə onun uçotununaparılmasını, həmin vəsaitin ilkin mənbəyinə bərpa olunmasına nəzarəti təmin etmək;";

5.3.6.28. 8.27-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.27. Nazirliyin fəaliyyət sahələrində, o cümlədən dövlət maliyyə nəzarəti tədbirləri nəticəsində inzibati xəta və cinayət əlamətləri aşkar etdikdə, müvafiq olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun tədbirlər görmək;";

5.3.6.29. aşağıdakı məzmunda 8.27-1-ci bənd əlavə edilsin:

"8.27-1. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət orqanının funksiyalarını həyata keçirmək;";

5.3.6.30. 8.30-cu bənddə ikinci halda "etmək" sözündən sonra ", o cümlədən dövlət borcuna və dövlət zəmanəti üzrə yaranmış borca xidmət göstərmək" sözləri əlavə edilsin;

5.3.6.31. 8.31-ci bəndə "məbləğinin" sözündən sonra ", habelə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"na uyğun olaraq" sözləri əlavə edilsin;

5.3.6.32. 8.31-1-ci bəndə "dövlətə" sözündən əvvəl "Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borcalması Qaydası"na uyğun olaraq," sözləri əlavə edilsin;

5.3.6.33. 8.31-2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.31-2. dövlət borcu və dövlət zəmanətləri ilə bağlı müqavilələrin hazırlanmasında iştirak etmək, Azərbaycan Respublikası adından borcun alınması və zəmanət verilməsi, dövlət borcunun vaxtında ödənilməsi və ölkə daxilində dövlət qiymətli kağızları bazarının inkişafı barədə təkliflər vermək;";

5.3.6.34. 8.33-cü bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.35. 8.34-cü bəndə birinci halda "dövlət" sözündən əvvəl "dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün tələb olunan vəsaitin həcmi barədə təkliflər vermək və" sözləri əlavə edilsin;

5.3.6.36. 8.37-ci bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.37. 8.38-ci bənddə "gömrük-tarif" sözləri "sığorta" sözü ilə əvəz edilsin;

5.3.6.38. aşağıdakı məzmunda 8.38-1-ci bənd əlavə edilsin:

"8.38-1. dövlət büdcəsinin gəlir və xərclərinə təsir edən normativ hüquqi akt layihələrinin, habelə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilən Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaitindən istifadəni nəzərdə tutan hüquqi akt layihələrinin maliyyə ekspertizasını həyata keçirmək və onlara müvafiq rəy vermək;";

5.3.6.39. 8.39-cu bənddən ", dövlət büdcəsindən maliyyələşən qurumların strukturunun, əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsinə və ştat vahidlərinin müəyyən edilməsinə" sözləri çıxarılsın;

5.3.6.40. aşağıdakı məzmunda 8.40-1-ci bənd əlavə edilsin:

"8.40-1. Azərbaycan Respublikasında makroiqtisadi göstəricilərin proqnozlaşdırılması, iqtisadiyyatın dövlət tənzimləməsi, onun inkişaf istiqamətləri barədə təkliflər vermək;";

5.3.6.41. 8.41-ci bənddən "büdcəsinin" sözü çıxarılsın;

5.3.6.42. 8.42-ci bənddə "maliyyə (maliyyə-kredit)" sözləri "və regional maliyyə institutları (maliyyə-kredit təşkilatları)" sözləri ilə, "qanunvericilikdə" sözü "normativ hüquqi aktlarda" sözləri ilə əvəz edilsin;

5.3.6.43. 8.43-cü bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə, "maliyyə-kredit təşkilatları" sözləri "və regional maliyyə institutları (maliyyə-kredit təşkilatları)" sözləri ilə əvəz edilsin;

5.3.6.44. 8.45-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.45. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin vədövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların strukturu, ştat vahidləri və əməkhaqqı sistemlərinin maliyyə ekspertizasını həyata keçirmək, fəaliyyət istiqamətlərinə uyğun olaraq həmin təşkilatlarda əməkhaqlarının düzgün tətbiqinə nəzarət etmək, habelə ştat cədvəlləri və boş (vakant) ştatları barədə məlumatları təhlil etməklə, onların strukturunun təkmilləşdirilməsi, ştat vahidlərinin müəyyən edilməsi və əməkhaqqı sistemlərinin optimallaşdırılması ilə bağlı təkliflər vermək;";

5.3.6.45. 8.46-cı bənd ləğv edilsin;

5.3.6.46. 8.47-ci bənddə "dövlət idarə, müəssisə və təşkilatlarının, o cümlədən" sözləri "dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların," sözləri ilə əvəz edilsin;

5.3.6.47. aşağıdakı məzmunda 8.49-2-ci və 8.49-3-cü bəndlər əlavə edilsin:

"8.49-2. "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən mühasibat uçotu subyektləri tərəfindən Nazirliyə təqdim edilən maliyyə hesabatları üzrə vahid məlumat bazasını formalaşdırmaq, həmçinin büdcə təşkilatları tərəfindən mühasibat uçotunun elektron formada aparılmasını təşkil etmək;

8.49-3. elektron ciddi hesabat blanklarının vahid reyestrini formalaşdırmaq, aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarına və sistemlərinə inteqrasiya edilməklə həmin blankların real vaxt rejimində izlənilməsini təmin etmək;";

5.3.6.48. 8.50-ci bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.49. 8.51-ci bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

5.3.6.50. 8.52-ci bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.6.51. 8.53-cü bənddə "büdcə" sözü "dövlət büdcəsi" sözləri ilə, "normativ tənzimləməni" sözləri "normayaratma fəaliyyətini" sözləri ilə əvəz edilsin;

5.3.6.52. 8.54-cü və 8.55-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"8.54. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, müvafiq olaraq lisenziya və icazə vermək, lisenziyanın və icazənin şərtlərinə riayət olunmasına nəzarət etmək, lisenziya və icazə verən orqanın digər səlahiyyətlərini həyata keçirmək, Nazirliyin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı lisenziya və icazə verilməsinə rəy (razılıq) vermək, habelə normativ hüquqi aktlarda nəzərdə tutulan hallarda və qaydada digər hüquqmüəyyənedici sənədlər vermək;

8.55. Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilmiş banklar istisna edilməklə, nizamnamə kapitalında dövlətə məxsus səhmlər olan banklarda və bank olmayan kredit təşkilatlarında ümumi yığıncağın səlahiyyətlərinə aid edilmiş məsələlərin həllində normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada dövlətin adından iştirak etmək, onlardan rüblük hesabatlar almaq və fəaliyyətləri barədə təkliflər hazırlamaq;";

5.3.6.53. aşağıdakı məzmunda 8.55-1-ci bənd əlavə edilsin:

"8.55-1. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq,Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarından, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəliklərindən illik maliyyə hesabatlarının, həmçinin həmin təşkilatların qəbul etdiyi ianələr haqqında məlumatların alınmasını təmin etmək;";

5.3.6.54. 8.57-ci bənd ləğv edilsin;

5.3.6.55. 8.58-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.58. Nazirliyin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;";

5.3.6.56. aşağıdakı məzmunda 8.58-1-ci və 8.58-2-ci bəndlər əlavə edilsin:

"8.58-1. Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər görmək;

8.58-2. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Nazirliyin fəaliyyət sahəsi üzrəkorrupsiya risklərini azaltmaq məqsədilə korrupsiya risklərini və həmin risklərə uyğun olaraq hədəfləri müəyyən etmək, eləcə də həmin risklərin təhlili, qiymətləndirilməsi və qarşısının alınması üzrə tədbirlər görmək;";

5.3.6.57. 8.59-cu bəndə "Azərbaycan" sözündən əvvəl "Nazirliyin fəaliyyət sahəsi üzrə" sözləri əlavə olunsun və həmin bənddən "öz səlahiyyətləri daxilində" sözləri çıxarılsın;

*Ardı 3-cü səh.*

# Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 2-ci səh.*

5.3.6.58. 8.60-cı bənddə "öz səlahiyyətləri daxilində" sözləri "Nazirliyin fəaliyyət sahəsi üzrə" sözləri ilə əvəz edilsin;

5.3.6.59. aşağıdakı məzmunda 8.60-1-ci bənd əlavə edilsin:

"8.60-1. Nazirlik sistemində yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiqi işini təşkil etmək;";

5.3.6.60. 8.61-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.61. Nazirliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;";

5.3.6.61. aşağıdakı məzmunda 8.61-1-ci bənd əlavə edilsin:

"8.61-1. Nazirliyin informasiya sistemlərinin fəaliyyətinin təşkilini, idarə olunmasını və təkmilləşdirilməsini təmin etmək, eləcə də onların bütün aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə inteqrasiyası və real vaxt rejimində məlumatlara çıxışı üçün tədbirlər görmək;";

5.3.6.62. 8.62-ci bənddə "internet saytının" sözləri "rəsmi internet informasiya ehtiyatının" sözləri ilə,"qanunvericiliklə" sözü "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə" sözləri ilə, "saytda" sözü "internet informasiya ehtiyatında" sözləri ilə, "yeniləşdirilməsini" sözü "yenilənməsini" sözü ilə əvəz edilsin;

5.3.6.63. 8.63-cü bənd aşağıdakı redaksiyada verilsin:

"8.63. Nazirliyin Aparatının strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işini əlaqələndirmək, onların fəaliyyətinə, o cümlədən vəzifələrini yerinə yetirmək üçün ayrılan büdcə vəsaitindən və digər vəsaitdən təyinatı üzrə istifadə olunmasına nəzarəti həyata keçirmək;";

5.3.6.64. 8.64-cü bənd ləğv edilsin;

5.3.6.65. 8.66-cı bənddən "qanunvericiliyə uyğun olaraq" sözləri çıxarılsın;

5.3.6.66. aşağıdakı məzmunda 8.66-1-ci bənd əlavə edilsin:

"8.66-1. fəaliyyət sahəsində əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması ilə bağlı tədbirlər görmək;";

5.3.6.67. 8.68-ci bənddə "büdcə vəsaitləri" sözləri "dövlət büdcəsi vəsaitindən, fəaliyyət istiqamətləri üzrə əldə edilən büdcədənkənar vəsaitdən" sözləri ilə, "olunması üçün tədbirlər görmək və ona nəzarət" sözləri "olunmasını təmin" sözləri ilə əvəz edilsin;

5.3.6.68. aşağıdakı məzmunda 8.68-1- 8.68-5-ci bəndlər əlavə edilsin:

"8.68-1. Nazirlikdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək, habelə Nazirliyin strukturuna daxil olan qurumlarda və strukturuna daxil olmayan tabeliyindəki qurumlarda kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasına nəzarəti həyata keçirmək;

8.68-2. Nazirlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

8.68-3. inzibati icraata dair fəaliyyətini "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş prosedur qaydaları daxilində və prinsiplər əsasında həyata keçirmək;

8.68-4. "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, Nazirlik yanında İctimai Şura yaradılmasını təmin etmək;

8.68-5. "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, səfərbərlik hazırlığı və səfərbərlik tədbirlərinin həyata keçirilməsində iştirak etmək;";

5.3.6.69. 8.69-cu bənd aşağıdakı redaksiyada verilsin:

"8.69. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

5.3.7. 9-cu hissə üzrə:

5.3.7.1. 9.1-ci bənddə "mövcud qanunvericiliklə" sözləri "normativ hüquqi aktlarla" sözləri ilə əvəz olunsun, həmin bənddən "zərurət yarandıqda" sözləri çıxarılsın və həmin səndə "bələdiyyələrdən" sözündən sonra ", məqsədli büdcə" sözləri əlavə edilsin;

5.3.7.2. aşağıdakı məzmunda 9.1-1-ci bənd əlavə edilsin:

"9.1-1. dövlət büdcəsinin gəlirlərini təmin edən dövlət orqanlarından və sorğu əsasında büdcə təşkilatlarından növbəti il və sonrakı üç il üçün büdcə-vergi siyasətinin əsas istiqamətlərinə dair təklifləri və büdcə qaydasının hesablanması üçün tələb olunan məlumatları almaq;";

5.3.7.3. 9.2-ci bənddə "yardımları" sözü "vəsaiti" sözü ilə əvəz olunsun və həmin bəndə "vəsaitlərdən" sözündən sonra ", dövlət adından yaradılan publik hüquqi şəxslərə münasibətdə isə həmçinin onların fəaliyyətindən əldə olunan vəsaitdən" sözləri əlavə edilsin;

5.3.7.4. aşağıdakı məzmunda 9.2-1-ci bənd əlavə edilsin:

"9.2-1. dövlət büdcəsi xərclərinin proqram təsnifatına daxil olan sektorlar üzrə strateji və büdcə planlarını (o cümlədən mövcud və davam edən tədbirlərə və yeni siyasət təşəbbüslərinə dair büdcə sifarişlərini), habelə bu planların icrasına dair monitorinq məlumatlarını və izahatları həmin sektorlarda fəaliyyəti olan təşkilatlardan, o cümlədən sektorlar üzrə aparıcı qurumlardan almaq;";

5.3.7.5. 9.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.3. dövlət vəsaitinin təyinatı üzrə xərclənməməsi halları aşkar olunduqda, kredit resursundan artıq xərcə yol verildikdə, əvvəl ayrılmış vəsaitin xərclənməsinə dair hesabatların vaxtında və düzgün təqdim edilmədiyi hallarda pozuntuya yol vermiş təşkilatların və onların tabe olduqları orqanların (qurumların) rəhbərlərini xəbərdar etməklə həmin təşkilatların dövlət büdcəsindən maliyyələşdirilməsini (müdafiə olunan xərclər istisna olmaqla) məhdudlaşdırmaq və artıq ödənilmiş və ya təyinatı üzrə istifadə olunmamış vəsaiti normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada dövlət büdcəsinə bərpa etdirmək və bu məqsədlə aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumat almaq;";

5.3.7.6. 9.4-cü bənd ləğv edilsin;

5.3.7.7. 9.5-ci bənddə "mədaxil hissəsini" sözləri "və icmal büdcənin gəlirlərini" sözləri ilə əvəz edilsin;

5.3.7.8. aşağıdakı məzmunda 9.6-1-ci bənd əlavə edilsin:

"9.6-1.dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdən və dövlət adından yaradılan publik hüquqi şəxslərdən rüblük olaraq maliyyə fəaliyyətinə dair məlumatları, habelə illik və ortamüddətli dövr üzrə büdcə layihələrini və proqnoz göstəricilərini almaq;";

5.3.7.9. 9.10-cu bənddən "aidiyyəti dövlət orqanları ilə birlikdə dövlət büdcəsi gəlirlərinin artırılması imkanlarının araşdırılması məqsədilə"sözləri,"və bu təhlil" sözləri çıxarılsın, həmin bənddə "müəssisələrin" sözü "və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin" sözləri ilə, "müəssisələrdən" sözü "hüquqi şəxslərdən" sözləri ilə əvəz olunsun və həmin bəndə "almaq" sözündən sonra ", habelə onların fəaliyyətinin təkmilləşdirilməsinə dair təkliflər vermək" sözləri əlavə edilsin;

5.3.7.10. 9.11-ci bənd ləğv edilsin;

5.3.7.11. 9.12-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.12. Nazirliyin Dövlət Maliyyə Nəzarəti Xidməti vasitəsilə dövlət maliyyə nəzarəti tədbirlərinin həyata keçirildiyi nəzarət obyektlərində malların (iş və xidmətlərin) satın alınmasının qanuniliyinin dəqiqləşdirilməsi üçün vəsaitin ödənildiyi digər təşkilatlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə müəyyən edilmiş qaydada maliyyə nəzarəti obyektinin vəsaitinin xərclənməsi barədə sənədlərin qarşılıqlı yoxlanılmasını aparmaq;";

5.3.7.12. 9.13-cü bənddə "nəzarət yoxlamalarının" sözləri "dövlət maliyyə nəzarəti tədbirlərinin" sözləri ilə əvəz edilsin;

5.3.7.13. 9.14-cübəndə "maliyyə" sözündən əvvəl "dövlət" sözü əlavə edilsin və həmin bənddən "üçün hüquq-mühafizə, prokurorluq və məhkəmə orqanlarına təqdimatlar vermək" sözləri çıxarılsın;

5.3.7.14. 9.15-ci bənd ləğv edilsin;

5.3.7.15. 9.16-cı bənddə "örtülməsinə" sözü "bağlanmasına" sözü ilə əvəz edilsin;

5.3.7.16. 9.18-ci bənddə "maliyyə-kredit təşkilatları" sözləri "və regional maliyyə institutları (maliyyə-kredit təşkilatları)" sözləri ilə əvəz edilsin;

5.3.7.17. 9.20-ci və 9.21-ci bəndlər ləğv edilsin;

5.3.7.18. 9.23-cü bənd aşağıdakı redaksiyada verilsin:

"9.23. səlahiyyətlərinə aid edilmiş məsələlərlə bağlı məhkəmələrdə müvafiq prosessual qanunvericilikdə nəzərdə tutulmuş hüquqları həyata keçirmək;";

5.3.7.19. aşağıdakı məzmunda 9.23-1-ci bənd əlavə edilsin:

"9.23-1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;";

5.3.7.20. 9.24-cü bənddə "maliyyə siyasətinin həyata keçirilməsi zamanı" sözləri "Nazirliyin fəaliyyət sahəsi üzrə" sözləri ilə əvəz edilsin;

5.3.7.21. aşağıdakı məzmunda 9.24-1-ci bənd əlavə edilsin:

"9.24-1. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsini təşkil etmək;";

5.3.7.22. 9.25-ci bənddə "müvafiq sahə üzrə dövlət" sözləri "fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına)" sözləri ilə əvəz edilsin;

5.3.7.23. 9.26 - 9.28-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"9.26. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

9.27. Nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

9.28. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;";

5.3.7.24.aşağıdakı məzmunda 9.28-1-ci bənd əlavə edilsin:

"9.28-1. normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada tabeliyində müvafiq qurumlar və ya strukturu daxilində bölmələr (idarə, şöbə) yaratmaq, yenidən təşkil və ləğv etmək, həmçinin strukturuna daxil olmayan tabeliyindəki qurumların yaradılması, yenidən təşkil və ləğv edilməsi üçün təkliflər vermək;";

5.3.7.25.9.29-cu bənd aşağıdakı redaksiyada verilsin:

"9.29. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;";

5.3.7.26. aşağıdakı məzmunda 9.31-1-ci bənd əlavə edilsin:

"9.31-1. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;";

5.3.7.27.9.32-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.32. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.";

5.3.8.12-ci hissə ləğv edilsin;

5.3.9. 13-cü hissədə "tərkibi" sözü "həddi" sözü ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci və üçüncü cümlələr əlavə edilsin:

"Nazirliyin strukturunu Azərbaycan Respublikasının Prezidenti müəyyən edir. Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların (hüquqi şəxslərin və s.) siyahısını Azərbaycan Respublikasının Nazirlər Kabineti təsdiq edir.";

5.3.10. 14-cü hissə aşağıdakı redaksiyada verilsin:

"14. Nazirliyin fəaliyyətinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən nazir rəhbərlik edir. Nazir Nazirliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqlarının həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.";

5.3.11. 15-ci hissədə "üç" sözü "dörd" sözü ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Nazirin birinci müavini və müavinləri onlara nazirin həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.";

5.3.12. 16-cı və 17-ci hissələr ləğv edilsin;

5.3.13. 18-ci hissə üzrə:

5.3.13.1. birinci abzas, 18.2-ci və 18.3-cü bəndlər aşağıdakı redaksiyada verilsin:

"18. Nazir:";

"18.2. Azərbaycan Respublikası Prezidentinin başqa qayda müəyyən etdiyi hallar istisna olmaqla, müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Nazirliyin Aparatının, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların strukturunu (bu Əsasnamənin 18.12-ci bəndi nəzərə alınmaqla), ştat cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində onların gəlir və xərclər smetasını təsdiq edir;

18.3. Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların (əsasnamələri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilən qurumlar istisna olmaqla) və Elmi-Texniki Şurasının əsasnamələrini, strukturuna daxil olmayan tabeliyindəki qurumların (nizamnamələri Azərbaycan Respublikasının Prezidenti, Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təsdiq edilən hüquqi şəxslər istisna olmaqla) nizamnamələrini (və ya əsasnamələrini) təsdiq edir;";

5.3.13.2. aşağıdakı məzmunda 18.3-1-ci və 18.3-2-ci bəndlər əlavə edilsin:

"18.3-1. bu Əsasnamənin 21-1-ci hissəsində Nazirliyin Kollegiyasının səlahiyyətlərinə aid edilməmiş məsələlər barədə normativ hüquqi aktları qərarlar formasında qəbul edir;

18.3-2. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallarda Nazirliyin strukturuna daxil olan qurumların əsasnamələrini və strukturuna daxil olmayan tabeliyindəki qurumların nizamnamələrini təsdiq üçün təqdim edir;";

5.3.13.3. 18.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"18.4. Nazirliyin səlahiyyətlərinə aid edilən məsələlər üzrə müvafiq il üçün dövlət büdcəsinin və büdcədənkənar vəsaitlərin formalaşdırılması ilə bağlı təkliflər verir;";

5.3.13.4. 18.5-ci bənd ləğv edilsin;

5.3.13.5. 18.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"18.7.Nazirliyin Aparatının işçilərini, yerli (regional) orqanlarının inzibati vəzifə tutan dövlət qulluqçularını, Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların (Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi şəxslər istisna olmaqla) rəhbərlərini və onların müavinlərini, struktur bölmələrinin və regional orqanlarının rəhbərlərini və onların müavinlərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;";

5.3.13.6. aşağıdakı məzmunda 18.7-1-ci və 18.7-2-ci bəndlər əlavə edilsin:

"18.7-1. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların bu Əsasnamənin 18.7-ci bəndində nəzərdə tutulmayan digər işçilərinin vəzifəyə təyin və vəzifədən azad edilməsinə, habelə onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsinə razılıq verir;

18.7-2. Nazirliyin Aparatının işçilərinə və onun strukturuna daxil olan qurumların bu Əsasnamənin 18.7-ci bəndində nəzərdə tutulan işçilərinə müvafiq ixtisas dərəcələri verir, həmçinin xüsusi fərqlənmiş işçilərə, o cümlədən Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinə Azərbaycan Respublikasının fəxri adlarının verilməsi və ya onların dövlət təltifləri ilə təltif olunması üçün Azərbaycan Respublikasının Prezidentinə təqdimat verir;";

5.3.13.7. 18.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"18.8. əmr və sərəncam formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlikdə qəbul olunmuş normativ hüquqi aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;";

5.3.13.8. 18.9-cu bənddə "qanunvericiliyə" sözü "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.3.13.9. 18.10-cu bənddə "hakimiyyəti orqanları, idarə, müəssisə və təşkilatları ilə" sözləri "orqanları (qurumları) ilə, hüquqi və fiziki şəxslərlə, habelə beynəlxalq təşkilatlarla" sözləri ilə, "danışıqlar aparır, verilmiş səlahiyyətlər daxilində müvafiq müqavilələri, sazişləri və protokolları" sözləri "fəaliyyət istiqamətlərinə uyğun olaraq danışıqlar aparır və müvafiq beynəlxalq sənədləri" sözləri ilə əvəz edilsin;

5.3.13.10. 18.11-ci bənddə "tərkibi" sözü "həddi" sözü ilə əvəz edilsin;

5.3.13.11. 18.12- 18.16-cı bəndlər aşağıdakı redaksiyada verilsin:

"18.12. dövlət büdcəsindən ayrılmış vəsait və işçilərin müəyyən olunmuş say həddi daxilində Nazirliyin Aparatının struktur bölmələrini, yerli (regional) bölmələrini və Nazirliyin strukturuna daxil olan qurumların struktur bölmələrini (müvafiq strukturların Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildiyi hallar istisna olmaqla) yaradır və ləğv edir;

18.13. "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür, o cümlədən korrupsiya ilə əlaqədar hüquqpozmalarla bağlı məlumatların idarədaxili qaydada verilməsi mexanizmini, həmçinin bu məlumatların qəbul edilməsi və araşdırılması, maraqlar toqquşması və korrupsiyanın qarşısının alınması məsələləri üzrə konfidensial məsləhət verilməsi və korrupsiya risklərinin idarə edilməsi üçün bir və ya bir neçə səlahiyyətli struktur bölməsini (şəxsi) müəyyən edir;

18.14. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar vəsaitin, habelə tabeliyindəki qurumların göstərdiyi xidmətlərdən (gördüyü işlərdən) əldə olunan gəlirlərin sərəncamçısı olaraq maliyyə vəsaitini bölüşdürür, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Nazirliyin Aparatının struktur bölmələrinin, strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların işçilərinin vəzifə maaşlarına əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;

18.15. Nazirliyin Apellyasiya Şurasının sədrini, habelə Apellyasiya Şurası sədrinin təqdimatı (təklifi) əsasında Apellyasiya Şurasının digər üzvlərini, Katibliyin rəhbərini və tərkibini təsdiq edir;

18.16. normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.";

5.3.14. aşağıdakı məzmunda 18-1-ci və 18-2-ci hissələr əlavə edilsin:

"18-1. Nazir öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

18-2. Nazirliyin strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.";

5.3.15. 21-ci hissədən "onlar haqqında" sözləri çıxarılsın;

5.3.16. aşağıdakı məzmunda 21-1-ci hissə əlavə edilsin:

"21-1. Nazirliyin Kollegiyası qərar formasında aşağıdakı normativ hüquqi aktları qəbul edir:

21-1.1. Nazirliklə digər şəxslər (qurumlar) arasında münasibətləri tənzimləyən normativ hüquqi aktları;

21-1.2. qəbul edilməsi Azərbaycan Respublikasının Prezidenti və ya Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən Nazirliyə tapşırılmış konkret normativ hüquqi aktları;

21-1.3. bir neçə dövlət orqanının fəaliyyətini tənzimləyən vahid (birgə) normativ hüquqi aktları;

21-1.4. aidiyyəti dövlət orqanları ilə razılaşdırılmalı olan normativ hüquqi aktları;

21-1.5. bu Əsasnamənin 21-1.1-21-1.4-cü bəndlərinə uyğun olaraq Nazirliyin Kollegiyasının qəbul etdiyi normativ hüquqi aktların ləğvi və ya onlarda dəyişiklik edilməsi barədə normativ hüquqi aktları.";

5.3.17. 23-cü hissə ləğv edilsin;

5.3.18. 25-ci və 27-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"25. Nazirliyin kollegiyasının iclaslarına digər dövlət orqanlarının (qurumlarının)və hüquqi şəxslərin, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri dəvət edilə bilərlər.";

"27. Nazirliyin fəaliyyət sahəsində elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi və həyata keçirilməsi üçün Nazirlikdə ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şura yaradıla bilər.";

5.3.19. aşağıdakı məzmunda 28-ci hissə əlavə edilsin:

"28. Nazirlikdə, sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin özlərinin sahibkarlıq fəaliyyəti ilə bağlı Nazirliyin, onun strukturuna daxil olan qurumların və strukturuna daxil olmayan tabeliyindəki digər qurumların qərarlarından, hərəkət və ya hərəkətsizliyindən (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Mərkəzi icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 1.9-cu bəndində nəzərdə tutulmuş hallar istisna olmaqla) verdikləri şikayətlərə, habelə dövlət qulluğuna qəbulla bağlı keçirilən müsahibənin nəticələrindən namizədlərin verdikləri şikayətlərə baxan, ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərən və kollegial orqan olan Apellyasiya Şurası yaradılır.";

5.4. həmin Fərmanla təsdiq edilmiş Əlavə III - "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyi haqqında Əsasnamə" üzrə:

5.4.1. adında "Respublikası Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı" sözləri "Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq" sözləri ilə əvəz edilsin;

5.4.2. 1-ci və 2-ci hissələr aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyi (bundan sonra - Agentlik) dövlət büdcəsinin kassa icrasını həyata keçirən və həmin maliyyə əməliyyatlarının uçotunu aparan, büdcə təşkilatlarının satın aldığı mal, iş və xidmətlərə görə yaranan kreditor borclarını ödəyən, Azərbaycan Respublikasında dövlətə məxsus maliyyə vəsaitlərinin vahid mərkəzdən idarə edilməsi, bu vəsaitlərin daxil olması və məqsədyönlü xərclənməsi sahəsində cari nəzarəti həyata keçirən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) strukturuna daxil olan qurumdur.

2. Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.";

5.4.3. 3-cü hissə ləğv edilsin;

5.4.4. 4-cü hissədə "bilavasitə və öz səlahiyyətləri çərçivəsində mərkəzi, yerli icra hakimiyyəti və" sözləri "digər dövlət orqanları (qurumları)," sözləri ilə, "habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə" sözləri ", beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə" sözləri ilə əvəz edilsin;

5.4.5. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Agentliyin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin və öz adı həkk olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.";

5.4.6. 6-cı hissəyə "fəaliyyəti" sözündən sonra ", habelə maddi-texniki təminatı" sözləri əlavə olunsun və həmin hissədə "və qanunvericiliklə" sözləri ", normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda" sözləri ilə əvəz edilsin;

5.4.7. 8-ci hissə üzrə:

5.4.7.1. 8.1-ci bənddən "qəbul etdiyi" sözləri çıxarılsın;

5.4.7.2. aşağıdakı məzmunda 8.3-1-ci bənd əlavə edilsin:

"8.3-1. dövlət xəzinədarlığındakı xəzinə hesabları üzrə xəzinə əməliyyatlarını həyata keçirir;";

5.4.7.3. 8.4-cü bənddə "qanunvericiliklə" sözü "Azərbaycan Respublikası Prezidentinin aktları ilə" sözləri ilə əvəz edilsin;

5.4.8. 9-cu hissə üzrə:

5.4.8.1.9.3-cü bəndə "daxilolmalar" sözündən sonra "və ödəmələr" sözləri əlavə olunsun və həmin bənddə "dövlət təminatı ilə alınmış kreditlər üzrə maliyyə əməliyyatlarını" sözləri "dövlət borcalmaları üzrə əməliyyatları (Azərbaycan Respublikası adından imzalanmış kredit müqavilələrinin şərtləri nəzərə alınmaqla)" sözləri ilə, "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

5.4.8.2. aşağıdakı məzmunda 9.3-1-ci və 9.3-2-ci bəndlər əlavə edilsin:

"9.3-1. dövlət orqanlarına (qurumlarına), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, dövlət adından yaradılan publik hüquqi şəxslərə və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatlara dövlət büdcəsindən ayrılan vəsaitdən istifadənin, büdcə ssudalarının, dövlət sifarişi ilə həyata keçirilən layihələrin, subsidiya və subvensiyaların dövlət xəzinədarlığı vasitəsilə ünvanlı icra edilməsini təmin etmək;

9.3-2. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, dövlət adından yaradılan publik hüquqi şəxslərin və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər təşkilatların bank hesablarına çıxış imkanı əldə etmək;";

5.4.8.3. 9.5-ci bənddə "mərkəzləşdirilmiş xərclər üzrə nəzərdə tutulmuş resurslardan" sözləri "maliyyə resurslarından"sözləri ilə əvəz edilsin;

5.4.8.4. 9.6-cı bənddən birinci halda "büdcə" sözü çıxarılsın;

5.4.8.5. 9.8-ci bənddə "maliyyələşən təşkilatların sifarişi və məxaric cədvəllərinə" sözləri "maliyyə vəsaiti alan təşkilatların sifarişinə" sözləri ilə əvəz edilsin;

5.4.8.6. 9.9-cu bənddə "örtülməsi" sözü "bağlanması" sözü ilə əvəz edilsin;

5.4.8.7. 9.10-cu bənddə "dövlət büdcəsindən maliyyələşən bütün idarə, müəssisə və" sözləri "dövlət orqanları (qurumları), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər və dövlət büdcəsindən maliyyə vəsaiti alan digər" sözləri ilə əvəz edilsin;

5.4.8.8. 9.13-cü bənddə "rayon, şəhər üzrə maliyyə idarələrinin və şöbələrinin xəzinədarlıq strukturlarında və regional (zona) xəzinədarlıq orqanlarında" sözləri "Agentliyin strukturuna daxil olan qurumlarda" sözləri ilə, "mövcud qanunvericiliyə" sözləri "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin və həmin bənddən "mövcud kredit resursu və" sözləri çıxarılsın;

5.4.8.9. 9.16-cı bənddə "rayon, şəhər üzrə maliyyə idarələrinin və şöbələrinin xəzinədarlıq strukturları və regional (zona) xəzinədarlıq orqanları" sözləri "Agentliyin strukturuna daxil olan qurumlar" sözləri ilə əvəz edilsin;

5.4.8.10. 9.17-ci bənddən "qanunvericiliyə uyğun olaraq" sözləri çıxarılsın;

5.4.8.11. aşağıdakı məzmunda 9.17-1- 9.17-4-cü bəndlər əlavə edilsin:

"9.17-1. Agentliyin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Nazirliyə təkliflər vermək;

9.17-2. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daimi yenilənməsini təmin etmək;

9.17-3. Agentliyin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

9.17-4. Agentliyin fəaliyyət sahəsində dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;";

5.4.8.12. 9.18-ci bənd ləğv edilsin;

5.4.8.13. aşağıdakı məzmunda 9.18-1-ci bənd əlavə edilsin:

"9.18-1. Agentliyin fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;";

5.4.8.14. 9.19-cu bəndə "tərəfindən" sözündən sonra "satın" sözü əlavə edilsin və həmin bənddən "xəzinə hesab kitablarında" sözləri çıxarılsın;

5.4.8.15. 9.20-ci bənddə "normativ tənzimləmənin" sözləri "normayaratma fəaliyyətinin" sözləri ilə, "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

*Ardı 4-cü səh.*

# Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

# Azərbaycan Respublikasının Prezidentinin Fərmanı

*Əvvəli 3-cü səh.*

5.4.8.16. aşağıdakı məzmunda 9.20-1-ci və 9.20-2-ci bəndlər əlavə edilsin:

"9.20-1. Agentlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

9.20-2. Agentlikdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;";

5.4.8.17. 9.21-ci bənd aşağıdakı redaksiyada verilsin:

"9.21. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

5.4.9. 10-cu hissə üzrə:

5.4.9.1. birinci abzasa"Agentlik" sözündən əvvəl "Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək üçün" sözləri əlavə olunsun və həmin abzasdan "öz vəzifələrini yerinə yetirmək üçün" sözləri çıxarılsın;

5.4.9.2. 10.1-ci bənddə "mərkəzləşdirilmiş xərclərin" sözləri "dövlət büdcəsinin" sözləri ilə əvəz olunsun və həmin bəndə "sənədləri" sözündən sonra "və məlumatları" sözləri əlavə edilsin;

5.4.9.3. 10.2-ci bənddə "nazirlik, komitə, şirkət, baş idarə və idarələrdən" sözləri "təşkilatlardan" sözü ilə əvəz edilsin;

5.4.9.4.10.3-cü bənddən "rayon, şəhər üzrə maliyyə idarələrinin və şöbələrinin xəzinədarlıq strukturlarının və regional (zona) xəzinədarlıq orqanlarının" sözləri çıxarılsın və həmin bənddə "Agent-Banklarda" sözləri "müvəkkil banklarda" sözləri ilə əvəz edilsin;

5.4.9.5. 10.4-cü bənddə"Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

5.4.9.6. 10.5-ci bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə, "məhkəmə qərarlarına və hüquq-mühafizə orqanlarının müraciətlərinə əsasən idarə, müəssisə və təşkilatlarda aparılan təftiş və yoxlamalarda" sözləri "dövlət orqanlarında (qurumlarında), büdcədənkənar dövlət fondlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə aparılan maliyyə nəzarəti tədbirlərində" sözləri ilə əvəz edilsin;

5.4.9.7. 10.6-cı bənddə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla" sözləri ilə əvəz edilsin;

5.4.9.8. 10.7-ci bənddə "maliyyə yardımları alan digər" sözləri "dotasiya, subsidiya, subvensiya və digər maliyyə vəsaiti alan" sözləri ilə əvəz olunsun və həmin bəndə "vəsaitlərdən" sözündən sonra ", dövlət adından yaradılan publik hüquqi şəxslərə münasibətdə isə - həmçinin onların fəaliyyətindən əldə olunan vəsaitdən" sözləri əlavə edilsin;

5.4.9.9. aşağıdakı məzmunda 10.7-1-ci bənd əlavə edilsin:

"10.7-1. fəaliyyət sahəsində normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;";

5.4.9.10. 10.8-ci bənddə "fəaliyyət göstərdiyi sahə üzrə dövlət" sözləri "fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına)" sözləri ilə əvəz edilsin;

5.4.9.11. 10.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"10.9. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;";

5.4.9.12. aşağıdakı məzmunda 10.9-1-ci bənd əlavə edilsin:

"10.9-1. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;";

5.4.9.13. 10.10-cu bənd aşağıdakı redaksiyada verilsin:

"10.10. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;";

5.4.9.14. aşağıdakı məzmunda 10.10-1- 10.10-4-cü bəndlər əlavə edilsin:

"10.10-1. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

10.10-2. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

10.10-3. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

10.10-4. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;";

5.4.9.15. 10.11-ci bənddə "fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş" sözləri "Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş" sözləri ilə əvəz edilsin;

5.4.10. 11-ci hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin direktoru Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.";

5.4.11. 12-ci hissə ləğv edilsin;

5.4.12. 13-cü hissədə "iki" sözü "dörd" sözü ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentlik direktorunun müavinləri onlara Agentlik direktorunun həvalə etdiyi vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.";

5.4.13. 14-cü hissə üzrə:

5.4.13.1. aşağıdakı məzmunda 14.1-1-ci bənd əlavə edilsin:

"14.1-1. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Agentliyin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;";

5.4.13.2. 14.2-ci bənddə "regional (zona) xəzinədarlıq orqanlarının" sözləri "onun strukturuna daxil olan qurumların" sözləri ilə, "və ayrılmış büdcə təxsisatı daxilində xərclər smetasını təsdiq edilmək üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri ", ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində xərclər smetasını təsdiq edilmək üçün Nazirliyə" sözləri iləəvəz edilsin və həmin bəndə "edir" sözündən sonra ", habelə Agentliyin struktur bölmələrinin və strukturuna daxil olan qurumların əsasnamələrini Nazirliklə razılaşdırmaqla təsdiq edir" sözləri əlavə edilsin;

5.4.13.3. 14.3-cü bəndə birinci halda "rəhbərləri" sözündən sonra ", onların müavinləri" sözləri, "olmaqla," sözündən sonra "Nazirliyin razılığı ilə" sözləri əlavə olunsun və həminbənddə "regional (zona) orqanlarının" sözləri "strukturuna daxil olan qurumların" sözləri ilə əvəz edilsin;

5.4.13.4. 14.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"14.4. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Agentlik işçilərinin vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;

5.4.13.5. 14.5-ci bənd ləğv edilsin;

5.4.13.6. aşağıdakı məzmunda 14.5-1-ci bənd əlavə edilsin:

"14.5-1. Agentliyin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;";

5.4.13.7. 14.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"14.6. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;";

5.4.13.8. aşağıdakı məzmunda 14.6-1- 14.6-5-ci bəndlər əlavə edilsin:

"14.6-1."Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür;

14.6-2. Agentliyin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini, o cümlədən hüquqi aktların layihələrini hazırlayıb Nazirliyə təqdim edir;

14.6-3. Nazirliyin iş planında və qərarlarında, Azərbaycan Respublikası maliyyə nazirinin əmr, sərəncam və göstərişlərində nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

14.6-4. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

14.6-5. Agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi, habelə həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şuranın yaradılması barədə Nazirliyə təkliflər verir.";

5.4.13.9. 14.7-ci bənddə "bütün dövlət orqanları" sözləri "dövlət orqanları (qurumları)" sözləri ilə əvəz edilsin və həmin bənddən "vəkalətnaməsiz" sözü çıxarılsın;

5.4.13.10. 14.8-ci bənddə "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

5.4.13.11. 14.9-cu bənddə "Azərbaycan Respublikasının qanunvericiliyinə" sözləri "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.4.14. aşağıdakı məzmunda 15-ci və 16-cı hissələr əlavə edilsin:

"15. Agentliyin direktoru öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

16. Agentliyin strukturuna daxil olan qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.";

5.5. həmin Fərmanla təsdiq edilmiş Əlavə V - "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti haqqında Əsasnamə" üzrə:

5.5.1. 1 - 4-cü hissələr aşağıdakı redaksiyada verilsin:

"1. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti (bundan sonra - Xidmət) dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının vəsaitinin, dövlət zəmanəti ilə alınan və dövlət büdcəsinin vəsaiti hesabına verilən kreditlərin, dövlət büdcəsindən maliyyələşən təşkilatların büdcədənkənar vəsaitinin, habelə dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin vəsaitinin (bundan sonra - dövlət vəsaiti)əldə edilməsi və təyinatı üzrə məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətini həyata keçirən Azərbaycan Respublikası Maliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) strukturuna daxil olan qurumdur.

2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və Nazirliyin hüquqi aktlarını rəhbər tutur.

3. Xidmət öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

4. Xidmətin müstəqil balansı, istifadəsində olan dövlət əmlakı, xəzinə və bank hesabları, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri, Nazirliyin və öz adı əks olunmuş möhürü, kargüzarlıq xidmətinin gerbsiz möhürü, müvafiq ştampları və blankları vardır.";

5.5.2. 5-ci hissəyə "xərcləri" sözündən sonra "və fəaliyyəti, habelə maddi-texniki təminatı" sözləri əlavə olunsun və həmin hissədə "qanunvericiliklə" sözü "normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda" sözləri ilə əvəz edilsin;

5.5.3. 7-ci, 8-ci və 9-cu hissələr aşağıdakı redaksiyada verilsin:

"7. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

7.1. dövlət vəsaitinin əldə edilməsi və təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarəti tədbirlərini (bundan sonra - nəzarət tədbirləri) həyata keçirmək;

7.2. dövlət orqanlarında (qurumlarında), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə daxili nəzarəti həyata keçirən daxili audit qurumlarının fəaliyyətinin vahid metodoloji baza əsasında uyğunlaşdırılmasını təmin etmək;

7.3. Azərbaycan Respublikasında dövlət maliyyə nəzarətinin həyata keçirilməsi işinə metodiki rəhbərlik etmək, bu sahənin inkişafı üçün mütəmadi olaraq tədbirlər görmək və normayaratma fəaliyyətinin həyata keçirilməsində iştirak etmək;

7.4. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.";

"8. Bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq, Agentliyin vəzifələri aşağıdakılardır:

8.1. dövlət vəsaitinin əldə edilməsi və təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətini təmin etmək məqsədilə nəzarət tədbirlərini yerinə yetirmək;

8.2. dövlət orqanlarının (qurumlarının), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin gəlir və xərclərinin, əmlak və öhdəliklərinin idarə edilməsinin normativ hüquqi aktların tələblərinə uyğunluğunun, qənaətliliyinin, səmərəliliyinin və nəticəliliyinin qiymətləndirilməsi məqsədilə nəzarət tədbirlərini yerinə yetirmək;

8.3. dövlət vəsaiti hesabına həyata keçirilən dövlət investisiya layihələri və digər infrastruktur layihələr üzrə işlərin icrasına nəzarət etmək;

8.4. məhkəmə, prokurorluq və istintaq orqanlarının qərarlarına əsasən dövlət orqanlarında (qurumlarında), büdcədənkənar dövlət fondlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdənəzarət tədbirlərini həyata keçirmək;

8.5. həyata keçirilən nəzarət tədbirləri nəticəsində cinayət əlamətləri aşkar etdikdə, Nazirlik tərəfindən Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə uyğun tədbirlərin görülməsi üçün nəzarət tədbirinin materiallarını Nazirliyə təqdim etmək;

8.6. təşkilatlarda mühasibat uçotunun aparılması işləri mövcud normativ hüquqi aktların tələblərinə cavab vermədikdə mühasibat uçotunun aparılması işlərinin bərpa edilməsini və sonradan nəzarət tədbirinin həyata keçirilməsi üçün bu barədə məlumatların verilməsini həmin təşkilatdan tələb etmək;

8.7. nəzarət tədbirləri nəticəsində aşkar olunmuş pozuntuların aradan qaldırılması və gələcəkdə belə hallara yol verilməməsi məqsədilə, habelə pozuntulara yol verilməsində təqsiri olan vəzifəli şəxslərin intizam məsuliyyətinə cəlb edilməsi üçün nəzarət tədbirlərinin həyata keçirildiyi təşkilatlara və ya onların tabe olduğu orqanlara (qurumlara) təqdimatlar vermək;

8.8. nəzarət tədbirlərinin nəticələri üzrə aşkar olunan pozuntuların aradan qaldırılmasına və bununla əlaqədar verilmiş tövsiyələrin və təqdimatların yerinə yetirilməsinə nəzarəti həyata keçirmək;

8.9. nəzarət tədbirləri zamanı dövlət vəsaitindən istifadə ilə bağlı aşkar olunan artıq və əsassız ödənişlərin izlənilməsi məqsədilə onların uçotunu aparmaq, həmin vəsaitin ilkin mənbəyinə bərpa olunmasına nəzarət etmək;

8.10. nəzarət tədbirləri nəticəsində aşkar edilmiş hüquq pozuntularını mütəmadi olaraq təhlil etmək və onların aradan qaldırılması barədə təkliflər vermək;

8.11. həyata keçirilən nəzarət tədbirləri nəticəsində inzibati xəta əlamətləri aşkar etdikdə, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun tədbirlər görmək;

8.12. aparılmış nəzarət tədbirlərinə və nəticələrinə dair məlumatları ildə iki dəfədən az olmayaraq ictimaiyyətə təqdim etmək;

8.13. dövlət maliyyə nəzarətini təmin etmək məqsədilə müvafiq il üçün iş planı hazırlamaq və Nazirliklə razılaşdırmaqla təsdiq etmək;

8.14. fəaliyyəti ilə bağlı daxil olan müraciətlərə "Vətəndaşların müraciətləri haqqında", "İnzibati icraat haqqında" və "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq baxmaq və qanunla müəyyən edilmiş qaydada tədbirlər görmək;

8.15. dövlət maliyyə nəzarəti fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində öz səlahiyyətləri daxilində tədbirlər görmək və müvafiq normayaratma fəaliyyətinin həyata keçirilməsi üçün Nazirliyə təkliflər təqdim etmək;

8.16. dövlət orqanlarında (qurumlarında), dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və dövlət adından yaradılan publik hüquqi şəxslərdə daxili audit qurumlarının fəaliyyətinin əlaqələndirilməsini və beynəlxalq daxili audit standartlarına uyğun vahid metodoloji bazasını təmin etmək, daxili audit qurumlarından fəaliyyəti barədə illik hesabatlar almaq;

8.17. "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq nəzarət orqanının funksiyalarının həyata keçirilməsində iştirak etmək;

8.18. öz fəaliyyətini Nazirliyin digər struktur bölmələri ilə əlaqələndirmək;

8.19. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;

8.20. Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində Nazirliyə təkliflər vermək;

8.21. öz fəaliyyəti haqqında əhalinin məlumatlandırılmasını, rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və siyahısı "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş açıqlanmalı olan ictimai informasiyanın həmin informasiya ehtiyatında yerləşdirilməsini və bu informasiyanın daim yenilənməsini təmin etmək;

8.22.Xidmətin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

8.23. Xidmətin fəaliyyət sahəsində dövlət proqramlarının və inkişaf konsepsiyalarının hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

8.24. Xidmətdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;

8.25. qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, Xidmətin fəaliyyətində elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

8.26. Xidmətdə kargüzarlıq, rəqəmsal sənəd dövriyyəsi və arxiv işinin aparılmasını təşkil etmək;

8.27. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.";

"9. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrini yerinə yetirmək üçün Xidmət aşağıdakı hüquqlara malikdir:

9.1. nəzarət tədbiri həyata keçirilən təşkilatlardan və həmin təşkilatlarla maliyyə-təsərrüfat əlaqəsində olan müəssisələrdən nəzarət tədbirinin aparılması üçün zəruri olan sənədləri, məlumatları, hesabatları, arayışları və izahatları almaq, habelə həmin təşkilatların və digər dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərinə maneəsiz çıxış əldə etmək;

9.2. dövlət maliyyə nəzarəti sahəsində beynəlxalq təcrübənin və beynəlxalq səviyyədə qəbul edilmiş audit standartlarının tətbiqi üçün Nazirliyə təkliflər vermək;

9.3. fəaliyyət sahəsində normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək;

9.4. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;

9.5. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;

9.6. plandankənar nəzarət tədbirlərini həyata keçirmək;

9.7. nəzarət tədbirləri zamanı dövlət vəsaitindən istifadə ilə bağlı aşkar olunan artıq və əsassız ödənişlərin ilkin mənbəyinə bərpa olunması barədə aidiyyəti dövlət orqanlarından (qurumlarından) məlumatlar almaq;

9.8. nəzarət tədbirləri aparılan təşkilatlardan inventarizasiyanın aparılmasını tələb etmək, zərurət yarandıqda bilavasitə inventarizasiyanı həyata keçirmək;

9.9. nəzarət tədbirlərinin həyata keçirilməsi zamanı zərurət yarandığı hallarda sınaqların, ekspertizaların, analizlərin və müvafiq qiymətləndirmələrin, habelə elmi tədqiqatların aparılması üçün aidiyyəti təşkilatlara sifarişlər vermək;

9.10. nəzarət tədbirlərinə qarşılıqlı razılıq əsasında dövlət orqanlarının (qurumlarının) nümayəndələrini cəlb etmək;

9.11. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;

9.12. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;

9.13. sənədlərin saxtalaşdırılması, təhrif edilməsi və başqa yollarla mənimsəmə halları aşkar edilərsə, müvafiq qaydada rəsmiləşdirilməklə həmin sənədləri nəzarət obyektindən götürmək;

9.14. nəzarət obyektləri üzrə risklərin qiymətləndirilməsi nəticəsində həyata keçiriləcək nəzarət tədbirlərinin metodunu və mövzusunu müəyyən etmək;

9.15. nəzarət tədbiri həyata keçirilən təşkilatlardan bunun üçün lazımı şərait yaradılmasını, habelə müvafiq otaqla, texniki avadanlıqla və ləvazimatla, digər zəruri vasitələrlə təmin olunmasını tələb etmək;

9.16. nəzarət tədbirlərinin həyata keçirildiyi nəzarət obyektlərində malların (iş və xidmətlərin) satın alınmasının qanuniliyinin dəqiqləşdirilməsi üçün vəsaitin ödənildiyi digər təşkilatlarla, o cümlədən qeyri-hökumət təşkilatları ilə müəyyən edilmiş qaydada maliyyə nəzarəti obyektinin vəsaitinin xərclənməsi barədə sənədlərin qarşılıqlı yoxlanılmasını aparmaq;

9.17. məhkəmə, prokurorluq və istintaq orqanlarına göndərilən yoxlama materialları üzrə qəbul edilmiş qərarlardan normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada yuxarı orqanlara şikayət etmək;

9.18. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

9.19. nəzarət tədbirlərinin planlaşdırılması, aparılması və hesabatlılığı ilə əlaqədar informasiya texnologiyalarının tətbiqi imkanlarını mütəmadi olaraq araşdırmaq və tətbiq etmək;

9.20. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;

9.21. xüsusi bülletenlər və digər nəşrlər buraxmaq;

9.22. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;

9.23. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.";

5.5.4. 10-cu hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xidmətin rəisi Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.";

5.5.5. 11-ci hissə ləğv edilsin;

5.5.6.12-ci hissədə "iki" sözü "dörd" sözü ilə əvəz olunsun və həmin hissəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Xidmət rəisinin müavinləri onlara Xidmət rəisinin həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.";

5.5.7.13-cü hissə üzrə:

5.5.7.1.aşağıdakı məzmunda 13.1-1-ci bənd əlavə edilsin:

"13.1-1. müavinləri arasında vəzifə bölgüsü aparır, habelə Xidmətin digər vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir və qarşılıqlı fəaliyyətini təmin edir;";

5.5.7.2.13.2-ci bənddə "regional orqanlarının" sözləri "onun strukturuna daxil olan qurumların" sözləri ilə, "və xərclər smetasını təsdiq edilmək üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri ", ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində xərclər smetasını təsdiq edilmək üçün Nazirliyə" sözləri ilə əvəz olunsun və həmin bəndə "edir" sözündən sonra ", habelə Xidmətin struktur bölmələrinin və strukturuna daxil olan qurumların əsasnamələrini Nazirliklə razılaşdırmaqlatəsdiq edir" sözləri əlavə edilsin;

5.5.7.3.13.3-cü bəndə birinci halda "rəhbərləri" sözündən sonra ", onların müavinləri" sözləri, "olmaqla," sözündən sonra "Nazirliyin razılığı ilə" sözləri əlavə olunsun və həmin bənddə "regional orqanlarının" sözləri "strukturuna daxil olan qurumların" sözləri ilə əvəz edilsin;

5.5.7.4.13.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"13.4. dövlət büdcəsindən ayrılan vəsaitin, büdcədənkənar xüsusi vəsaitin təyinatı üzrə xərclənməsini təmin edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, Xidmətin işçilərinin vəzifə maaşlarına müəyyən edilmiş əlavələrin, maddi yardım, mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin verilməsini təmin edir;";

5.5.7.5. 13.5-ci bənddə "regional orqanlarının" sözləri "strukturuna daxil olan qurumların" sözləri ilə əvəz edilsin;

5.5.7.6.13.6-cı bənd ləğv edilsin;

5.5.7.7. 13.7-ci bənd aşağıdakı redaksiyada verilsin:

"13.7. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir və onların, habelə Nazirlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;";

5.5.7.8. aşağıdakı məzmunda 13.7-1- 13.7-5-ci bəndlər əlavə edilsin:

"13.7-1."Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür;

13.7-2. Xidmətin strukturunun və fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı təkliflərini, o cümlədən hüquqi aktların layihələrini hazırlayıb Nazirliyə təqdim edir;

13.7-3. Nazirliyin iş planında və qərarlarında, Azərbaycan Respublikası maliyyə nazirinin əmr, sərəncam və göstərişlərində nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

13.7-4. vətəndaşların qəbulunu və müraciətlərinə baxılmanı təmin edir;

13.7-5. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq, elmi-texniki nailiyyətlərin və qabaqcıl təcrübənin öyrənilməsi, habelə həyata keçirilməsi üçün ictimai əsaslarla fəaliyyət göstərən Elmi-Texniki Şuranın yaradılması barədə Nazirliyə təkliflər verir;";

5.5.7.9.13.8-ci bənddə "bütün dövlət orqanları" sözləri "dövlət orqanları (qurumları)" sözləri ilə əvəz edilsin və həmin bənddən "vəkalətnaməsiz" sözü çıxarılsın;

5.5.7.10. 13.9-cu bənddə "Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə" sözləri "Nazirliyə" sözü ilə əvəz edilsin;

5.5.7.11. aşağıdakı məzmunda 13.9-1-ci bənd əlavə edilsin:

"13.9-1. Xidmətin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;";

5.5.7.12. 13.10-cu bənddə "Azərbaycan Respublikasının qanunvericiliyinə" sözləri "normativ hüquqi aktlara" sözləri ilə əvəz edilsin;

5.5.8. aşağıdakı məzmunda 14-cü və 15-ci hissələr əlavə edilsin:

"14. Xidmətin rəisi öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.

15. Xidmətin strukturuna daxil olan qurumların rəhbərləri onlara həvalə edilmiş vəzifələrin yerinə yetirilməsi və funksiyaların həyata keçirilməsi üçün birbaşa məsuliyyət daşıyırlar.".

6. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 16 oktyabr tarixli 842 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 10, maddə 1587 (Cild I);2025, № 8, maddə 751) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1-ci hissə üzrə:

6.1.1. 1.2-ci bənddə "Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Əsasnaməni" sözləri "bu Əsasnaməni, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını" sözləri ilə əvəz edilsin;

6.1.2. 1.3-cü bənd aşağıdakı redaksiyada verilsin:

"1.3. Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Azərbaycan Respublikasının digər dövlət orqanları (qurumları), yerli özünüidarəetmə orqanları, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, habelə digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.";

*Ardı 5-ci səh.*

# İcbari tibbi sığorta fondunun 2026-cı il büdcəsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-21.1-1-ci maddəsinə uyğun olaraq **qərara alıram:**

1. İcbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin xərcləri 2 621 460 000,00 manat məbləğində təsdiq edilsin. Bu xərclərin maliyyələşmə mənbələri aşağıdakılardır:

1.1. icbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin gəlirləri 1 976 000 000,00 manat;

1.2. icbari tibbi sığorta fondunun büdcəsinin əvvəlki illərdə istifadə olunmamış vəsaitindən (qalığından) 2026-cı ilin xərclərinin maliyyələşdirilməsinə yönəldilən 645 460 000,00 manat.

2. Müəyyən edilsin ki, 2026-cı ildə icbari tibbi sığorta fondunun gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| **2.1.** | **Əhalinin dövlət büdcəsinin vəsaiti hesabına icbari tibbi sığortalanması** | **900 000 000,00** |
| **2.2.** | **İcbari tibbi sığorta haqları, cəmi, o cümlədən:** | **1 000 400 000,00** |
| 2.2.1. | büdcədən maliyyələşən təşkilatlar üzrə | 163 875 000,00 |
| 2.2.2. | büdcədən maliyyələşən təşkilatlarda işləyənlər üzrə | 163 875 000,00 |
| 2.2.3. | qeyri-büdcə sektoru üzrə, o cümlədən: | 672 650 000,00 |
| 2.2.3.1. | sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər üzrə | 20 400 000,00 |
| **2.3.** | **Digər daxilolmalar, o cümlədən:** | **75600 000,00** |
| 2.3.1. | icbari tibbi sığorta üzrə sərbəst vəsaitin idarə olunması üzrə gəlirlər | 72 000 000,00 |
| 2.3.2. | "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinin pozulması ilə bağlı tətbiq olunan cərimələrdən, maliyyə sanksiyalarından və hesablanmış faizlərdən daxilolmalar | 3 600 000,00 |

3. Müəyyən edilsin ki, icbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin xərcləri aşağıdakı istiqamətlərdə həyata keçirilir:

| Sıra №-si | Xərclərin istiqamətləri | Məbləğ (manatla) |
|---|---|---|
| **3.1.** | **"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin Aparatının (filial, idarə) saxlanılma xərcləri** | **30 420 000,00** |
| **3.2.** | **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin saxlanılma xərcləri, o cümlədən:** | **42500 000,00** |
| 3.2.1. | "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin Aparatının saxlanılma xərcləri | 23 500 000,00 |
| 3.2.2. | "İnnovasiya və Təchizat Mərkəzi" publik hüquqi şəxsin saxlanılma xərcləri | 9 700 000,00 |
| 3.2.3. | "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki digər hüquqi şəxslərin saxlanılma xərcləri | 9300 000,00 |
| **3.3.** | **İcbari tibbi sığorta ödənişləri və dotasiya məbləği, cəmi** | **2 526 000 000,00** |
| **3.3.1.** | **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki və Naxçıvan Muxtar Respublikasının ərazisindəki tibb müəssisələri üzrə icbari tibbi sığorta ödənişləri və dotasiya məbləği üzrə xərclər, o cümlədən:** | **1605000 000,00** |
| 3.3.1.1. | tibb müəssisələrində kadr potensialının gücləndirilməsi ilə bağlı xərclər | 3 500 000,00 |
| 3.3.1.2. | işğaldan azad olunmuş ərazilərdə mobil hospitalların saxlanılma xərcləri | 1 500 000,00 |
| **3.3.2.** | **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki və Naxçıvan Muxtar Respublikasının ərazisindəki tibb müəssisələrinin dərman, sarğı ləvazimat və materiallarının, maddi-texniki bazasının və digər xərclərinin maliyyələşdirilməsi, o cümlədən:** | **471 000 000,00** |
| 3.3.2.1. | səhiyyə sahəsində dövlət proqramlarına və tədbirlərə ayrılan vəsait, o cümlədən: | 150 000 000,00 |
| 3.3.2.1.1. | şəkərli diabet xəstəliyi üzrə tədbirləri ilə bağlı xərclər | 69 000 000,00 |
| 3.3.2.1.2. | xroniki böyrək çatışmazlığı mübarizə tədbirləri üzrə xərclər, o cümlədən böyrək köçürülməsi tədbirləri ilə bağlı xərclər | 44 500 000,00 |
| 3.3.2.1.3. | vərəmlə mübarizə tədbirləri ilə bağlı xərclər | 2 000 000,00 |
| 3.3.2.1.4. | dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirləri ilə bağlı xərclər | 6 865 000,00 |
| 3.3.2.1.5. | ana və uşaqların sağlamlığının yaxşılaşdırılması, uşaqların icbari dispanserizasiyadan keçirilməsi tədbirləri ilə bağlı xərclər | 4 000 000,00 |
| 3.3.2.1.6. | hemofiliya xəstəliyinə qarşı mübarizə tədbirləri ilə bağlı xərclər | 17 000 000,00 |
| 3.3.2.1.7. | ixtioz və bullyozepidermoliz xəstəliyinə qarşı mübarizə tədbirləri ilə bağlı xərclər | 6 000 000,00 |
| 3.3.2.1.8. | uşaqlarda kistoz fibroz genetik xəstəliyinə qarşı mübarizə tədbirləri ilə bağlı xərclər | 635 000,00 |
| 3.3.2.2. | dərman, sarğı ləvazimat və materiallarının alınması xərcləri | 205 000 000,00 |
| 3.3.2.3. | tibb müəssisələri üçün ərzaq məhsullarının alınması və təminatı xərcləri | 20 500 000,00 |
| 3.3.2.4. | tibb müəssisələri üçün zəruri tibbi avadanlıq və inventarın alınması xərcləri | 31 500 000,00 |
| 3.3.2.5. | tibb müəssisələrində daşınmaz əmlakın əsaslı təmiri, yüngül konstruksiyalardan inşa edilən və asanlıqla quraşdırılıb-sökülə bilən tikililərin, kənd yerlərində modul tipli tibb məntəqələrinin tikintisi və quraşdırılması xərcləri | 40 000 000,00 |
| 3.3.2.6. | xidməti və xüsusi təyinatlı nəqliyyat vasitələrinin alınması xərcləri | 5 000 000,00 |
| 3.3.2.7. | işğaldan azad olunmuş ərazilərdə mobil hospitalların tikintisi, quraşdırılması və zəruri avadanlıqla təchizatı xərcləri | 1 000 000,00 |
| 3.3.2.8. | icbari tibbi sığorta sisteminin rəqəmsallaşdırılması üçün tibb müəssisələrində İT infrastrukturunun qurulması ilə bağlı xərclər, o cümlədən: | 18 000 000,00 |
| 3.3.2.8.1. | "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin məlumat mərkəzlərində informasiya təhlükəsizliyinin qorunması və elektron sistemlərin davamlı fəaliyyətinin təmin edilməsi (qeyri-maddi aktivlərin və avadanlığın alınması, quraşdırılması, sazlanması, proqram təminatı, texniki dəstək və lisenziyalar) xərcləri | 17 000 000,00 |
| 3.3.2.8.2. | digər xərclər | 1 000 000,00 |
| **3.3.3.** | **"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyində olmayan tibb müəssisələrinə tibbi xidmətlərə görə sığorta ödənişləri** | **410 000 000,00** |
| **3.3.4.** | **Aptek təşkilatlarına ambulator şəraitdə istifadə olunan dərman vasitələrinə görə sığorta ödənişi** | **40 000 000,00** |
| **3.4.** | **Sair xərclər** | **5 000 000,00** |
| **3.5.** | **İcbari tibbi sığorta üzrə sərbəst vəsaitin idarə olunması üzrə xərclər** | **14 400 000,00** |
| **3.6.** | **Beynəlxalq Sosial Təminat Assosiasiyasına üzvlük haqqının ödənilməsi xərcləri** | **40 000,00** |
| **3.7.** | **Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri** | **3 000 000,00** |
| **3.8.** | **Bank xərcləri** | **100 000,0** |

4. Müəyyən edilsin ki:

4.1. icbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin 2.1-ci bəndində nəzərdə tutulmuş vəsaitin ödənilməsini "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun 15-11.2-ci maddəsinə əsasən Azərbaycan Respublikasının Maliyyə Nazirliyi həyata keçirir;

4.2. "Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" publik hüquqi şəxsin tabeliyindəki və Naxçıvan Muxtar Respublikasının ərazisindəki tibb müəssisələrinin xərclər smetasında nəzərdə tutulmuş məbləğlə "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin (bundan sonra - Agentlik) həmin qurumlara ödədiyi sığorta ödənişlərinin məbləği arasında kəsir yarandığı halda, həmin kəsir aylıq əsaslarla icbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin 3.3.1-ci yarımbəndində nəzərdə tutulan vəsait hesabına maliyyələşdirilir. Agentlik tərəfindən tibb müəssisələrinin smetaları əsasında ödənilən vəsaitin xərclənməmiş hissəsi büdcə ilinin sonunadək Agentliyə qaytarılır;

4.3.icbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin 3.4-cü bəndində "Sair xərclər" üzrə nəzərdə tutulmuş vəsaitdən Agentliyin İdarə Heyətinin qərarı əsasında icbari tibbi sığortanın tətbiqi məqsədilə digər tədbirlərin maliyyələşdirilməsi üçün istifadə olunur;

4.4. icbari tibbi sığorta fondunun 2026-cı il büdcəsinin 3.7-ci bəndində "Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə tədbirlərinin bir hissəsinin maliyyələşdirilməsi xərcləri" üzrə nəzərdə tutulmuş vəsaitin bölgüsünü Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırmaqla Agentlik həyata keçirir.

5. Bu Fərman 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2025-ci il*

# Azərbaycan Respublikası Maliyyə Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 4-cü səh.*

6.1.3. 1.4-cü bəndə "təsviri" sözündən sonra ", Nazirliyin" sözü, "möhürü," sözündən sonra "kargüzarlıq xidmətinin gerbsiz möhürü," sözləri əlavə edilsin;

6.1.4. 1.5-ci bəndə "fəaliyyəti" sözündən sonra ", habelə maddi-texniki təminatı" sözləri əlavə olunsun və həmin bənddə "və qanunla nəzərdə tutulmuş" sözləri ", normativ hüquqi aktlarla müəyyən edilmiş hallarda büdcədənkənar vəsait və qanunda nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

6.2. 2.0.6-cı yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.0.7-ci yarımbənd əlavə edilsin:

"2.0.7. Azərbaycan Respublikası Prezidentinin aktları ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.";

6.3. 3-cü hissə üzrə:

6.3.1. 3.0.32-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"3.0.32. dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər, habelə fəaliyyət istiqamətlərinə uyğun təhlükəsizlik tədbirləri görmək;";

6.3.2. 3.0.33-cü yarımbənddən "strukturunun və" sözləri çıxarılsın və "ilə bağlı" sözləri "istiqamətində" sözü ilə əvəz edilsin;

6.3.3. 3.0.34-cü yarımbəndə "fəaliyyəti" sözündən əvvəl "öz" sözü əlavə olunsun və həmin yarımbənddə "internet saytının yaradılmasını," sözləri "rəsmi internet informasiya ehtiyatının yaradılmasını, malik olduğu və" sözləri ilə əvəz edilsin;

6.3.4. aşağıdakı məzmunda 3.0.34-1-ci yarımbənd əlavə edilsin:

"3.0.34-1. Agentliyin fəaliyyət sahəsində kadr hazırlığını təmin etmək, həmçinin mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;";

6.3.5. 3.0.35-ci yarımbənddə "reallaşdırılmasında" sözü "həyata keçirilməsində" sözləri ilə əvəz edilsin;

6.3.6. 3.0.37-ci yarımbəndə "fəaliyyəti" sözündən əvvəl "Agentliyin" sözü əlavə edilsin;

6.3.7. 3.0.38-ci yarımbəndə "kargüzarlıq" sözündən sonra ", rəqəmsal sənəd dövriyyəsi" sözləri əlavə edilsin;

6.3.8. aşağıdakı məzmunda 3.0.38-1-ci yarımbənd əlavə edilsin:

"3.0.38-1. Agentlikdə icra və əmək intizamına riayət olunması üçün tədbirlər görmək;";

6.4. 4-cü hissə üzrə:

6.4.1. 4.0.8-ci, 4.0.10-cu, 4.0.12-ci və 4.0.13-cü yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.0.8. müvafiq sahədə normayaratma fəaliyyətindən irəli gələn hüquqları həyata keçirmək";

"4.0.10. müstəqil ekspertləri və mütəxəssisləri, məsləhətçi və elmi təşkilatları müqavilə əsasında, bu məqsəd üçün nəzərdə tutulmuş vəsait çərçivəsində öz fəaliyyətinə cəlb etmək, işçi qruplar və komissiyalar yaratmaq;";

"4.0.12. fəaliyyət istiqamətlərinə aid məsələlərə dair dövlət orqanlarına (qurumlarına) və yerli özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.13. fəaliyyət istiqamətləri üzrə beynəlxalq təcrübəni öyrənmək, verilmiş səlahiyyətlər daxilində beynəlxalq əməkdaşlığı həyata keçirmək;";

6.4.2. 4.0.14-cü bənd ləğv edilsin;

6.4.3. 4.0.16-cı və 4.0.18-ci yarımbəndlər aşağıdakı redaksiyada verilsin:

"4.0.16. fəaliyyət istiqamətlərinə uyğun rəy və təkliflər vermək, təhlillər, tədqiqatlar, araşdırmalar, yoxlamalar və ümumiləşdirmələr aparmaq, metodiki və analitik materiallar, habelə tövsiyələr hazırlamaq;";

"4.0.18. beynəlxalq tədbirlərdə, o cümlədən forum, konfrans, sərgi və digər tədbirlərdə iştirak etmək və belə tədbirlərin keçirilməsi ilə bağlı Nazirliyə təkliflər vermək;";

6.4.4. aşağıdakı məzmunda 4.0.18-1-ci və 4.0.19-1-ci yarımbəndlər əlavə edilsin:

"4.0.18-1. istifadəsinə verilmiş dövlət əmlakı üzərində normativ hüquqi aktlarla müəyyən olunmuş hüquqlardan istifadə etmək;";

"4.0.19-1. "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq satınalmalar təşkil etmək;";

6.5.5-ci hissə üzrə:

6.5.1. 5.1-ci bənddə "Maliyyə nazirinin vəzifəyə təyin etdiyi və vəzifədən azad etdiyi" sözləri "maliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən" sözləri ilə əvəz olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentliyin direktoru Agentliyə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.";

6.5.2. 5.2-ci bənd ləğv edilsin;

6.5.3. 5.3-cü bənddə "Maliyyə nazirinin vəzifəyə təyin və vəzifədən azad etdiyi iki" sözləri "maliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən üç" sözləri ilə əvəz olunsun və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentlik direktorunun müavinləri onlara Agentlik direktorunun həvalə etdiyi vəzifələri yerinə yetirirlər və bunun üçün şəxsən məsuliyyət daşıyırlar.";

6.5.4. 5.4-cü bənd ləğv edilsin;

6.5.5. 5.5-ci bənd üzrə:

6.5.5.1. 5.5.3-cü yarımbənddə "cədvəlini və" sözləri "cədvəlini, ayrılmış büdcə təxsisatı və büdcədənkənar gəlirləri daxilində" sözləri ilə, "təsdiq olunmaq üçün Nazirliyə təqdim" sözləri "Nazirliklə razılaşdırmaqla təsdiq" sözləri ilə əvəz olunsun, həmin yarımbəndə "habelə" sözündən sonra "Agentliyin" sözü əlavə edilsin;

6.5.5.2. 5.5.4-cü yarımbənddən "onların," sözü çıxarılsın və həmin yarımbəndə "şəxslərinin" sözündən sonra "səlahiyyətlərini müəyyənləşdirir və" sözləri əlavə edilsin;

6.5.5.3. 5.5.5-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.5.5. Agentlik direktorunun müavinləri və Agentliyin struktur bölmələrinin rəhbərləri, onların müavinləri istisna olmaqla, Nazirliyin razılığı ilə Agentliyin digər işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;";

6.5.5.4. aşağıdakı məzmunda 5.5.5-1-ciyarımbənd əlavə edilsin:

"5.5.5-1. işçilərin peşə hazırlığının, o cümlədən əlavə təhsilinin təmin edilməsi üçün müvafiq tədbirlər görür;";

6.5.5.5.5.5.6-cı yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.5.6. əmr və sərəncamlar formasında qeyri-normativ hüquqi aktlar qəbul edir, habelə Nazirlikdə qəbul edilmiş normativ hüquqi aktların icrasını təşkil edir və buna nəzarəti həyata keçirir;";

6.5.5.6. aşağıdakı məzmunda 5.5.11-1-ci yarımbənd əlavə edilsin:

"5.5.11-1."Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı tədbirlər görür;";

6.5.5.7.5.5.12-ci yarımbənddə "vəsait" sözü "ayrılmış vəsaitin" sözləri ilə, "və mükafatların" sözləri ", mükafat və qanunla müəyyən olunmuş digər ödənişlərin" sözləri ilə əvəz edilsin;

6.5.5.8. 5.5.13-cü yarımbənddə "elmi-texniki şuranın" sözləri "Elmi-Texniki Şuranın" sözləri ilə,həmin bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 5.5.14-cü və 5.5.15-ci yarımbəndlər əlavə edilsin:

"5.5.14. Agentliyin vəzifəli şəxslərinin normativ hüquqi aktlara zidd olan qərarlarını ləğv edir;

5.5.15. normativ hüquqi aktlara uyğun olaraq digər səlahiyyətləri həyata keçirir.";

6.5.6. aşağıdakı məzmunda 5.6-cı bənd əlavə edilsin:

"5.6. Agentliyin direktoru öz səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini, yaxud vəzifələrinin müvəqqəti icrasını müavinlərindən birinə həvalə edə bilər.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 8, maddə 901 (Cild I); 2025, № 1, maddə 10, № 5, maddə 431) aşağıdakı məzmunda 17.3-cü maddə əlavə edilsin:

"17.3. Aşağıdakı bina və tikililər istisna olmaqla yeni tikilən, yenidən qurulan, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburidir:

17.3.1."Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmiş binalar (tikililər);

17.3.2. yardımçı və müvəqqəti tikililər;

17.3.3. istixanalar və anbar binaları;

17.3.4. istehsalat binaları;

17.3.5. fərdi yaşayış evləri;

17.3.6. Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 81.1-ci və 89.1-ci (89.1.4-cü maddə istisna olmaqla) maddələri ilə müəyyən edilmiş tikinti obyektləri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol"un təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2025-ci il sentyabrın 23-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında peşə təhsili sahəsində əməkdaşlığa dair 2021-ci il 19 fevral tarixli Protokola Əlavə Protokol" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23dekabr 2025-ci il*

# Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən və fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə, habelə bələdiyyələrə qrant verə bilən qurumlar, həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyi qeyri-hökumət təşkilatlarının müsabiqə yolu ilə və müsabiqədənkənar yolla, dövlət sifarişləri və subsidiya daxil olmaqla bütün növ maliyyələşdirilməsini "bir pəncərə" prinsipi əsasında Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə birlikdə həyata keçirsinlər.

2. "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi" informasiya sistemi (bundan sonra - Sistem) yaradılsın.

3. Müəyyən edilsin ki:

3.1. Sistem, bu Fərmanın 1-ci hissəsinə uyğun olaraq, qeyri-hökumət təşkilatlarının maliyyələşdirilməsi sahəsində "bir pəncərə" prinsipi əsasında əlaqələndirməni təmin edir;

3.2. Sistemin sahibi və operatoru funksiyalarını Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi həyata keçirir.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

4.1. qeyri-hökumət təşkilatlarının fəaliyyəti ilə bağlı normativ hüquqi aktların təkmilləşdirilməsinə dair təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. Sistemin əsasnaməsinin layihəsini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.3. bu Fərmanın 1-ci hissəsinə uyğun olaraq, qeyri-hökumət təşkilatlarının "bir pəncərə" prinsipi əsasında maliyyələşdirilməsinə dair qaydanı üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi:

5.1. Sistemin formalaşdırılmasını altı ay müddətində təmin etsin;

5.2. bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan dövlət qurumları ilə birlikdə qeyri-hökumət təşkilatları üçün müsabiqə yolu iləvə müsabiqədənkənar yolla, dövlət sifarişləri və subsidiya daxil olmaqla bütün növ maliyyələşdirmə üzrə mövzu və istiqamətlərin müəyyənləşdirilməsində iştirak etsin;

5.3. Agentliyin yeni strukturu, işçilərinin say həddi və əməyin ödənişi fondu ilə bağlı təkliflərini hazırlayıb bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

5.4. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

6. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 654 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1126 (Cild I); 2025, № 8, maddə 748) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşdirilən, fəaliyyət sahələrinə uyğun olaraq Azərbaycan Respublikasının hüquqi və fiziki şəxslərinə, habelə bələdiyyələrə qrant verə bilən qurumların siyahısı"nın 8-ci hissəsində "Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası" sözləri "Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" sözləri ilə əvəz edilsin.

7. "Xüsusi rabitə ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 11 aprel tarixli 622 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 622 (Cild I); 2024, № 3, maddə 262, № 4, maddə 397, № 5 (I kitab), maddə 526, № 6 (I kitab), maddə 657, № 8, maddə 948, № 11, maddə 1197; 2025, № 3, maddələr 224, 232, № 5, maddə 444, № 7, maddə 658, № 11, maddə 1018) aşağıdakı dəyişikliklər edilsin:

7.1. həmin Fərmanla təsdiq edilmiş Əlavə 1 - "Hökumət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin Siyahısı"nın 29.32-ci bəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 29.33-cü bənd əlavə edilsin:

"29.33. Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi İdarə Heyətinin sədri.";

7.2. həmin Fərmanla təsdiq edilmiş Əlavə 2 - "Xüsusi dövlət rabitəsi ilə təmin olunan vəzifəli şəxslərin siyahısı"nın 42-ci hissəsi ləğv edilsin.

8. "Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 322 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

8.1. 5-ci hissə üzrə:

8.1.1. 5.1-ci bənddə "11 (on bir)" sözləri "7 (yeddi)" sözləri ilə əvəz edilsin;

8.1.2. 5.2-ci bənddə "8 (səkkiz)" sözləri "4 (dörd)" sözləri ilə, "qeyri-hökumət təşkilatlarının" sözləri "vətəndaş cəmiyyəti institutlarının" sözləri iləəvəz edilsin;

8.1.3. 5.3-cü bənddə "İcraçı direktor" sözləri "3 (üç) üzvdən - sədr və onun iki müavinindən ibarət İdarə Heyəti" sözləri ilə əvəz edilsin;

8.2. həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Nizamnaməsi" üzrə:

8.2.1. 1-ci hissə üzrə:

8.2.1.1. 1.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.1. Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi (bundan sonra - Agentlik) qeyri-hökumət təşkilatlarının inkişafı, onların dövlət və cəmiyyət üçün əhəmiyyətli təşəbbüslərinin, proqram və layihələrinin dəstəklənməsi, bu istiqamətdə müvafiq əlaqələndirmə aparılması, dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və təşviqi sahəsində fəaliyyət göstərən, Azərbaycan Respublikasının dövlət büdcəsindən qeyri-hökumət təşkilatlarının bütün növ maliyyələşdirilməsini "bir pəncərə" prinsipi əsasında müvafiq dövlət qurumları ilə birlikdəhəyata keçirən publik hüquqi şəxsdir;

8.2.1.2. 1.4-cü bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Agentlik bu Nizamnamədə qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilər.";

8.2.1.3. aşağıdakı məzmunda 1.6-1-ci bənd əlavə edilsin:

"1.6-1. Agentliyin rəsmi adı aşağıdakı kimidir:

1.6-1.1. tam halda - "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" publik hüquqi şəxs, qısaldılmış halda - QHT Agentliyi;

1.6-1.2. ingilis dilində tam halda - "Agency on State Support to Non-Governmental Organizations of the Republic of Azerbaijan" public legal entity, qısaldılmış halda - NGO Agency.";

8.2.2. 2.1.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.4. qeyri-hökumət təşkilatlarının dövlət və cəmiyyət üçün əhəmiyyətli təşəbbüslərini, proqram və layihələrini dəstəkləmək, bu istiqamətdə müvafiq əlaqələndirməni təmin etmək, habelə dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərini təkmilləşdirmək və təşviq etmək;";

8.2.3. 3-cü hissə üzrə:

8.2.3.1. 3.1.7-ci yarımbənddən "təqvim ili üzrə" sözləri çıxarılsın və həmin yarımbəndə "şəxslərinə" sözündən sonra ", habelə bələdiyyələrə" sözləri əlavə edilsin;

8.2.3.2. aşağıdakı məzmunda 3.1.11-1-ci və 3.1.12-1-ci yarımbəndlər əlavə edilsin:

"3.1.11-1. qeyri-hökumət təşkilatlarının səriştəliliyinin və məsuliyyətinin artırılmasına,onların dayanıqlı inkişafına yönəlmiş tədbirlər görmək;";

"3.1.12-1. Azərbaycan Respublikasının dövlət büdcəsindən qeyri-hökumət təşkilatlarının bütün növ maliyyələşdirilməsini "bir pəncərə" prinsipi əsasında müvafiq dövlət qurumları ilə birlikdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydalara uyğun təşkil etmək;";

8.2.3.3. 3.2.13-cü yarımbəndə "əməkdaşlarını" sözündən sonra "və qeyri-hökumət təşkilatlarının nümayəndələrini" sözləri əlavə olunsun və həmin yarımbənddə "onların" sözü "habelə Agentlik əməkdaşlarının" sözləri ilə əvəz edilsin;

8.2.4. 4-cü hissə üzrə:

8.2.4.1. 4.2-ci bənddə "İcraçı direktordur" sözləri "İdarə Heyətidir" sözləri ilə əvəz edilsin;

8.2.4.2. 4.4-cü və 4.5-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.4. Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 7 (yeddi) üzvdən ibarətdir. Şuranın 4 (dörd) üzvü vətəndaş cəmiyyəti institutlarının, digər 3 (üç) üzvü isə dövlət orqanlarının nümayəndələrindən təyin edilir. Şuranın sədri Şuranın iclasında Şura üzvü olan vətəndaş cəmiyyəti institutlarının nümayəndələri sırasından 4 (dörd) il müddətinə seçilir.

4.5. Şura ictimai (ödənişsiz) əsaslarla fəaliyyət göstərir.";

8.2.4.3. 4.7.4-cü yarımbənddə "İcraçı direktoru və onun müavinini" sözləri "Agentliyin İdarə Heyətinin sədrini və onun müavinlərini" sözləri ilə əvəz edilsin;

8.2.4.4.4.7.9-cu və 4.7.11-ci yarımbəndlərdə "İcraçı direktorun" sözləri "İdarə Heyətinin" sözləri ilə əvəz edilsin;

8.2.4.5. 4.8-ci bənd üzrə:

8.2.4.5.1. birinci cümlədə "rübdə bir" sözləri "ildə 2 (iki)" sözləri ilə əvəz edilsin;

8.2.4.5.2. ikinci cümlədə "İcraçı direktor" sözləri "İdarə Heyətinin sədri" sözləri ilə əvəz edilsin;

8.2.4.5.3. altıncı cümlədə "Şura sədrinin (və ya onu əvəz edən müavinin)" sözləri "iclasa sədrlik edənin" sözləri ilə əvəz edilsin;

8.2.4.6. 4.9-cu bənddə "İcraçı direktora" sözləri "İdarə Heyətinin sədrinə" sözləri ilə əvəz edilsin;

8.2.4.7. 4.10-cu bənddə "İcraçı direktor da" sözləri "İdarə Heyətinin sədri də" sözləri ilə əvəz edilsin;

8.2.4.8.4.13-cü bəndin üçüncü cümləsində "İcraçı direktora" sözləri "İdarə Heyətinin sədrinə" sözləri ilə əvəz edilsin;

8.2.4.9. 4.16-cı bənd üzrə:

8.2.4.9.1. 4.16.1-ci yarımbənddə "İcraçı direktorun" sözləri "İdarə Heyətinin" sözləri ilə əvəz edilsin;

8.2.4.9.2. 4.16.3-cü yarımbənddə "İcraçı direktorun" sözləri "İdarə Heyəti sədrinin" sözləri ilə əvəz edilsin;

8.2.4.10. 4.17-ci bənddən "Şura sədrinin müavini, Şura sədrinin müavini olmadıqda isə" sözləri çıxarılsın;

8.2.4.11.4.20-ci bənd üzrə:

8.2.4.11.1. birinci cümlədə "İcraçı direktor" sözləri "İdarə Heyəti" sözləri ilə əvəz edilsin;

8.2.4.11.2. ikinci cümlədə "İcraçı direktor"sözləri "İdarə Heyətinin sədri və onun müavinləri" sözləri ilə əvəz edilsin;

8.2.4.11.3. üçüncü cümlədə "İcraçı direktorun" sözləri "İdarə Heyəti sədrinin" sözləri ilə əvəz olunsun və həmin cümləyə"azad edilən" sözlərindən sonra "2 (iki)" sözləri əlavə edilsin;

8.2.4.12. 4.21-ci bənddə "İcraçı direktor" sözləri "İdarə Heyətinin sədri" sözləri ilə, "müavini" sözü "müavinlərindən biri" sözləri ilə əvəz edilsin;

8.2.4.13. 4.22-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.22. İdarə Heyətinin vəzifələri aşağıdakılardır:

4.22.1. Agentliyin fəaliyyətini təşkil etmək;

4.22.2. bu Nizamnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi üçün Şuraya təkliflər vermək və sənədlər təqdim etmək;

4.22.3. Şuranın qərarlarını icra etmək;

4.22.4. aidiyyəti şəxslə dəyəri Agentliyin aktivlərinin 5 faizədək hissəsini təşkil edən əqdin bağlanması haqqında qərar qəbul etmək;

4.22.5. Agentliyin strateji məqsədlərinin və planlarının, habelə büdcəsinin icrasına nəzarət etmək;

4.22.6. bu Nizamnamənin 3.1.19-cu yarımbəndində nəzərdə tutulan vəsaitdən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

4.22.7. cari və operativ məsələlər barədə Şuranı məlumatlandırmaq;

4.22.8. İdarə Heyəti üzvlərinin müraciətlərinə baxmaq və qərar qəbul etmək;

4.22.9. bu Nizamnamənin 3.1.1-ci və 3.2.1-ci yarımbəndlərində nəzərdə tutulmuş məsələlərin həlli üçün tədbirlər görmək;

4.22.10. Şuranın və İdarə Heyəti sədrinin səlahiyyətlərinə aid edilməyən bütün digər məsələlər barədə qərar vermək.";

8.2.4.14. aşağıdakı məzmunda 4.22-1-ci və 4.22-2-ci bəndlər əlavə edilsin:

"4.22-1. İdarə Heyətinin sədri aşağıdakı vəzifələri yerinə yetirir:

4.22-1.1. Agentliyin cari fəaliyyətinə rəhbərlik edir və onu təmsil edir;

4.22-1.2. İdarə Heyətinin fəaliyyətini təşkil edir, iclaslarının gündəliyini müəyyənləşdirir və iclaslarına sədrlik edir;

4.22-1.3. öz təşəbbüsü ilə, İdarə Heyətinin digər üzvünün və ya Şuranın təşəbbüsü ilə İdarə Heyətinin iclaslarını çağırır;

4.22-1.4. öz təşəbbüsü ilə, habelə İdarə Heyətinin hər hansı bir üzvünün xahişi əsasında digər şəxsləri İdarə Heyətinin iclasında iştirak etməyə dəvət edir;

4.22-1.5. Agentliyin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan daxili sərəncam və əmrlər verir;

4.22-1.6. Agentliyin fəaliyyət istiqamətlərinə dair qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir;

4.22-1.7. özünün və Agentliyin struktur bölmələrinin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan qərarlarını ləğv edir;

4.22-1.8. müəyyən edilmiş struktur, əməyin ödənişi fondu və işçilərin say həddi daxilində Agentliyin Aparatının və digər struktur bölmələrinin strukturunu, ştat cədvəlini və xərclər smetasını təsdiq edir;

4.22-1.9. Agentlik işçilərinin vəzifə maaşlarının, vəzifə maaşlarına əlavələrin, mükafatların və digər ödənişlərin verilməsini əməyin ödənişi fondu çərçivəsində təşkil edir;

4.22-1.10. bu Nizamnamədə müəyyən edilmiş hallar istisna olmaqla, Agentliyin, o cümlədən onun idarə, filial və nümayəndəliklərinin, habelə tabeliyindəki digər qurumların işçilərinin (təsərrüfat cəmiyyətlərində isə yalnız rəhbərlərin) vəzifəyə təyin və vəzifədən azad edilməsi, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görülməsi barədə qərarlar qəbul edir;

4.22-1.11. Agentliyin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasına nəzarət edir;

4.22-1.12. bu Nizamnamə ilə müəyyən edilmiş səlahiyyətləri çərçivəsində Agentliyin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.22-1.13. Agentliyin fəaliyyət istiqamətləri ilə bağlı məşvərətçi komitələr və işçi qruplar yaradır;

4.22-1.14. Agentliyin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin və məxfilik rejiminin, habelə qanunla qorunan digər məlumatların mühafizəsi üçün zəruri tədbirlər görür;

4.22-1.15. Agentlikdə kargüzarlıq və arxiv işinin aparılmasını təmin edir;

4.22-1.16. Agentlikdə müraciətlərə baxılmanı və vətəndaşların qəbulunu təmin edir.

4.22-2. İdarə Heyətinin üzvləri:

4.22-2.1. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərin həllində iştirak edirlər;

4.22-2.2. İdarə Heyətinin iclasının gündəliyi ilə və baxılması nəzərdə tutulmuş materiallarla əvvəlcədən tanış olurlar;

4.22-2.3. İdarə Heyətinin qəbul ediləcək qərarlarına dair fikir bildirirlər;

4.22-2.4. İdarə Heyətinin səlahiyyətlərinə aid məsələlərə onun iclaslarında baxmaq barədə təkliflər verirlər;

4.22-2.5. İdarə Heyətinin qərarları ilə, iclas protokolları ilə və digər sənədlərlə tanış olurlar.";

8.2.4.15. 4.23-cü bənddə "İcraçı direktor və onun müavini" sözləri "İdarə Heyətinin üzvləri" sözləri ilə əvəz edilsin;

8.2.5. 5.1-ci bənddə "100000 (yüz min)" sözləri "134945 (yüz otuz dörd min doqquz yüz qırx beş)" sözləri ilə əvəz edilsin.

9. "Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 15 noyabr tarixli 519 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 11, maddə 942 (Cild I) birinci hissəsində ikinci halda "sədri" sözü "üzvü" sözü ilə əvəz edilsin.

10. "Azərbaycan Respublikasının Avropa İttifaqı ilə əməkdaşlığı üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 iyun tarixli 834 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 6, maddə 493 (Cild I); 2024, № 6 (I kitab), maddə 654) 1-ci hissəsinin "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri" abzası ləğv edilsin.

11. "Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 avqust tarixli 429 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 637 (Cild I) 1-ci hissəsində dördüncü halda "sədri" sözü "üzvü" sözü ilə əvəz edilsin.

12. "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvlərinin təyin edilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının üzvlərinin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 1983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 28 aprel tarixli 2609 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 4, maddə 378 (Cild I) 1-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2025-ci il*

# "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili Qaydaları"nın və "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsinə və dividend siyasətinin ümumi parametrlərinə dair Qaydalar"ın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Dövlət maliyyəsinin səmərəli idarə edilməsinin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 25 avqust tarixli 489 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin illik və ortamüddətli dövr üzrə büdcə layihələrinin və proqnozlarının, habelə gəlir və xərc smetalarının icra vəziyyətinin monitorinqi və icra göstəricilərinin təhlili Qaydaları" təsdiq edilsin (əlavə olunur).

2. "Dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və publik hüquqi şəxslərin xalis mənfəətinin bölüşdürülməsinə və dividend siyasətinin ümumi parametrlərinə dair Qaydalar" təsdiq edilsin *(əlavə olunur)*.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin və dövlət adından yaradılan publik hüquqi şəxslərin (bundan sonra - dövlət müəssisələri) müşahidə şuralarında (himayəçilik şuralarında və ya direktorlar şuralarında) Azərbaycan Respublikası Maliyyə Nazirliyinin nümayəndəsinin təmsil olunması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

4.1. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaların 4.1-ci bəndində, bu Fərmanın 2-ci hissəsi ilə təsdiq edilən Qaydaların 3.1-ci və 6.1-ci bəndlərində nəzərdə tutulan məlumat və hesabat formalarını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

4.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

5. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi yeni dövlət müəssisəsinin təsis edilməsi, habelə mövcud dövlət müəssisəsinin yenidən təşkili və ya ləğvi ilə bağlı məlumatları hüquqi şəxslərin dövlət reyestrində qeydiyyata alındığı tarixdən 5 (beş) iş günü müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

6. Dövlət müəssisələri:

6.1.bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaların 4.1-ci və 4.6-cı bəndlərində nəzərdə tutulmuş məlumatları (hesabatları) 2026-cı il aprelin1-dən başlayaraq, həmin Qaydalarda göstərilmiş müddətlərdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müəyyən etdiyi formadahəmin Nazirliyə təqdim etsinlər;

6.2. bu Fərmanın 1-ci hissəsi ilə təsdiq edilən Qaydalara uyğun olaraq, 2023-2025-ci illərin yekunu üzrə maliyyə hesabatlarını (maliyyə hesabatının tərtibi qanunla müəyyən edilmiş qaydada məcburi olduğu halda), habelə 2026-cı il üzrə təsdiq edilmiş büdcələrini 2026-cı il aprelin 30-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsinlər.

7. Bu Fərmanın 1-ci və 2-ci hissələri 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2025-ci il*

*Fərmanın n əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2026-cı il büdcəsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2026-cı il büdcəsini formalaşdırmaq və Fondun valyuta vəsaitinin səmərəli idarə olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2026-cı il büdcəsinin gəlirləri 13 032340,5 min manat, xərcləri isə 13016021,6 min manat məbləğində təsdiq edilsin.

2. Müəyyən edilsin ki:

2.1. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2026-cı il büdcəsinin gəlirləri aşağıdakı daxilolmalar hesabına formalaşır:

| **Sıra №-si** | **Gəlir mənbələri** | **Gəlirlərin məbləği (min manat)** |
|---|---|---|
| 2.1.1. | Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin satışından əldə edilən xalis gəlir (karbohidrogenlərin nəqli üzrə məsrəflər, bank, gömrük rəsmiləşdirilməsi, müstəqil nəzarət (sörveyer), marketinq və sığorta xərcləri çıxılmaq şərtilə, habelə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin sərmayəçisi, payçısı və ya tərəfdaşı olduğu layihələrdə onun sərmayəsinə və ya iştirak payına düşən gəlirlər istisna olmaqla) | 8 550 990,1 |
| 2.1.2. | Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsindən əldə edilən gəlir | 3,7 |
| 2.1.3. | Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən və idarə olunmasından əldə edilən gəlir | 4 075846,5 |
| 2.1.4. | Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar | 1 078,7 |
| 2.1.5. | Neft-qaz layihələrinin həyata keçirilməsi ilə bağlı dividend ödənişləri | 404 421,5 |
| **2.1.6.** | **Cəmi** | **13 032340,5** |

2.2. Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2026-cı il büdcəsinin xərcləri aşağıdakı məqsədlərə yönəldilir:

| **Sıra №-si** | **Xərc istiqamətləri** | **Xərclərin məbləği (min manat)** |
|---|---|---|
| 2.2.1. | Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsinə transfertin yuxarı həddi | 12 835 000,0 |
| 2.2.2. | Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 noyabr tarixli 711 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 7 095,0 |
| 2.2.3. | Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli 3163 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı"nın maliyyələşdirilməsi | 92729,0 |
| 2.2.4. | "Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 22 iyul tarixli 673 nömrəli Sərəncamına əsasən beynəlxalq ikili diplom proqramlarının həyata keçirilməsinin maliyyələşdirilməsi | 32 832,6 |
| 2.2.5. | "Peşə təhsili sisteminin potensialının gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 dekabr tarixli 836 nömrəli Sərəncamının 1-ci hissəsində nəzərdə tutulan tədbirlərin maliyyələşdirilməsi | 6440,0 |
| 2.2.6. | Azərbaycan Respublikası Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 41925,0 |
| **2.2.7.** | **Cəmi** | **13016021,6** |

3. "2026-cı ildə Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitindən istifadənin əsas istiqamətləri (proqramı) və investisiya siyasəti" təsdiq edilsin (əlavə olunur).

4. "Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2026-cı ildə idarə edilməsi ilə bağlı xərclər smetası" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2025-ci il*

*Fərmanın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# R.N.Musabəyovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Rasim Nəsrəddin oğlu Musabəyov "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# H.S.Zeynalovun 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Həsən Sultan oğlu Zeynalov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

Sizi doğum gününüz münasibətilə səmimi-qəlbdən təbrik edir, zati-alinizə xoşbəxtlik və möhkəm cansağlığı arzulayırıq.

Sizin uzaqgörən rəhbərliyiniz, Azərbaycan dövlətinin inkişafı uğrunda yorulmaz fəaliyyətiniz və milli dəyərlərimizin qorunmasına verdiyiniz misilsiz töhfələr hər zaman xalqımızın qürur mənbəyidir.

"Caucasus Arena" İdman Assosiasiyası və "Qabal" İnkişaf, Təhsil Mərkəzi olaraq biz gənclərin sağlam inkişafını, təhsilini və milli-mənəvi dəyərlərimizin qorunmasını əsas məqsədimiz hesab edirik. Gənclərin sağlam həyat tərzi, təhsil və idman sahələrində inkişafına kömək etməklə Sizin bu istiqamətdə siyasətinizi dəstəkləməyə çalışırıq.

Sizin rəhbərliyinizlə Azərbaycan bütün sahələrdə inkişaf edir, gənclər sağlam, vətənpərvər ruhda böyüyürlər, milli-mənəvi dəyərlərimiz qorunur və gələcək nəsillərə çatdırılır.

Sizə və ailənizə xoşbəxtlik, uzun ömür, rifah, fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik.

*Hörmətlə,*

***Yavər MƏMMƏDOV,***
***Gürcüstanda fəaliyyət göstərən "Caucasus Arena" İdman Assosiasiyasının və "Qabal" İnkişaf, Təhsil Mərkəzinin rəhbəri***

# Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə"Azərbaycan Respublikasının 2025-ci il 9 dekabr tarixli 304-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 17 iyul tarixli 2215 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 940 (Cild I) ilə təsdiq edilmiş "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlət nəzarətinin həyata keçirilməsi Qaydası"nın 2.1.6-cı yarımbəndinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 2.1.7-ci yarımbənd əlavə edilsin:

"2.1.7. Qanunun 17.3-cü maddəsinə uyğun olaraq, binaların enerji effektivliyi üzrə pasportlaşdırılması.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının yeni tərkibinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

"Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Notariat, qeydiyyat və reyestr baş idarəsinin rəisi

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Sosial sahələrin maliyyəsi şöbəsinin müdiri

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin direktoru

"Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin İdarə Heyətinin üzvü

Azərbaycan Milli QHT Forumunun İdarə Heyətinin üzvü

"Simurq" Azərbaycan Mədəniyyət Assosiasiyasının Rəyasət Heyətinin sədri

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin İdarə Heyətinin üzvü.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2025-ci il*

# "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasında gender (kişi və qadınların) bərabərliyi üzrə 2026-2028-ci illər üçün Milli Fəaliyyət Planı" (bundan sonra - Milli Fəaliyyət Planı) təsdiq edilsin *(əlavə olunur)*.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi:

2.1. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin;

2.2. Milli Fəaliyyət Planının icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

3. Milli Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2025-ci il*

*Sərəncamın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Baş nazir Əli Əsədov ilə Küveytin Baş naziri arasında telefon danışığı olub



**Dekabrın 30-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Küveyt Dövlətinin Baş naziri Əhməd Abdullah əl-Əhməd əl-Sabah arasında telefon danışığı olub.**

Nazirlər Kabinetindən AZƏRTAC-a bildiriblər ki, Küveytin Baş nazirinin təşəbbüsü ilə baş tutmuş telefon danışığı əsnasında Azərbaycan-Küveyt münasibətlərinin dostluq və qarşılıqlı hörmət prinsipləri əsasında bir çox sahədə inkişaf etdiyi vurğulanıb.

Hökumət başçıları iki ölkə arasında əlaqələrin inkişaf perspektivlərini müzakirə ediblər, qarşılıqlı faydalı əməkdaşlığın gündəliyində duran bir sıra aktual məsələləri nəzərdən keçiriblər.

# "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar Sığorta Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 oktyabr tarixli 370 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 414** **Bakı şəhəri, 30 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 11 dekabr tarixli 472 nömrəli Qərarı ilə təsdiq edilmiş "Aqrar Sığorta Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 oktyabr tarixli 370 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 10, maddə 1259 (Cild I) 2.3-cü bəndində "5" rəqəmi "10" rəqəmləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 416** **Bakı şəhəri, 30 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 7 oktyabr tarixli 293 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə "2710 19 210 1" və "2710 19 210 9" alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütunlarında "31.12.2025-ci" sözləri "31.12.2026-cı" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar 2026-cı il 1 yanvar tarixindən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə, 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"ndə və 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 413** **Bakı şəhəri, 26 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 22 aprel tarixli 183-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 5 may tarixli 385 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1003 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 oktyabr tarixli 290 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin 3.1.6-cı yarımbəndindən "sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə" sözləri çıxarılsın.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161; 2025, № 7, maddə 730; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 oktyabr tarixli 290 nömrəli və 13 oktyabr tarixli 298 nömrəli qərarları) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin 3.1.6-cı yarımbəndindən "sosial xidmətə olan tələbatın qiymətləndirilməsi və müəyyənləşdirilməsi üzrə" sözləri çıxarılsın.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 975 (Cild I); 2025, № 7, maddə 730, № 9, maddə 865; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 3 oktyabr tarixli 290 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1.2-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.2. çətin həyat şəraitində olan şəxslərə, o cümlədən özünün əsas həyati tələbatını müstəqil təmin edə bilən və aktiv hərəkət qabiliyyəti olan ahıllara və 18 yaşdan yuxarı əlilliyi olan şəxslərə gündüz və ya gecə vaxtlarında sosial-məişət, tibbi-sosial, sosial-mədəni və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər xidmətləri göstərmək və onların münasib əmək fəaliyyətinə cəlb olunması üçün tədbirlər görmək;";

3.2. 2.1.3-cü yarımbənddə "tibbi, mədəni və başqa xidmətlər, sosial-məsləhət yardımı göstərmək, sosial reabilitasiya tədbirlərini həyata keçirmək və onları" sözləri "tibbi-sosial, sosial-mədəni və "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş digər xidmətləri, sosial-məsləhət yardımı göstərmək və onları münasib" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 415** **Bakı şəhəri, 30 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 19 yanvar tarixli 20 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 1, maddə 69 (Cild I); 2024, № 1, maddə 126, № 2, maddə 245, № 7, maddə 914; 2025, № 3, maddə 265, № 5, maddə 512) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə gətirilən aksizli malların aksiz dərəcələri"ndə "2710 19 210 1" və "2710 19 210 9" alt yarımmövqelərinə aid sətirlərin "Aksiz dərəcələri (ölçü vahidinə görə, manatla)" sütunlarında "31.12.2025-ci" sözləri "31.12.2026-cı" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar 2026-cı il 1 yanvar tarixindən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

## "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 179-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 2 iyun tarixli 402 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 417** **Bakı şəhəri, 30 dekabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 24 oktyabr tarixli 1007-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 11 aprel tarixli 179-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 2 iyun tarixli 402 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1165 (Cild I); 2025, № 9, maddə 856; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 4 dekabr tarixli 373 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları"nın 3.4-cü bəndində, 5-ci hissəsinin səkkizinci abzasında, 8-ci hissəsində və 14-cü hissəsinin üçüncü və dördüncü cümlələrində ismin müvafiq hallarında "fitosanitar sertifikat" sözləri ismin müvafiq hallarında "fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı" sözləri ilə əvəz edilsin.

2. "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 22 yanvar tarixli 10 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 54 (Cild I); 2024, № 1, maddə 82, № 5 (II kitab), maddə 612) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissədə "qeydiyyata" sözü "dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının aparılması, qeydiyyata alınması və istifadəsinə icazə verilmiş preparatların siyahısına daxil edilməsi Qaydaları"nın adında, 1-3-cü, 9-cu, 15-ci, 21-ci, 22-ci, 24-cü, 25-ci (hər iki halda) və 27-ci hissələrində ismin müvafiq hallarında "qeydiyyat" sözü ismin müvafiq hallarında "dövlət qeydiyyatı" sözləri ilə əvəz edilsin.

3. "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 1, maddə 58 (Cild I); 2024, № 5 (II kitab), maddə 612; 2025, № 2, maddə 187) aşağıdakı dəyişikliklər edilsin:

3.1. həmin Qərarla təsdiq edilmiş "Fitosanitar nəzarəti məntəqələrinin yerləşdirilməsi və fəaliyyəti Qaydası"nın 5.7-ci bəndində "qeydiyyata" sözü "dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin;

3.2. həmin Qərarla təsdiq edilmiş "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin uçot və hesabatının aparılması Qaydası"nın 6-cı hissəsində "qeydiyyata" sözü "dövlət qeydiyyatına" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 11, maddə 1198 (Cild I); 2024, № 4, maddə 437, № 6 (II kitab), maddə 736, № 9, maddə 1106; 2025, № 9, maddələr 868, 879) ilə təsdiq edilmiş 6 nömrəli əlavə - "Mədəni bitkilərin milli genefonduna aid edilən bitkilərin və onların genetik ehtiyat nümunələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən çıxarılması Qaydası və Şərtləri"nin 12-ci hissəsində "fitosanitar sertifikatı" sözləri "fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 3 aprel tarixli 94 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 4, maddə 440 (Cild I); 2024, № 1, maddə 85, № 4, maddə 444, № 9, maddə 1106) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2.1.28-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"2.1.28. daxili karantin sertifikatı - ölkə daxilində daşımalar zamanı bitki və bitkiçilik məhsullarının fitosanitar vəziyyəti barədə fiziki və hüquqi şəxslərə Agentlik tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin müəyyən etdiyi qaydada verilən rəsmi sənəd;";

5.2. 11.2.1-ci yarımbənddə "qeydiyyat şəhadətnaməsinin" sözləri və 11.7-ci bənddə "dövlət qeydiyyatından keçməsi haqqında şəhadətnamənin" sözləri "dövlət qeydiyyatı haqqında şəhadətnamənin" sözləri ilə əvəz edilsin.

6. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 22 iyul tarixli 263 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 7, maddə 951 (Cild I); 2024, № 3, maddə 314, № 5 (II kitab), maddə 612, № 7, maddə 911, № 9, maddə 1106, № 12 (II kitab), maddə 1460) ilə təsdiq edilmiş "Gömrük sərhədindən keçirilən malların və nəqliyyat vasitələrinin bəyan edilməsi Qaydaları"nın 2.6.8-ci yarımbəndində "fitosanitar sertifikat" sözləri "idxal olunan ölkələr tərəfindən tələb edildiyi halda, fitosanitar (təkrar ixrac fitosanitar) sertifikatı" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 8 dekabr tarixli 377 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1575 (Cild I); 2024, № 2, maddə 209) ilə təsdiq edilmiş "Dövlət Toxum Fonduna toxumun tədarükü, saxlanılması və istifadəsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

7.1. 2.9-cu bənddə "və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi tərəfindən verilmiş fitosanitar sertifikatının surətlərini" sözləri "surətini" sözü ilə əvəz edilsin;

7.2. 2.11.2-ci yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 2.11.3-cü yarımbənd ləğv edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 20 oktyabr tarixli 467 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 10, maddə 1929 (Cild I); 2025, № 7, maddə 701) ilə təsdiq edilmiş "Yaşıllıqların mühafizəsi məqsədi ilə ağac, kol, gül-çiçək və ot bitkilərinin və onların genetik materiallarının Azərbaycan Respublikasına gətirilməsi və onun hüdudlarından kənara aparılması Qaydası"nın 2.1-ci bəndinə "gətirilməsi" sözündən sonra "fitosanitar sertifikatları" sözləri, "fitosanitar" sözündən sonra "(təkrar ixrac fitosanitar)" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

---

### Milli Məclisin iclasında

# Parlamentin payız sessiyası başa çatdı



**Dekabrın 30-da parlamentin spikeri Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında son iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda əvvəlcə cari məsələlər ətrafında müzakirələr aparılıb.**

Müzakirələrdə parlamentin komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, Tahir Rzayev, deputatlar Bəhruz Məhərrəmov, Günay Əfəndiyeva, Ceyhun Məmmədov, Vüqar Bayramov, Göydəniz Qəhrəmanov, Vüqar İskəndərov, Vasif Qafarov çıxış edərək fikirlərini bölüşüblər.

Deputatlar 2025-ci ilin Azərbaycan xalqı üçün siyasi, iqtisadi və sosial sahələrdə bir çox mühüm əhəmiyyətli nailiyyətlərlə yadda qaldığını söyləyiblər. Dövlətin ali məqsədlərinin, milli prioritetlərinin həyata keçirilməsi baxımından vacibliyindən bəhs edibblər. Bildirilib ki, ölkə Prezidentinin uğurlu siyasəti nəticəsində əldə etdiyimiz qələbə daha da möhkəmlənib, Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işləri daha da sürətlənib.

Vurğulanıb ki, 2025-ci il avqustun 8-də Vaşinqtonda üçtərəfli görüşün keçirilməsi və Sülh müqaviləsinin paraflanması cari ilin önəmli hadisələrindən hesab olunur. Bu gün Azərbaycan-Ermənistan münasibətləri yeni mərhələyə qədəm qoyur, münasibətlərin normallaşması üçün əməli addımlar atılır.

Çıxışlarda cari ildə ölkəmizdə iqtisadi artım tempinin qorunub saxlanması, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, rifah halının yaxşılaşdırılması sahəsində islahatların davam etdirilməsi təqdirəlayiq hesab olunub.

Dövlətimizin hərtərəfli inkişafı naminə ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin yerinə yetirilməsi, həyatın bütün sahələrində aparılan islahatların qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində Milli Məclisin rolu vurğulanıb, parlament diplomatiyası çərçivəsində səmərəli fəaliyyətin davam etdirildiyi bildirilib.

Eyni zamanda vurğulanıb ki, cari ildə Prezidentin təşəbbüsü ilə 20 min vətəndaşı əhatə edən Amnistiya aktının tətbiq edilməsi dövlətimizin humanist siyasətinin və hüquqi dövlət prinsiplərinə sadiqliyinin növbəti göstəricisidir.

Müzakirələr zamanı Prezidentin müvafiq sərəncamı ilə 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edildiyi və bunun ölkəmizin davamlı inkişaf və müasirlik strategiyasının mühüm tərkib hissəsi olduğu bildirilib.

Millət vəkilləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni ilin gəlişi münasibətilə təbriklərini çatdırıblar, növbəti ildə dövlətimizə və xalqımıza yeni-yeni müvəffəqiyyətlər arzulayıblar.

Sonra parlamentin Sədri Sahibə Qafarova iclasın gündəliyinə 15 məsələnin daxil edildiyini söyləyib. O, ilk 2 məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və beynəlxalq sənədlərin təsdiq edilməsi barədə qanun layihələri olduğunu deyib. Spiker bu sənədlərin "Normativ hüquqi aktlar haqqında" konstitusiya qanununun tələbinə uyğun olaraq bir oxunuşda baxılıb, qəbul ediləcəyini bildirib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Rizvan Nəbiyev "Azərbaycan Respublikası Hökuməti ilə Somali Federativ Respublikası Hökuməti arasında diplomatik pasport sahiblərinin vizadan qarşılıqlı azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. O bildirib ki, Sazişin əsas məqsədi iki dövlət arasında diplomatik münasibətlərin inkişaf etdirilməsi və rəsmi səfərlərin sadələşdirilməsidir.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Zaur Şükürov "Azərbaycan Respublikası Hökuməti ilə Uqanda Respublikası Hökuməti arasında diplomatik və xidməti pasport sahiblərinin viza tələblərindən azad edilməsi haqqında Saziş"in təsdiq edilməsi barədə qanun layihəsini təqdim edib.

O diqqətə çatdırıb ki, Sazişin müvafiq maddələrində hər iki tərəfin etibarlı diplomatik və xidməti pasportlara malik vətəndaşlarının vizadan azad olunması, tərəflərin ərazisində vizasız qalma müddətləri, əmək fəaliyyəti ilə məşğul olmaq qaydaları müəyyən edilir. Sazişə əsasən, etibarlı diplomatik və xidməti pasportlara malik bir tərəfin vətəndaşları digər tərəfin ərazisinə vizasız daxil ola, oradan tranzit keçə, oranı tərk edə və hər 180 gün ərzində 90 gündən artıq olmayan müddətdə orada qala bilərlər.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2024-cü il 13 dekabr tarixli 90-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. O, nəzərə çatdırıb ki, layihədə respublikamızda minatəmizləmə fəaliyyətinin istiqamətləri, hüquqi və təşkilati əsasları, minatəmizləmə işlərini həyata keçirən şəxslərin hüquqi və sosial müdafiəsi, minalardan zərərçəkmiş şəxslərə yardımın göstərilməsi üzrə münasibətləri tənzimləmək üçün bəzi qanunlarda uyğunlaşdırma məqsədilə bir sıra dəyişikliklərin edilməsi təklif olunur.

Sənədə əsasən, Vergi Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında", "Heyvanlar aləmi haqqında", "Gömrük tarifi haqqında", "Psixoloji yardım haqqında", "Standartlaşdırma haqqında", "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanunlarda müvafiq dəyişikliklər nəzərdə tutulub.

Dəyişikliklər barədə Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov, Mədəniyyət komitəsinin sədr müavini Günay Əfəndiyeva, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu komitələrin rəylərini açıqlayıblar.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Azərbaycan Respublikasının bir sıra digər qanunlarında və məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri də üçüncü oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Milli Məclis soydaşlarımıza və həmvətənlərimizə müraciət edir və gündəliyin sonuncu məsələsi məhz Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətinin təsdiq edilməsi haqqındadır. Spiker müraciətin mətninin hazır olduğunu bildirib və onu səsləndirmək üçün deputat Zaur Şükürova söz verib.

Deputat Zaur Şükürov Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciətini oxuyub.

Sonra müraciət səsə qoyularaq qəbul edilib.

(Müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunub.)

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, payız sessiyasının son iclasıdır və biz həm sessiyaya, həm də ilə yekun vururuq.

Spiker qeyd edib ki, ənənəvi olaraq sessiya və il ərzində görülmüş işlər haqqında məlumat verilir. O, Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci ildə fəaliyyətinə dair məlumatı slaydlar vasitəsilə təqdim edib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, yola saldığımız il ölkəmizin həyatı üçün xüsusi əhəmiyyət daşıyan bir dövrə təsadüf etdi. Prezident İlham Əliyevin 2025-ci ili "Konstitusiya və Suverenlik İli" elan etmək barədə qərarı dövlət hakimiyyəti sisteminin, o cümlədən qanunvericilik orqanının işinə əlavə məna və dəyər ölçüsü gətirdi.

Spiker qeyd edib ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Məclisin təşkilatçılığı ilə 18 tədbir keçirilib. Milli Məclisin Sədri onlardan bəzilərini vurğulayaraq bildirib ki, mayın 8-də parlamentin xüsusi iclası "Ümummilli Lider Heydər Əliyev müstəqil Azərbaycan Konstitusiyasının müəllifidir" mövzusuna həsr olunmuşdu. İclasda ilk Konstitusiyamızın qəbul edilməsi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının qələbələrlə başa çatdırılması, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa olunması kimi tarixi hadisələrin əhəmiyyətindən danışılıb.

*Ardı 9-cu səh.*

## Milli Məclisin iclasında

# Parlamentin payız sessiyası başa çatdı

*Əvvəli 8-ci səh.*




Bu mövzuda keçirilən digər bir tədbir Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin təşkil etdiyi elmi-praktik konfrans olub. Konfransda Konstitusiyamızın hazırlanması, qəbulu və keçdiyi inkişaf yolu ilə bağlı məruzələr dinlənilib və müzakirələr aparılıb.

Bildirilib ki, sentyabrın 19-da Milli Məclisdə Dövlət Suverenliyi Gününə həsr olunan konfrans keçirilib. Konfransda vurğulanıb ki, Prezident İlham Əliyev Ulu Öndərin siyasi xəttini uğurla davam etdirərək Azərbaycanı beynəlxalq münasibətlər sistemində söz sahibi olan, regional və qlobal miqyasda nüfuzlu bir dövlətə çevirib.

Sentyabrın 25-də isə Milli Məclisin bir qrup deputatının və parlament aparatı əməkdaşlarının Azərbaycanın işğaldan azad edilmiş ərazilərinə yürüşü təşkil edilib.

Oktyabrın 22-də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin təşkilatçılığı ilə "Dövlət suverenliyinin iqtisadi əsasları və iqtisadi müstəqillik" mövzusunda konfrans keçirilib. Konfransda müstəqil dövlət siyasətinin həyata keçirilməsi üçün iqtisadi əsasların gücləndirilməsinin vacibliyi, bu istiqamətdə görülən işlər və qarşıda dayanan vəzifələr haqqında çıxışlar edilib.

Oktyabrın 29-da isə Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyinə həsr edilən beynəlxalq parlament konfransı keçirilib. Tədbirdə 20 ölkənin parlament nümayəndə heyətləri, o cümlədən 8 ölkənin parlament sədrləri və sədr müavinləri, eləcə də 7 beynəlxalq təşkilatın təmsilçiləri, ümumən isə 100-dən çox adam iştirak edib.

Konfransda "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusunda çıxışlar edilib.

Spiker diqqətə çatdırıb ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində keçirilən ən mühüm tədbirlərdən biri də oktyabr ayında Milli Məclisin iclasında "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi" yubiley medalının təsis edilməsi olub. Qeyd edilib ki, bu barədə qanun möhtərəm Prezidentin müvafiq sərəncamı ilə təsdiq olunmuş Tədbirlər planına uyğun olaraq qəbul edilib.

Milli Məclisin Sədri deyib ki, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Məclisdə Qarabağ Universitetinin, Bakı Dövlət Universiteti Hüquq fakültəsinin tələbələri, habelə "Yüksəliş" müsabiqəsinin qalibləri ilə müxtəlif aylarda görüşlər keçirilib.

Görüşlərdə ölkəmizdə konstitusiya quruculuğu məsələlərindən danışılıb, Azərbaycan dövlətçiliyinin qorunub saxlanmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin xidmətləri minnətdarlıq duyğuları ilə xatırlanıb.

Spiker diqqətə çatdırıb ki, 2025-ci il əlamətdar tarixi hadisələrlə zəngin olan bir dövrdür. Xalqımız 44 günlük Vətən müharibəsində böyük Zəfərin 5-ci ildönümünü qürurla qeyd edib. Bu məsələyə Milli Məclis də xüsusi diqqət yetirib. Belə ki, oktyabrın 31-də keçirilən plenar iclasda deputatlar Azərbaycanın həyatının taleyüklü hadisəsi barədə fikirlərini bölüşüblər. İclasda qeyd edilib ki, 8 noyabr Azərbaycanın tarixinə müdrik siyasi rəhbərliyin və uzaqgörən hərbi strategiyanın təntənəsi, xalqımızın yenilməz gücünün və qəhrəmanlığının rəmzi kimi daxil olub. Zəfər Gününün 5-ci ildönümü ilə əlaqədar Milli Məclisin Bəyanatı qəbul edilib.

Azərbaycan Prezidenti İlham Əliyevin avqustun 7-də və 8-də Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvətilə bu ölkəyə tarixi səfərindən danışan spiker bildirib ki, səfər çərçivəsində əldə edilmiş Vaşinqton razılaşmaları Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəliyə aparılması və regional sabitliyin möhkəmləndirilməsi üçün həlledici əhəmiyyət daşıyır.

Bu hadisə ilə əlaqədar sentyabrın 9-da Milli Məclisin növbədənkənar sessiyası keçirilib. Sessiyada aparılan müzakirələrdə Vaşinqton razılaşmaları dövlət başçısı cənab İlham Əliyevin sülh diplomatiyasının və müdrik liderliyinin təntənəsi, uzaqgörən, ardıcıl və praqmatik siyasətinin nəticəsi kimi qiymətləndirilib. Qeyd edilib ki, bu razılaşmalar Ulu Öndər Heydər Əliyevin milli maraqlara əsaslanan siyasi kursunun davam etdirilməsi yolunda qazanılmış ən böyük uğurlardan biridir.

İclasın yekununda Milli Məclisin xüsusi bəyanatı qəbul edilib.

Spiker deyib ki, ötən il ərzində Milli Məclis Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətlərinə əsaslanaraq dövlət siyasətinin qanunvericilik ölçüsünü layiqincə təmin etməyə çalışıb.

Möhtərəm Prezidentin müəyyən etdiyi strateji xəttə uyğun olaraq, il ərzində parlamentin fəaliyyəti milli dövlətçiliyimizin Konstitusiya əsaslarının daha da möhkəmləndirilməsinə, müasir və dayanıqlı qanunvericilik bazasının formalaşdırılmasına, hüquq sisteminin təkmilləşdirilməsinə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının etibarlı surətdə qorunmasına yönəlib.

Milli Məclisin Sədri qeyd edib ki, payız sessiyasında parlamentin 16 iclası olub, 86 qanun və qərar layihəsinə baxılıb. Ümumiyyətlə, 2025-ci ildə Milli Məclisin 38 plenar iclası keçirilib, 181 qanun və 33 qərar qəbul edilib.

Spiker qəbul olunmuş qanunlar arasında 2026-cı ilin dövlət büdcəsini və büdcə zərfinə daxil olan digər qanunları qeyd edib. O, bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən inkişaf strategiyası ötən dövrdə ölkəmizdə makroiqtisadi sabitliyi qorumağa imkan verib.

Mürəkkəb beynəlxalq konyunkturaya baxmayaraq, iqtisadiyyatımızın dayanıqlılığı və ardıcıl inkişafı təmin edilib. Cənubi Qafqaz bölgəsinin lider dövləti kimi Azərbaycanın iqtisadi müstəqilliyi daha da möhkəmlənib.

Bildirilib ki, gələn ilin dövlət büdcəsi iqtisadi sabitliyin və insanların sosial müdafiəsinin daha da gücləndirilməsinə yönəlib. Əminliklə söyləmək olar ki, dövlətimizin əsas maliyyə sənədi sosial-iqtisadi inkişaf sahəsində əldə edilmiş dinamikanı gələn il də qoruyub saxlamağa və artırmağa imkan verəcək.

"Qaz təchizatı haqqında", "İstilik təchizatı haqqında", "Dövlət xidmətləri haqqında", "Azərbaycan Respublikasının daxili qoşunları haqqında", "Xüsusi icra məmurları haqqında" qanunlar və digər qanunvericilik aktları dövlət həyatının müxtəlif sahələrində fəaliyyəti tənzimləməyə yönəlib.

Milli Məclisin fəaliyyətinə yekun vurarkən bu fəaliyyətin uğurlarına şərait yaradan amillər sırasında hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq əlaqələrini də qeyd edən spiker Sahibə Qafarova, Milli Məclis ilə Prezident Administrasiyasının müvafiq şöbələri arasında mütəmadi xarakter daşıyan iş birliyinin əhəmiyyətini xüsusi vurğulayıb. O qeyd edib ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsi və Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsi arasında müntəzəm təmaslar icra və qanunvericilik hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinə sistemli xarakter verməyə kömək göstərir.

Spiker parlamentlə hökumət arasında konstruktiv əməkdaşlığa diqqəti daha da cəlb edərək, qeyd edib ki, yola saldığımız il ərzində hökumətin müxtəlif strukturlarının, o cümlədən nazirliklərin və dövlət komitələrinin nümayəndələri Milli Məclisin və komitələrin iclaslarına dəvət olunub, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilib, eyni zamanda deputatların bir sıra mülahizə və təklifləri də icra orqanları tərəfindən nəzərə alınıb.

Bildirilib ki, qanunvericilik fəaliyyətinin səmərəsini artırmaq, ictimai fikir üçün aktual olan məsələləri müzakirə etmək məqsədilə lazım gəldikdə dinləmələr və ictimai müzakirələr keçirilməsi praktikası davam etdirilib. İl ərzində Milli Məclisdə 8 dinləmə, 3 ictimai müzakirə, 1 genişləndirilmiş iclas və 5 konfrans keçirilib.

Səhiyyə komitəsi "İlkin səhiyyə xidməti: mövcud vəziyyət, görülən işlər, problemlər və onların həlli yolları" mövzusunda, İctimai birliklər və dini qurumlar komitəsi "Qərbi Azərbaycana qayıdış prosesində QHT-lərin rolu" mövzusunda, Ailə, qadın və uşaq məsələləri komitəsi "Ailə, qadın və uşaq hüquqları konstitusion hüquqların əsas prioriteti kimi" mövzusunda, Mədəniyyət komitəsi "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və təbliğinə müasir yanaşma" mövzusunda, Aqrar siyasət komitəsi isə "Aqrar sektorda sahibkarlığa dəstək: nəticələr və perspektivlər" və "İxtisaslı kadr hazırlığı aqrar sektorun inkişafının əsasıdır" mövzusunda ictimai dinləmələr keçiriblər.

Gənclər və idman komitəsinin təşkil etdiyi ictimai dinləmə Gənclər Gününə həsr edilib.

Bundan başqa, Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi "İstilik təchizatı haqqında" qanun layihəsi ilə əlaqədar ictimai dinləmə keçirib, "Enerji səmərəliliyi: nəticələr və gözləntilər" mövzusunda ictimai müzakirə təşkil edib. Həmin komitənin təşkilatçılığı ilə keçirilən elmi-praktik konfransda isə "İqlim dəyişikliyi ilə mübarizədə süni intellektin rolu" mövzusunda fikir mübadiləsi və müzakirə aparılıb.

Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiya isə iki ictimai müzakirə təşkil edib. Bu müzakirələrdən biri "Cənubi Qafqazda sabitliyə "sülh missiyası" adlı hibrid hücum" mövzusuna, digəri isə "Azərbaycanın media resurslarına kiberhücumlar" mövzusuna həsr edilib.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin genişləndirilmiş iclasında "Qlobal Cənubun yüksəlişi və Qərb: Azərbaycanın rolu, əməkdaşlıq və inkişaf üçün yeni imkanlar" mövzusunda müzakirələr aparılıb. İclasda komitənin üzvləri ilə yanaşı, icra orqanlarının, beynəlxalq təşkilatların və digər qurumların nümayəndələri də iştirak ediblər.

Spiker diqqətə çatdırıb ki, Prezident İlham Əliyev noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr edilən tədbirdə çıxış edərək milli inkişafın mühüm istiqamətləri ilə yanaşı, Azərbaycan dilinin qorunması məsələlərinə xüsusi diqqət yetirib.

Dekabrın 8-də Milli Məclisdə "Azərbaycan dilinin dövlət dili kimi inkişaf strategiyası: mövcud vəziyyət və perspektivlər" mövzusunda konfrans keçirilib. Qeyd edilib ki, bu, cənab Prezidentin çıxışından sonra birinci konfrans idi.

Konfransın məqsədi möhtərəm Prezidentin qaldırdığı problemlərlə əlaqədar Azərbaycan dilinin qorunması və inkişafı strategiyalarını müzakirə etmək, bu istiqamətdə parlamentin, elmi ictimaiyyətin və ziyalıların vəzifələrini müəyyən etmək idi.

Milli Məclisin Sədri bildirib ki, Qərbi azərbaycanlıların tarixi torpaqlarına qaytarılması məsələsi milli gündəliyimizin aktual humanitar və hüquqi mövzularından biridir. Dövlət başçısı cənab İlham Əliyev dəfələrlə qeyd edib ki, qərbi azərbaycanlıların ata-baba yurdlarına qayıdışı dinc yolla, beynəlxalq hüquq mexanizmlərinə müvafiq surətdə dialoq əsasında həyata keçirilməlidir.

Bu istiqamətdə görülən işlərə Milli Məclis də lazımi qanunvericilik dəstəyi göstərir. Bu məqsədlə parlamentdə Qərbi Azərbaycana qayıdış üzrə təşəbbüs qrupu yaradılıb. Ötən il qrupun üzvləri Qərbi Azərbaycan İcmasının keçirdiyi beynəlxalq tədbirlərdə fəal iştirak ediblər.

Bundan başqa, Qərbi Azərbaycan İcmasının üzvləri və rəhbər şəxsləri arasında Milli Məclisin deputatları və komitə sədrləri də var. Bu cür qarşılıqlı fəaliyyət Qərbi Azərbaycana qayıdış mövzusu ətrafında ictimai-siyasi dialoqa əlavə dinamika verir, dövlətin və vətəndaş cəmiyyətinin səylərini birləşdirməyə kömək göstərir.

Spiker çıxışında qeyd edib ki, qanunvericilik və qanunyaratma sahəsində görülən işlərlə yanaşı, Milli Məclis bəzi beynəlxalq qurumların və xarici dövlətlərin Azərbaycanı gözdən salmağa, onun suverenliyinə qəsd etməyə yönələn hərəkətlərinə etiraz əlaməti olaraq bəyanatlar da qəbul edib.

Bildirilib ki, Milli Məclis nəzarət funksiyasını bu il də səmərəli surətdə həyata keçirib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilib.

Ötən dövrdə Milli Məclis deputatlarının seçki dairələrində işinə yenə də xüsusi diqqət yetirilib. Millət vəkilləri öz seçiciləri ilə müntəzəm görüşlər keçirib, onları düşündürən məsələləri Milli Məclisin iclaslarında, eləcə də digər hakimiyyət orqanları qarşısında qaldırıblar.

Spiker diqqətə çatdırıb ki, Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində də lazımi tədbirlər həyata keçirilib.

Bildirilib ki, ötən dövrdə Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də zəruri tədbirlər görülüb. Nümayəndə heyətlərimiz 15 beynəlxalq təşkilatın tədbirlərində iştirak ediblər. İl ərzində 94 deputatı 49 ölkəyə 201 səfər həyata keçirib. Milli Məclis Sədrinin 17 ölkəyə 4 rəsmi və 15 işgüzar səfəri olub.

Spiker qeyd edib ki, ötən dövrdə 61 ölkənin və 20 beynəlxalq təşkilatın 165 nümayəndə heyəti, ümumən isə 1283 nəfər xarici qonaq Milli Məclisdə olub.

Milli Məclisin Sədri 4 ölkənin dövlət başçıları, 27 ölkənin parlament sədrləri və sədr müavinləri, 5 beynəlxalq parlament təşkilatının rəhbərləri, 6 ölkənin icra hakimiyyəti orqanlarının nümayəndələri, 9 ölkənin ombudsmanları, 16 dövlətin Azərbaycandakı səfirləri ilə görüşlər keçirib.

Parlamentin beynəlxalq əlaqələrinin inkişafına yönələn tədbirlərdən biri də 3 ölkənin parlamentləri ilə əməkdaşlıq haqqında sənədlərin imzalanması olub.

Belə ki, Gürcüstan parlamenti ilə Əməkdaşlıq haqqında memorandum, Birləşmiş Ərəb Əmirlikləri parlamenti ilə Anlaşma memorandumu, Özbəkistan parlamenti ilə əməkdaşlığın inkişafına dair praktik tədbirlər planı ("Yol xəritəsi") və Azərbaycan Respublikası Milli Məclisinin və Özbəkistan Respublikası Ali Məclisinin parlamentlərarası əməkdaşlıq komissiyasının Reqlamenti imzalanıb.

Spiker qeyd edib ki, onun sədri olduğu Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə Türk Mədəniyyəti və İrsi Fondu, Tolerantlıq və Sülh Təşkilatı arasında memorandumlar da imzalanıb.

Milli Məclis beynəlxalq təşkilatların xətti ilə 10 tədbirə evsahibliyi edib. Bu tədbirlər TÜRKPA üzvü olan parlamentlərin iki komitəsinin iclasları, Asiya Parlament Assambleyasının 15-ci plenar sessiyası və iki koordinasiya görüşü, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 4-cü konfransı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının 70-ci Büro və 65-ci Daimi Komitəsinin iclasları, Sosial və humanitar siyasət komitəsinin 65-ci iclası, Azərbaycan Milli Məclisi və Rusiya Federal Məclisinin ikitərəfli parlamentlərarası komissiyasının iclası olub.

Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 4-cü konfransında Hərəkatın üzvü olan dövlətlərin parlamentlərindən və beynəlxalq təşkilatlardan 48 nümayəndə heyəti, başqa sözlə, 280-dən artıq nümayəndə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının toplantısında isə təşkilatın üzvü olan 10 ölkə parlamentinin və 8 beynəlxalq təşkilatın 115 nəfərə qədər təmsilçisi iştirak edib.

Spiker çıxışına yekun vuraraq bildirib ki, Milli Məclis payız sessiyasını və 2025-ci ili uğurla başa çatdırır. Bununla əlaqədar o, deputatlara səmərəli iş üçün təşəkkür edib. O diqqətə çatdırıb ki, qarşıdan bizim gözəl bayramlarımız gəlir. Dekabrın 31-də xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, daha sonra isə Yeni ili qeyd edəcəkdir. Spiker təklif edib ki, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq, Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq.

Spikerin təklifi alqışlarla qarşılanıb.

Parlamentin Sədri qarşıdan gələn bayramlar münasibətilə hər kəsi, eyni zamanda deputatlarla bərabər işləyən, parlamentin fəaliyyətini işıqlandıran media nümayəndələrini təbrik edib, hamıya firavanlıq və cansağlığı arzulayıb.

Sonra spiker Sahibə Qafarova Milli Məclisin 2025-ci il payız sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

***"Azərbaycan"***

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti

**Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!**

Azərbaycan xalqının övladlarını vahid amallar naminə birləşməyə səsləyən həmrəylik günü ərəfəsində hər birinizi hörmətlə salamlayırıq.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 34 il öncə başlanmış mənəvi bütövləşmə prosesi xalqımızın milli mənlik şüuruna və tarixi köklərə bağlılığından güc almışdır. Ulu Öndər milli birlik ideologiyasının möhkəm əsaslarını yaratmış, azərbaycanlıların həmrəyliyinə strateji əhəmiyyət vermiş və azərbaycançılıq məfkurəsini dövlət siyasətinin önəmli bir amilinə çevirmişdir.

Ötən 22 ildə həmin kurs Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ardıcıl davam etdirilmişdir. Dünya azərbaycanlıları ilə əlaqələrin möhkəmləndirilməsinə, diaspor təşkilatlarının imkanlarının genişləndirilməsinə və beynəlxalq aləmdə rolunun artırılmasına, harada yaşamasından asılı olmayaraq, soydaşlarımızın hüquq və mənafelərinin, təhlükəsizliyinin, milli kimliyinin qorunmasına, onların inkişafına, Azərbaycan dilini, ənənələrini və mədəniyyətini qoruyub saxlamasına, dəfələrlə soyqırımına və deportasiyaya məruz qalmış qərbi azərbaycanlıların hüquqlarının bərpasına və zorla tərk etməyə məcbur olduqları ata-baba torpaqlarına dinc qayıdışına dəstək verilməsi xalqımızın birlik və həmrəyliyinin güclənməsinə xidmət edir.

Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulmasını, dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasını təmin etmiş İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı Azərbaycan Respublikasının güclü bir dövlət olduğunu, Azərbaycan xalqının öz sözünü qəbul etdirə bilən mütəşəkkil bir qüvvə kimi formalaşdığını və daim öz dövlətini dəstəklədiyini nümayiş etdirmişdir.

Zəngin mədəniyyətin və tükənməz yaradıcılıq enerjisinin daşıyıcısı olan Azərbaycan xalqı bəşər sivilizasiyasının inkişafına dəyərli töhfələr vermişdir. Şərqin bir sıra qüdrətli dövlətləri xalqımızın istedad və zəkasının gücü ilə qurulmuşdur.

Bugünkü müstəqil Azərbaycan dövləti xalqımızın ən böyük tarixi nailiyyətlərindən biridir. Hər bir soydaşımız və həmvətənimiz bilir ki, ona arxa duran, şərəf və ləyaqətini qorumağa hazır olan milli dövləti vardır. Odur ki, dünyanın müxtəlif qitələrində məskən salmış soydaşlarımız tarixi Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Azərbaycanın Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevrilməsi, geniş bir bölgədə söz sahibi olması ilə fəxr edirlər.

Onlar yaşadıqları ölkələrdə fəal vətəndaş mövqeyi tutaraq Azərbaycanın milli maraqlarını dəstəkləyirlər. Soydaşlarımızın və həmvətənlərimizin fəaliyyəti Azərbaycan haqqında obyektiv təsəvvürün formalaşmasına, onun nüfuzunun yüksəlməsinə və xarici dövlətlər ilə humanitar, mədəni və ictimai əlaqələrinin genişlənməsinə kömək göstərir.

**Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!**

Ötən dövrdə əldə edilmiş uğurlar Azərbaycan dövlətinin və cəmiyyətinin müasir çağırışlara lazımınca cavab verməyə və davamlı olaraq irəliyə getməyə qadir olduğunu göstərir. Eyni zamanda müasir inkişaf mərhələsi daha genişmiqyaslı vəzifələrin yerinə yetirilməsi üçün möhkəm zəmin yaratmışdır. Azərbaycanın bütün potensialının üzə çıxarılaraq dünyaya daha yaxından tanıdılması, xalqımızın qədim adət-ənənələrinin, gözəl dilinin, zəngin mədəniyyətinin yaşadılması və təbliğ edilməsi sahəsində görüləsi işlərimiz çoxdur. Soydaşlarımızın və həmvətənlərimizin bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, milli özgünlüyümüzü uca tutmaq, hər sahədə bir-birinə dəstək olmaqdır. Azərbaycan xalqının varlığı və gələcəyi, milli dövlətçiliyimizin əbədi davam etməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır.

**Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!**

Sizi milli amallarımızın gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm can sağlığı, ailə səadəti, doğma Azərbaycanımıza işıqlı gələcək arzulayırıq!

*Hörmətlə,*
***Azərbaycan Respublikasının Milli Məclisi***

**(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 30 dekabr tarixli iclasında qəbul edilmişdir).**




# İdmanın inkişafı dövlət siyasətinin prioritetidir

## Prezident İlham Əliyevin idmançılara xüsusi qayğısı möhtəşəm uğurları şərtləndirib

Azərbaycanın müasir inkişafı ilə bağlı ən mühüm göstəricilərdən biri də idman sahəsində əldə edilən böyük uğurlardır. Bu uğurların arxasında isə Prezident İlham Əliyevin idmançılara göstərdiyi xüsusi diqqət və qayğı dayanır. İdmançılara olan dəstək onların beynəlxalq arenada təmsil olunmalarını daha uğurlu və effektiv etməyə, həm də Azərbaycanın idman sahəsindəki mövqeyini gücləndirməyə imkan yaradıb.

Prezident İlham Əliyev idman sahəsini yalnız fiziki fəaliyyət kimi deyil, eyni zamanda sosial, mədəni və milli bir vasitə kimi görür. Dövlət başçısı idmanı ölkənin inkişafı üçün mühüm bir istiqamət olaraq müəyyən edib və bu sahədə çoxsaylı islahatlar, investisiyalar və proqramlar həyata keçirib.

Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev idmançılara yalnız maddi dəstək verməklə kifayətlənmir. Prezident Azərbaycan idmançılarının beynəlxalq səviyyədə uğurlu nəticələr əldə etmələri üçün yüksəksəviyyəli tədbirlər görür, onlar üçün hər cür şərait yaradır. Bu, idmançılara dünya və Avropa çempionatlarında, Olimpiya oyunlarında iştirak etməklə ölkənin bayrağını yüksəltmək imkanı verir.

Dövlətin idmançılara verdiyi stimullar və mükafatlandırma sistemi də onların motivasiyasını artırır. Prezident İlham Əliyev yalnız idmançılara deyil, həm də məşqçilərə, idman təşkilatçılarının işinə yüksək qiymət verərək, bu sahədə motivasiyanı təmin edir. Olimpiya və dünya çempionatlarında medal qazanan idmançılara verilən dövlət mükafatları onların növbəti mərhələdə daha yüksək nəticələr əldə etmələrinə stimul verir.

Azərbaycan idmançılarının beynəlxalq səviyyədə uğur əldə etmələri üçün ən vacib şərtlərdən biri də müasir və inkişaf etmiş idman infrastrukturunun mövcudluğudur. Prezident İlham Əliyev ölkənin idman infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mühüm layihələr gerçəkləşdirib. Bunun nəticəsində Azərbaycanda 46 müasir olimpiya idman kompleksi, məşq mərkəzləri, idman zalı və stadionlar inşa edilib.

Ümumiyyətlə, idman xalqın sağlamlığını qorumaq, gəncləri düzgün yetişdirmək, sosial inteqrasiyanı gücləndirmək və ölkənin beynəlxalq nüfuzunu artırmaq üçün ən vacib vasitələrdən biridir. Azərbaycan dövləti də idmanın inkişafına xüsusi diqqət yetirir və bu sahəyə sərmayə qoyur.

Bu gün idmanın inkişafı həm də ölkənin sosial həyatının ayrılmaz bir hissəsinə çevrilib. İdman yalnız fiziki fəaliyyət deyil, həm də əxlaqi və psixoloji cəhətdən insanları birləşdirən, motivasiya edən bir elementdir. Azərbaycanda idmanın sosial və mədəni əhəmiyyəti xüsusilə gənclər arasında sağlam həyat tərzinin təşviqi ilə özünü göstərir.

Gənclərin idmana cəlb edilməsi dövlətin uzunmüddətli siyasətinin mühüm hissəsidir. İdman gənclər arasında sağlam həyat tərzinin təşviq edilməsinin və sosial şəbəkənin inkişaf etdirilməsinin effektiv vasitəsidir. Gənclərin idmanla məşğul olmaları onların fiziki inkişafını, psixoloji sağlamlığını və mənəvi dəyərləri qorumağa kömək edir.

İdmanın inkişafı yalnız sosial sahədə deyil, iqtisadiyyatda da mühüm təsirlərə malikdir. İdman tədbirlərinin təşkil edilməsi, idman turizminin inkişafı, idman mallarının istehsalı və idman xidmətləri sektoru Azərbaycan iqtisadiyyatına əlavə dəyər yaradır. Ölkədə keçirilən beynəlxalq idman tədbirləri xarici turistləri cəlb edir və bununla da turizm sektorunun inkişafına təkan verir. Həmçinin idman infrastrukturlarına olan tələbat tikinti və inşaat sektorunun artmasına səbəb olur.

Azərbaycanda idmanın gələcəyi çox ümidvericidir. Dövlətin idmana göstərdiyi diqqət və dəstək bu sahənin inkişafını daha da sürətləndirəcək. Gələcəkdə daha çox beynəlxalq tədbirlərin keçirilməsi, idman sahəsindəki təhsilin keyfiyyətinin artırılması və idman mədəniyyətinin genişləndirilməsi istiqamətində islahatlar həyata keçiriləcək.

Dekabrın 26-da 2025-ci ilin idman yekunlarına həsr olunan mərasimdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev bir daha ötən dövrün uğurlu nəticələrinə diqqət yetirdi. Ənənəvi olaraq hər ilin sonunda idmançılarla görüş keçirilir, ilin yekunları müzakirə edilir, idmançılar, idman mütəxəssisləri mükafatlandırılırlar. Bu il idmançılarımız tərəfindən qazanılan medalların sayı rekord həddə çatıb. Beynəlxalq yarışlarda idmançılarımız tərəfindən 2000-dən çox medal, təqribən 600-dən çox qızıl medal qazanılıb. Bu bir daha onu göstərir ki, idmanın inkişafı Azərbaycanda uğurla gedir. Keçən illə müqayisədə medalların sayı daha çoxdur. İdmanın inkişafına göstərilən diqqət, aparılan dövlət siyasəti, əlbəttə ki, ildən-ilə daha yaxşı nəticələrə gətirib çıxarır.

Prezident vurğuladı ki, Azərbaycanda idmanın inkişafı dövlət siyasətidir və dövlət xətti ilə bir çox proqram icra edilir. İdman infrastrukturu demək olar ki, sıfırdan qurulub və bu gün ən yüksək səviyyədədir. Bölgələrdə idmanla məşğul olmaq üçün bütün şərait var. Bu il iki Olimpiya İdman Kompleksinin tikintisi yekunlaşıb - Gəncədə və Yevlaxda. Beləliklə, bölgələrdə Olimpiya İdman komplekslərinin sayı 46-ya çatıb.

Əlbəttə ki, bütün bunlar, eyni zamanda düzgün aparılan siyasət idmanın inkişafını şərtləndirir və gəncləri idmanla məşğul olmağa daha da həvəsləndirir. Bu da çox önəmlidir. Çünki sağlam gənc nəsil yetişməsə, idman uğurlarını əldə etmək mümkün olmayacaq. Sağlam gənc nəsil ilk növbədə ölkənin gələcək inkişafı üçün lazımdır ki, Azərbaycan əhalisi, Azərbaycan vətəndaşları fiziki cəhətdən sağlam olsunlar. Eyni zamanda uşaqlıqdan idmana göstərilən maraq gələcəkdə idman uğurlarına yol açır.

Dövlət siyasətinin əsas istiqamətlərindən biri də gəncləri sağlam ruhda, vətənpərvərlik ruhunda tərbiyə etməkdir ki, gənclər Vətən sevgisi ilə böyüsünlər, yaxşı tərbiyə alsınlar və beləliklə, ölkəmizin inkişafı davamlı olsun, əbədi olsun. Əlbəttə ki, burada əsas amil cəmiyyətdə mövcud olan ab-havadır. Bizim xalqımız böyük dərəcədə həmrəylik, vətənpərvərlik göstərir və son illərin hadisələri bunu bir daha təsdiqləyir. Gənclərin fiziki hazırlığı, mənəvi saflığı vəhdət təşkil etməlidir. Məhz o halda ölkə uğurla inkişaf edə bilər.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Davamlı sosial güvənlik, sürətli Böyük qayıdış və etibarlı müdafiə

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev 2026-cı ilin dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununu təsdiqləyib. Sənəd sosial öhdəliklərin icrası, müdafiə və təhlükəsizlik xərcləri, işğaldan azad olunmuş ərazilərin bərpası və iqtisadi artımın stimullaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bəri başdan bildirək ki, 2026-cı ilin dövlət büdcəsi makroiqtisadi sabitliyin qorunması və inkişafın davam etdirilməsi baxımından mühüm göstəricilərlə xarakterizə olunur. Büdcə gəlirləri 38,6 milyard, xərclər isə 41,7 milyard manat həcmində proqnozlaşdırılıb ki, bu da əvvəlki ilə nisbətən həm gəlirlər, həm də xərclər üzrə 0,7 faiz artım deməkdir. Eyni zamanda dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat müəyyən olunub və bu göstərici ümumi daxili məhsulun (ÜDM) 2,3 faizinə bərabərdir. Qeyd olunan rəqəmlər fiskal balansın, yəni büdcə gəlirlərinin və xərclərinin tarazlığının qorunacağı ilə yanaşı, dövlətin sosial-iqtisadi öhdəliklərini yerinə yetirmək imkanlarının təmin ediləcəyini göstərir.

Məlumdur ki, büdcə xərclərinin istiqamətləri növbəti ildə hökumətin sosial-iqtisadi sahədə atacağı addımları əks etdirən güzgüdür. Strukturuna baxanda görürük ki, ötən illərdə olduğu kimi, 2026-cı ildə də əsas hədəflər əhalinin rifah halının yüksəldilməsi, insan kapitalının inkişafı, ölkənin təhlükəsizliyinin təmin olunması, Qarabağın və Şərqi Zəngəzurun bərpasıdır. Büdcədə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, o cümlədən aztəminatlı təbəqələrin rifahının yaxşılaşdırılması və sosial təminat sisteminin davamlılığının artırılması əsas öhdəliklər kimi müəyyən edilib. Sosialyönümlü xərclərin həcminin 17,1 milyard manata çatdırılması və bunun ümumi büdcə xərclərinin 41 faizini təşkil etməsi dövlətin sosial siyasətə verdiyi önəmin növbəti ildə də dəyişməz qaldığını aydın şəkildə göstərir. Bu yanaşmanı həm də əhalinin sosial rifahının qorunması və gücləndirilməsi istiqamətində atılan ardıcıl addımların davamı kimi qəbul etmək olar.

Büdcə çərçivəsində təhsil, sosial müdafiə və sosial təminat sahələri üzrə xərclərin artırılması nəzərdə tutulur ki, bu da insan kapitalının inkişafına və sosial təminat mexanizmlərinin möhkəmləndirilməsinə xidmət edir. Sözügedən artımlar səhiyyə xərclərini də əhatə etməklə tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə və əlçatanlığının artırılmasına yönəlmiş dövlət siyasətinin tərkib hissəsidir.

Dövlət büdcəsində sosial müdafiə və sosial təminat sahəsinə ayrılan vəsaitin həcmi 4 milyard 873 milyon manata çatdırılıb. Bu göstərici 2025-ci illə müqayisədə 121,2 milyon manat və ya 2,6 faiz, 2024-cü ilin icrası ilə müqayisədə isə 721,8 milyon manat və ya 17,4 faiz artım deməkdir. Sözügedən dinamika dövlətin sosial öhdəliklərini ardıcıl şəkildə genişləndirdiyini və əhalinin həssas təbəqələrinin müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət yetirdiyini göstərir. Sosial müdafiə və sosial təminat xərclərinin ümumi büdcə xərclərində 11,7 faizlik paya malik olması bu sahənin maliyyə baxımından mühüm prioritet olduğunu bir daha təsdiqləyir.

Sosial müdafiə və sosial təminat sahəsində aztəminatlı ailələrin və həssas əhali qruplarının müdafiəsi büdcədə xüsusi diqqət mərkəzində saxlanılıb. 2026-cı ildə bu məqsədlə 2 milyard 750,9 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da 2025-ci illə müqayisədə 150,7 milyon manat və ya 5,8 faiz artım deməkdir. Göstərilən artım dövlətin sosial ədalət prinsipinə sadiqliyini və ehtiyac duyulan ailələrin rifahının yaxşılaşdırılmasına yönəlmiş siyasətin davamını nümayiş etdirir. Bundan başqa, sosial müavinətlərin maliyyələşdirilməsi üçün 2 milyard 144,7 milyon manat vəsaitin ayrılması da planlaşdırılır. Bu göstərici əvvəlki illə müqayisədə 201,8 milyon manat və ya 10,4 faiz çox olmaqla sosial dəstək mexanizmlərinin əhatə dairəsinin genişləndirilməsinə və vətəndaşların sosial təminatının gücləndirilməsinə xidmət edir.

Təsdiq olunmuş dövlət büdcəsini həmçinin təhlükəsizlik çağırışlarına cavab verən strateji sənəd kimi də xarakterizə etmək olar. Büdcə xərclərinin 21 faizinin müdafiə və milli təhlükəsizliyin təmin edilməsinə yönəldilməsi bu sahənin dövlət üçün gələn il də prioritet olacağını ortaya qoyur. Sözügedən istiqamət üzrə 8,7 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur ki, bu da 2025-ci illə müqayisədə 318,5 milyon manat və ya 3,8 faiz, 2024-cü illə müqayisədə isə 2,2 milyard manat və ya 32,8 faiz artım deməkdir. Müdafiə xərclərinin son beş ildə (2022-2026-cı illər) 3,8 milyard manat və ya 1,8 dəfə artması ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsinə, milli təhlükəsizliyin etibarlı təmininə və geosiyasi risklərə adekvat cavab imkanlarının formalaşdırılmasına xidmət edən ardıcıl siyasətin nəticəsi kimi qiymətləndirilir.

Mövcud geosiyasi reallıqlar fonunda ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi və müasir ordu quruculuğu prosesinin davam etdirilməsi dövlət büdcəsi vasitəsilə hərbi potensialın artırılmasını zəruri edir. Bu baxımdan hərbi xərclərin artırılması təkcə mümkün döyüş əməliyyatlarına hazırlıqla məhdudlaşmır, eyni zamanda müdafiə infrastrukturunun yenilənməsini, hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsini və Silahlı Qüvvələrin texnoloji modernizasiyasını hədəfləyir. Bu istiqamətdə həyata keçirilən maliyyə siyasəti ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsinə və regionda sülhün davamlı olaraq qorunmasına xidmət edən əsas təminatlardan biri kimi qəbul edilir.

Bu gün Azərbaycan öz inkişaf tarixində keyfiyyətcə yeni bir mərhələni yaşayır. Postmüharibə dövrü kimi xarakterizə olunan bu mərhələdə ölkə üçün taleyüklü məsələlərin 2026-cı ilin dövlət büdcəsi çərçivəsində kompleks şəkildə nəzərə alınması sənədin xüsusi və unikal mahiyyətini ortaya qoyur. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın ardıcıl icrası həm Qarabağ və Şərqi Zəngəzurun sosial-iqtisadi infrastrukturunun bərpasına, həm də əhalinin təhlükəsiz və rahat həyat şəraitinə qaytarılmasına xidmət edir. Proqramın icrası üçün gələn il büdcədən 3,5 milyard manat xərclənəcək. Xatırladaq ki, həmin məqsədlə 2020-2026-cı illər ərzində ümumilikdə 25,3 milyard manat büdcə vəsaiti ayrılıb. Bu da o deməkdir ki, dövlət müharibədən sonrakı dövrdə azad edilmiş ərazilərin bərpası və inkişafı istiqamətində böyük maliyyə resurslarını səfərbər edir, regionların sosial-iqtisadi infrastrukturunu yeniləyir, vətəndaşların rahat və təhlükəsiz yaşamının təminatına çalışır. İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün büdcədə təsdiq olunmuş vəsait, sözsüz ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan işlərin uğurlu nəticəsi üçündür.

Büdcənin strukturunda həm cari xərclərin, həm də investisiya və borc öhdəliklərinin balanslı şəkildə nəzərə alınması iqtisadi sabitliyin qorunması baxımından əsas şərtlərdən biridir. Gələn il üçün planlaşdırılan cari xərclər 25,2 milyard manat təşkil edərək ümumi xərclərin 60,3 faizini əhatə edir. Bu göstərici 2025-ci illə müqayisədə 407,3 milyon manat və ya 1,6 faiz artım deməkdir. Əsaslı xərclər isə 14,1 milyard manat həcmində planlaşdırılır və xərclərin 33,8 faizini təşkil edir. Büdcənin 2,5 milyard manatı və ya 5,9 faizi dövlət borcuna xidmət xərclərinə yönəldilir ki, bu da əvvəlki ilə nisbətən 58 milyon manat və ya 2,4 faiz çoxdur.

Prezident İlham Əliyev iqtisadi müstəqilliyin mahiyyətini belə ifadə edib: "İqtisadiyyatımız nə qədər güclü olsa, bizim siyasi addımlarımız da o qədər cəsarətli və uğurlu olacaqdır... İqtisadi müstəqillik siyasi müstəqilliyimiz üçün əsas şərtdir". Dövlət başçısının vurğuladığı kimi, iqtisadi müstəqillik ölkənin siyasi müstəqilliyinin möhkəm təməli, strateji qərarların arxasında duran güc mənbəyidir. 2026-cı ilin dövlət büdcəsi də məhz bu prinsiplər üzərində qurulub: sosial rifahın təmini, işğaldan azad edilmiş ərazilərin bərpası, milli təhlükəsizliyin gücləndirilməsi və dayanıqlı inkişafın davamı.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*




# *Yakup ASLAN:* "Azərbaycan üçün əsas məqsəd Naxçıvanla təhlükəsiz və davamlı əlaqəni təmin etməkdir"

"Zəngəzur dəhlizinin bir hissəsi olan Meğri rayonu hazırda beynəlxalq hüquqa əsasən, Ermənistanın sərhədləri daxilində yerləşir. Bu baxımdan sözügedən ərazi ilə bağlı həyata keçirilən istənilən tədbir Ermənistanın suveren hüquqları çərçivəsində qiymətləndirilməlidir. Azərbaycanın əsas məqsədi isə Naxçıvanla təhlükəsiz, fasiləsiz və davamlı əlaqənin təmin olunmasıdır".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında türkiyəli siyasi şərhçi Yakup Aslan səsləndirib. Onun sözlərinə görə, dəhlizin təhlükəsizliyinin kim tərəfindən təmin ediləcəyi Azərbaycan üçün texniki xarakter daşıyan məsələdir və Ermənistanın daxili tənzimləmələri ilə bağlıdır.

"Lakin bu marşrut boyunca Azərbaycana qarşı hər hansı hücum və ya təxribat baş verərsə, beynəlxalq məsuliyyət birbaşa Ermənistanın üzərinə düşəcək. ABŞ ilə xüsusi razılaşmanı Azərbaycan deyil, məhz Ermənistan aparıb. ABŞ-nin bölgədə iştirakı Azərbaycanın xahişi ilə deyil, Ermənistanın dəvəti əsasında baş tutub", - deyə Yakup Aslan vurğulayıb.

Siyasi şərhçi qeyd edib ki, burada əsas məsələ prosesin qarantı kimi çıxış edə biləcək güclü və neytral dövlətin mövcudluğu və danışıqlar üçün etibarlı əsasın formalaşdırılmasıdır. Onun sözlərinə görə, ABŞ-nin etibarlı aktor olmadığına dair tənqidlər də haqlıdır. "Nəzəri baxımdan Çin və ya digər bir ölkə bu rolu öz üzərinə götürə və bununla da bölgə dövlətlərinin etimadını qazana bilər. Fransa Ermənistanla yaxın tarixi və siyasi əlaqələrinə, Türkiyə isə Azərbaycanla qardaşlıq münasibətlərinə görə neytral qarant rolunda çıxış edə bilməz. Digər tərəfdən, Rusiya iki əsrdir Azərbaycan və Ermənistan arasındakı münaqişələrdə tərəfləri bir-birinə qarşı qoyan əsas güclərdən biri kimi çıxış edib. Son dövrlərdə Azərbaycana yönələn tənqidlər ictimai müzakirələrdə öz əksini tapır. Bu tənqidlər dostluq münasibətləri çərçivəsində dəyərlidir. Lakin prosesin düzgün anlaşılması üçün Zəngəzurun coğrafi və hüquqi statusunun aydın şəkildə izah olunması vacibdir", - deyə Yakup Aslan əlavə edib.




# Konstitusiya və Suverenlik İli 2025



**Şərəfli adının qarşısında hər zaman "dünyanın ən böyük azərbaycanlısı" kimi fəxri titul yazılan Ulu Öndər Heydər Əliyev tariximizə yalnız müstəqil dövlətçiliyimizin qurucusu kimi deyil, eyni zamanda azərbaycançılıq ideologiyasının banisi, milli kimliyimizin qoruyucusu kimi əbədi həkk olunub. Azərbaycan xalqının tarixinə, milli-mənəvi dəyərlərinə, dilinə və mədəniyyətinə dərindən bələd olan Ümummilli Lider bu irsimizin qorunmasını dövlət siyasətinin əsas prioritetinə çevirib, azərbaycançılığı müstəqil Azərbaycanın ideoloji dayağı kimi formalaşdırıb.**



# Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün müəllifi

Ulu Öndərin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" sözləri sadəcə şəxsi mövqenin ifadəsi deyil, milli özünüdərkin, milli kimliyin gələcək nəsillərə ünvanlanan mesajı, çağırışı idi. Bu çağırış Azərbaycan xalqının gələcəyinin məhz azərbaycançılıq ideologiyasına bağlı olduğunu aydın şəkildə ortaya qoyurdu.

Məhz bu möhkəm milli-ideoloji təməl üzərində qurulan müstəqil Azərbaycan dövləti bu gün tarixinin ən qüdrətli mərhələsini yaşayır. Dövlətimizin qazandığı bütün uğurlar, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin olunması Heydər Əliyev dühasının uzaqgörənliklə formalaşdırdığı ideoloji xəttin Prezident İlham Əliyev tərəfindən qətiyyətlə və ardıcıllıqla davam etdirilməsinin parlaq nəticəsidir. Azərbaycançılıq ideologiyası bu gün milli məntiqinə uyğun olaraq real tarixi nəticələr doğurub və bunun sayəsində vətənimiz bütövləşib.

## Milli birliyin tarixi zəfəri

Prezident İlham Əliyevin "Bu gün əminəm ki, dünya azərbaycanlıları yaşadıqları bütün ölkələrdə başıdik, alnıaçıq, üzüağ gəzirlər və öz tarixi vətəni olan Azərbaycanla haqlı olaraq fəxr edirlər" fikri milli birliyimizin hansı zirvəyə yüksəldiyini ifadə edən təntənəli bəyandır. Xalqımızın məhz milli həmrəylik sayəsində qazandığı möhtəşəm Zəfər azərbaycançılıq ideologiyasının gücünü bütün dünyaya nümayiş etdirdi.

İkinci Qarabağ müharibəsində Azərbaycan xalqı sarsılmaz birlik nümayiş etdirərək Vətən uğrunda apardığı mübarizədən qalib çıxdı. Dünyanın harasında yaşamasından asılı olmayaraq, kökləri ilə bu torpağa bağlı olan bütün soydaşlarımız, eyni zamanda Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələri bu müqəddəs mübarizədə vahid amal ətrafında birləşdilər. 44 günlük Vətən müharibəsi milli həmrəyliyimizin ən yüksək tarixi zirvəsi oldu.

Bütün bunlar müstəqil Azərbaycan dövlətinin əsas ideyasının azərbaycançılıq olduğunu qətiyyətlə müdafiə edən Ulu Öndərin vaxtilə bu istiqamətdə atdığı uzaqgörən və məntiqli addımların öz nəticəsinə çatdığının bariz nümunəsidir.

Dahi lider milli həmrəyliyin yalnız çağırışlarla deyil, düşünülmüş konsepsiya ilə təmin olunduğunu dəqiq bilirdi.

Heydər Əliyev dünya azərbaycanlılarının harada yaşamasından asılı olmayaraq, ümummilli mənafelərə xidmət etməli olduqlarını qəti şəkildə müəyyənləşdirərək diaspor quruculuğunu dövlət siyasətinin mühüm istiqamətinə çevirmişdi. Xarici ölkələrə səfərləri zamanı mütləq oradakı azərbaycanlılarla görüşən Ulu Öndər onları milli ideya ətrafında birləşməyə, təşkilatlanmağa çağırırdı. O, çıxışlarında dəfələrlə vurğulayırdı ki, harada doğulmağın fərqi yoxdur, əsas olan azərbaycanlı kimliyini, ana dilini, milli mədəniyyəti yaşatmaqdır.

Məhz Ulu Öndərin yorulmaz səyləri nəticəsində azərbaycançılıq milli ideologiyamıza çevrildi, cəmiyyətimizdə möhkəm həmrəylik formalaşdı, dünya azərbaycanlıları vahid ideya ətrafında birləşdilər. 2001-ci il noyabrın 9-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı bu prosesin tarixi kulminasiya nöqtəsi oldu.

Həmin qurultayda Ümummilli Lider Heydər Əliyev böyük sevinclə nitqinə bu sözlərlə başlamışdı: "Dünya Azərbaycanlılarının I Qurultayı müstəqil Azərbaycanın həyatında, bütün dünya azərbaycanlılarının həyatında tarixi hadisədir. Bütün dünyada yaşayan azərbaycanlıların, Azərbaycan icmalarının nümayəndələri ilk dəfə olaraq Azərbaycana, onun paytaxtı Bakı şəhərinə toplaşmışlar və özlərinin I Qurultayını keçirirlər".

Ulu Öndər tarixi qurultayda üzünü həmvətənlərimizə tutub deyirdi ki, müstəqil Azərbaycan dövləti gənc olduğu kimi, Azərbaycanın həmrəyliyi də, dünya azərbaycanlılarının birliyi də, müxtəlif ölkələrdəki Azərbaycan icmaları da gəncdirlər: "Ancaq indi biz yeni bir mərhələyə keçmişik. Biz formalaşırıq, müstəqilliyimiz möhkəmlənir, xarici ölkələrdə yaşayan azərbaycanlılar daha sürətlə təşkilatlanır və bizim hamımız birlikdə azərbaycançılığı yaşadacağıq, daimi edəcəyik, əbədi edəcəyik".

Bəli, dahi şəxsiyyət xalqımızın, dövlətimizin parlaq zəfərlərlə bol xoş gələcəyinin milli həmrəyliyimiz, azərbaycançılıq ideyası ətrafında birləşməyimiz sayəsində mümkün olacağına qəti şəkildə əmin idi.

## Milli azadlıq mübarizəsinin məntiqi nəticəsi

Milli həmrəyliyin inkişafı istiqamətində ölkəmizdə ardıcıl olaraq mühüm qərarlar verilib, qanunlar qəbul edilib. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qanun qəbul edib. Həmin vaxtdan bütün dünyada azərbaycanlılar bu günü böyük qürurla bayram kimi qeyd edirlər.

Bu günün mühüm məram və mahiyyəti barədə Ümummilli Lider 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə xarici ölkələrdə yaşayan soydaşlarımıza müraciətlərinin birində deyib: "Dünya Azərbaycanlılarının Həmrəylik Gününün dövlət bayramı kimi qeyd edilməsi xalqımızın milli azadlıq mübarizəsinin məntiqi nəticəsi olaraq artıq xoş ənənəyə çevrilmişdir.

Qədim və zəngin tarixə malik olan Azərbaycan xalqının dirçəlişini, tərəqqisini və milli birliyini əks etdirən, onu müstəqil dövlətçilik uğrunda müqəddəs və məsuliyyətli mübarizəyə səfərbər edən həmrəylik günü hər bir azərbaycanlı üçün inam və ümid anıdır..."

Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Dünya Azərbaycanlılarının I Qurultayında xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası da irəli sürülüb. 5 iyul 2002-ci ildə isə Heydər Əliyevin fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

Prezident İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi, dövlət başçısının 2018-ci il 5 iyul tarixli fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb.

Dünya Azərbaycanlılarının II Qurultayı Prezident İlham Əliyevin sərəncamına əsasən 2006-cı ildə, III qurultayı 2011-ci ildə, IV qurultayı isə 2016-cı ildə keçirilib.

Dünya azərbaycanlılarının ötən müddətdə keçirilən qurultaylarının hər biri həmrəyliyimizə, milli mənafelərimizin təmini istiqamətində təşkilatlanmağımıza böyük təkan olub.

## İlham ƏLİYEV: "...Biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik"

Əsasını Ulu Öndər Heydər Əliyevin qoyduğu bu siyasi xətt Prezident İlham Əliyev tərəfindən yeni tarixi şəraitdə daha da zənginləşdirildi və parlaq uğurlarla salnamələrimizə həkk edildi. Vətən müharibəsi zamanı xalqın birliyi "dəmir yumruğ"a çevrilərək düşmənin başını əzdi, diaspor təşkilatlarımız dünya miqyasında aktiv mübarizə apardı, Azərbaycan həqiqətləri qlobal səviyyədə müdafiə olundu. İkinci Qarabağ müharibəsində diaspor təşkilatlarımızın dünyanın 30-dan çox ölkəsində keçirdikləri 200-dək aksiyada 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak etdilər. Eyni zamanda müharibə günlərində 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərdilər. Nümayiş etdirilən milli birliyin gücü sayəsində Azərbaycan xalqı adını dünya tarixinə qalib xalq kimi yazdırdı.

2022-ci il aprelin 22-23-də azad Şuşada keçirilən Dünya Azərbaycanlılarının V Qurultayı - Zəfər Qurultayı milli həmrəyliyimizin rəmzinə çevrildi. Bu qurultay sübut etdi ki, azərbaycançılıq ideologiyası artıq təkcə milli ideya deyil, tarixi qələbələr doğuran güc mənbəyidir. "Biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır. Siz buraya Zəfər yolu ilə gəlmisiniz, qurultayın adı Zəfər qurultayıdır", - deyə tarixi qurultaydakı çıxışında Prezident İlham Əliyev qürurla qeyd etdi ki, bu, böyük xoşbəxtlikdir - hamımız üçün, Azərbaycanda yaşayanlar, Azərbaycan vətəndaşları üçün, xaricdə yaşayan azərbaycanlılar üçün.

Həmin vaxt Şuşada Müzəffər Lider İlham Əliyev I qurultayda Ümummilli Liderin dərin məzmunlu çıxışında Qarabağ problemi ilə bağlı öz fikirlərini bildirərək, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa edəcəyini, işğal altında olan torpaqların azad ediləcəyini və Azərbaycan xalqının öz dədə-baba torpaqlarına qayıdacağını xatırladaraq xüsusi vurğuladı ki, biz - Ulu Öndərin davamçıları bu sözləri gerçəyə çevirdik.

Bu gün harada yaşamasından asılı olmayaraq, dünya azərbaycanlıları öz dövlətləri ilə qürur duyur, Azərbaycan adı beynəlxalq aləmdə güc, qətiyyət və Zəfər rəmzi kimi hallanır. Milli birliyimizin sarsılmaz gücü sayəsində Azərbaycan hər ötən gün daha da qüdrətlənir və gələcəyə doğru inamla addımlayır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Həmrəylik qərbi azərbaycanlıların doğma yurda qayıdacaqlarına böyük inam yaradır

Xalqın taleyi ilə bağlı böyük ideyalar yalnız fenomen şəxsiyyətlərin əzmkar fəaliyyəti ilə gerçəkləşir. Dünya azərbaycanlılarının həmrəyliyini, onların təşkilatlanması prosesini daim diqqət mərkəzində saxlayan Ulu Öndər Heydər Əliyev həmrəylik gününü təsis etməklə xalqın birləşməsinə və ideoloji həmrəyliyinə nail olmuşdur.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün əsası 1989-cu il dekabrın sonlarında Naxçıvanda İranla sərhədlərin dağılması zamanı qoyulub. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq 31 dekabr tarixini Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan edib. Bu təşəbbüs mərkəzi hakimiyyətin də dəstəyini qazanıb və artıq Yer kürəsində yaşayan bütün azərbaycanlılar bu günü bayram kimi qeyd edirlər.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan çox azərbaycanlı ilə əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Belə bir günün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin milli həmrəylik sahəsində xidmətlərini uğurla davam etdirən Prezident İlham Əliyevin "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" 2006-cı il 8 fevral tarixli sərəncamı ilə həmin il martın 16-da Bakıda keçirilən növbəti mötəbər toplantı xaricdə yaşayan azərbaycanlıların diaspordan lobbiyə çevrilməsi istiqamətində yeni addım olmuş, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması işində əhəmiyyətli rol oynamışdır. 2011-ci il iyulun 5-6-da III, 2016-cı il iyunun 3-4-də IV qurultayların keçirilməsi ilə diaspor quruculuğu işinə əsaslı töhfələr vermişdir.

Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarı ilə fəaliyyət göstərən diaspor təşkilatlarının 2007-ci il martın 9-da Bakıda keçirilən Azərbaycan və türk diaspor təşkilatları rəhbərlərinin I Forumu da bütün türkdilli xalqların həyatında mühüm hadisəyə çevrilmiş, Azərbaycan Prezidenti İlham Əliyevin türk dünyasının birliyinə verdiyi əhəmiyyətin parlaq təzahürü kimi tarixə düşmüşdür.

44 günlük Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaları xalqımızın möhtəşəm Qələbəsinə layiqli töhfə olmuşdur. Bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bu gücün təməlində təkcə iqtisadi və hərbi qüdrətimiz deyil, həm də sarsılmaz birliyimiz dayanır. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları soydaşlarımızı birləşdirən əsas dəyərlər kimi hər birimizin düşüncəsinə hakim kəsilməlidir.

Ulu Öndər Heydər Əliyevin milli qürur rəmzinə çevrilmiş müdrik "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" ifadəsi dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi, dilimizin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması üçün dəyərli və əbədi öyüddür.

Ona görə də dahi şəxsiyyətin dünya azərbaycanlılarının həmrəyliyinin, birliyinin təmin edilməsi ilə bağlı ideyaları hər zaman aktualdır.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev həmin işi bu gün uğurla davam etdirir. Bunun ən bariz nümunəsi hazırkı Ermənistan ərazisindən kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaq üçün 2022-ci ilin ikinci yarısında Azərbaycan Qaçqınlar Cəmiyyətinin bazasında Qərbi Azərbaycan İcmasının yaradılmasıdır. İcmanın məqsədi müxtəlif vaxtlarda etnik mənsubiyyətinə görə Qərbi Azərbaycandan kütləvi şəkildə deportasiya olunmuş azərbaycanlıların və onların varislərinin ictimai-mədəni birliyinə nail olmaqla onların hüquqlarının beynəlxalq müstəvidə bərpası, həmin ərazilərdə Azərbaycan xalqının yaratdığı tarixi-mədəni irsin öyrənilməsi, təbliğ olunması və tam məhv olunmasının qarşısının alınması, soydaşlarımızın doğma yurdlarına qayıtmaq hüququnun təmin edilməsi və birgəyaşayışa nail olunmasından ibarətdir.

Prezident İlham Əliyev 3 il öncə - dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu məsələlərlə bağlı demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Bu barədə Qərbi Azərbaycan İcması Ağsaqqallar Şurası sədrinin müavini, Əməkdar elm xadimi Vaqif Şadlinski müxbirimizə açıqlamasında demişdir:

- Taleyüklü məsələlərdə Prezident İlham Əliyevin ideyalarını, fərman və sərəncamlarını rəğbətlə dəstəkləyən qərbi azərbaycanlılar icmanın ətrafında daha mütəşəkklil formada birlik, həmrəylik nümayiş etdirirlər. İcmada Müşahidə, Ağsaqqallar, Ziyalılar, Qadınlar və Qəyyumlar şuraları, İdarə Heyəti, Nəzarət-Təftiş Komissiyası, Gənclər Birliyi, xarici ölkələrdəki nümayəndəliklər kimi strukturlar fəaliyyət göstərir. 8 yanvar 2023-cü ildə Qərbi Azərbaycan İcmasının tərkibində Elm komissiyası yaradılıb. 2023-cü ilin yanvarında müəllifi və təşəbbüskarı Prezident İlham Əliyev olan qərbi azərbaycanlıların Ermənistana qayıtması, qayıdışdan sonra onların Azərbaycan Respublikası ilə maneəsiz əlaqələrinə imkan verilməsi, Ermənistandakı mədəni irs nümunələrinin qorunması məsələlərini özündə ehtiva edən Qayıdış Konsepsiyası, 2024-cü ilin oktyabrında isə Azərbaycan Milli Məclisində Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılmışdır. Beləliklə, Qərbi Azərbaycan İcması Ermənistana qayıdış mövzusunu regional və beynəlxalq miqyasda, parlamentlərarası münasibətlərdə əlaqələndirmək imkanı əldə etmişdir.

Qürurverici haldır ki, icmanın fəaliyyətə başladığı ilk aylarda BMT-nin katibliyi Qərbi Azərbaycan İcmasının beynəlxalq ictimaiyyətə müraciətini BMT Təhlükəsizlik Şurasının, Baş Assambleyasının, İqtisadi və Sosial Şurasının rəsmi sənədi kimi yayıb. Bununla 190-dan çox ölkə məsələ barədə xəbərdar olub.

İcma üzvlərinin sayında ildən-ilə artım müşahidə edilir, icmanın fəaliyyət coğrafiyası genişlənir. Hazırda Qərbi Azərbaycan İcmasının Gəncə, Sumqayıt şəhərlərində, habelə Goranboy-Naftalan bölgəsində nümayəndəlikləri və digər rayonlarda ofisləri fəaliyyət göstərir. Azərbaycandan kənarda Niderlandda nümayəndəlik açılıb. Qardaş ölkə olan Türkiyədə isə bu gün təxminən 1,5 milyon nəfərdən çox qərbi azərbaycanlı yaşayır. Qərbi Azərbaycan İcmasının ideya xəttini və fəaliyyətini dəstəkləyən Türkiyənin İzmir şəhərində icmanın Türkiyə ofisi yaradılıb.

Nümayəndəliyin fəaliyyət istiqamətləri arasında Qərbi Azərbaycanın tarixi, mədəniyyəti, görkəmli şəxsiyyətləri haqqında ictimaiyyəti məlumatlandırmaq, ardıcıl şəkildə Qərbi Azərbaycandan deportasiya olunan 300 mindən çox soydaşımızın beynəlxalq səviyyədə haqq və hüquqlarının bərpa olunması istiqamətində beynəlxalq təşkilatlarla işi gücləndirmək kimi məsələlər yer alır.

Sovet hökumətinin dəstəyi ilə öz tarixi torpaqlarından, dədə-baba yurdlarından zorla qovulan azərbaycanlılar Orta Asiya ölkələrində də çoxluq təşkil edir. Bunu ötən ilin sentyabr-oktyabr aylarında "Özbəkistanda yaşayan qərbi azərbaycanlılar" İctimai Birliyinin yaradılması da təsdiq edir. İctimai Birliyə əslən Qərbi Azərbaycanın Basarkeçər rayonunun Bala Məzrə kəndindən olan İlham Yusif oğlu Abdullayev rəhbərlik edir. Birliyin üzvləri öz ata-baba torpaqlarına qayıtmaq amalı ətrafında sıx birləşmələrini yüksək dəyərləndirir, Azərbaycan dövlətinin, Prezident İlham Əliyevin Qərbi Azərbaycanla bağlı yürütdüyü siyasətə tam dəstək olduqlarını deyirlər. Onlar da 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü böyük təntənə ilə qeyd edən öz doğma torpaqlarından uzaq düşmüş digər soydaşlarımız kimi bu həmrəyliyin işığında öz yurdlarına qayıdacaqlarına böyük inam bəsləyirlər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Əbədiyyət ömürlü şəxsiyyət

**Tarixdə elə şəxsiyyətlər var ki, elmi biliklə dövlətçilik təfəkkürü, humanist dünyagörüşü ilə ictimai məsuliyyət hissi onların həyat və fəaliyyətində vəhdətdə olur. Əziz Məmmədkərim oğlu Əliyev də istisnasız olaraq belə nadir şəxsiyyətlərdəndir. Onun çoxşaxəli fəaliyyəti Azərbaycan tibb elminin inkişafı, səhiyyə sisteminin təşkili, dövlət idarəetməsi, maarifçilik ideyalarının yayılması, milli-intellektual mühitin formalaşması baxımından mühüm mərhələ təşkil edir. Əziz Əliyev yalnız böyük alim və dövlət xadimi deyil, həm də cəmiyyətin mənəvi-intellektual tərəqqisini prioritetləşdirən ziyalı modeli kimi Azərbaycan ictimai fikrində nəcib izlər qoymuşdur.**

## İrəvandan başlanan ömür yolu

Əziz Əliyevin yaşadığı zamanlar da, məkanlar da bir-birindən xeyli fərqlənirdi. Bu şəxsiyyətin həyatı bənzərsiz idi, hər bir insanın yaşadığı ömür deyildi. Onun ömrünün bütün anlarında mənsub olduğu xalqın tarixi ilə bağlı coxlu əlamətdar məqamlar vardı.

Görkəmli dövlət xadimi Əziz Əliyev bütün həyatını sevdiyi peşəyə həsr etmiş, təhsil, səhiyyə təşkilatçısı kimi misilsiz işlərə imza atmışdır. O, gənc yaşlarından Azərbaycanda səhiyyə işinin təşkilində, eləcə də dövlət quruculuğu proseslərində fəal iştirak etmişdir. Daha sonra dövlət idarəçiliyi işinin təkmilləşdirilməsində tarixi xidmətlər göstərmişdir.

Əziz Əliyev 1897-ci il yanvarın 1-də tarixi Azərbaycan torpağı - İrəvan quberniyasının Hamamlı kəndində Məmmədkərim Kərbəlayi Qurbanəli oğlunun ailəsində dünyaya gəlmişdir. Atası el-obanın hörmətli ağsaqqallarından sayılırdı, anası Zəhra xanım isə İrəvan mahalında nüfuz sahibi kimi tanınmış İbrahim bəy Süleymanbəyovun qızı idi.

1905-ci ildə ailə Hamamlı kəndindən İrəvan şəhərinə köçür. Əziz Əliyev 8 yaşında rus-tatar məktəbinə qəbul olunaraq ibtidai təhsilini burada alır. 1908-1914-cü illərdə Çita şəhərində bibisi Göyçək xanımın yanında yaşayır, altıncı sinfə qədər təhsilini orada davam etdirir. 1914-cü ildə yay tətili zamanı İrəvana gələn gənc Əziz Birinci Dünya müharibəsinin başlanması və nəqliyyat əlaqələrinin məhdudlaşması səbəbindən daha Çitaya qayıda bilmir, 1914-1917-ci illərdə İrəvan kişi gimnaziyasında oxumağa məcbur olur. Gimnaziyada bütün fənlərdən yüksək müvəffəqiyyət göstərdiyinə görə təhsil haqqından azad edilir.

O, həkim olmaq istəyirdi. Amma Azərbaycanda ali tibb təhsili verən məktəb olmadığı üçün Rusiya imperiyasının aparıcı şəhərlərindəki universitetlərindən birində təhsil almaq lazım gəlirdi. Belə şəhərlərdə yaşamaq, oxumaq üçünsə xeyli maddi vəsait tələb olunurdu. O dövrdə Azərbaycan iqtisadi cəhətdən inkişaf edir, xüsusilə neft Bakısında xeyriyyəçilik fəaliyyəti gündən-günə genişlənirdi. Milyonçular arasında Azərbaycanın gələcək taleyini düşünənlər, millətə faydalı olmağı özünə mənəvi borc bilənlər, gənclərin təhsilinə bacardıqları qədər diqqət göstərənlər az deyildi. Əziz Əliyev belə messenatlarımızdan ən tanınmışı - xeyirxah əməllərinin sözü-söhbəti dildən-dilə dolaşan Hacı Zeynalabdin Tağıyevə məktubla müraciət edir. Məşhur xeyriyyəçi Əzizə köməyini əsirgəmir. Gənc elə həmin il Sankt-Peterburqda Rusiyanın ən nüfuzlu ali tibb məktəblərindən sayılan Hərbi Tibb Akademiyasına daxil olur.

Akademiyanın birinci kursunu uğurla tamamlayıb 1918-ci ilin yay tətili günlərində doğma yurdu İrəvana qayıdır və burada gördüklərindən dəhşətə gəlir. O zaman silahlı erməni daşnakları bütün Qərbi Azərbaycan ərazilərində, o cümlədən İrəvanda dinc azərbaycanlı əhaliyə qarşı misli görünməmiş vəhşiliklər törədir, yaşlılara, qadınlara, uşaqlara belə aman vermədən kütləvi qırğınlar həyata keçirir, insanların mal-mülkünü talan edir, evlərini yandırır, əsrlər boyu formalaşmış maddi-mədəni irsi, hətta ata-baba məzarlarını belə dağıdaraq qədim və zəngin tarixə malik bir xalqı yaddaşlardan silməyə cəhd göstərirdilər. Ulu Öndər Heydər Əliyev 1998-ci ildə görkəmli alimin 100 illik yubileyindəki nitqində xüsusi vurğulamışdır ki, İrəvanda anadan olmuş Əziz Əliyev artıq 1918-ci ildə özü və bütün ailəsi soyqırımına, deportasiyaya məruz qalmışdı. O, bu qırğınlardan xilas olmaq üçün çox böyük çətinliklə ailəsini Naxçıvanın Şərur rayonunun Şahtaxtı kəndinə köçürə bilir.

1918-ci ildə atasının vəfatı onun çətinliklərini daha da artırır, ailənin bütün yükü gəncin çiyinlərinə düşür. O, Sankt-Peterburqa qayıdaraq təhsilini də davam etdirə bilmir. Buna baxmayaraq yüksək istedadı, tibb sahəsinə qəlbən bağlılığı ilə təbabətdən tam uzaq da düşmür. Əldə etdiyi tibbi ədəbiyyatı gecə-gündüz oxuyur, müalicə müəssisələrində və əczaxanalarda həkim köməkçisi kimi çalışaraq səriştə qazanır.

Heydər Əliyev yubiley təntənəsində alimin xarakterindən söhbət açarkən demişdir: "O, lap əvvəldən qeyri-adi insan idi. Onun tərcümeyi-halına diqqət yetirin. İrəvanda rus gimnaziyasında təhsil almaq və oranı qızıl medalla bitirmək, gənc ikən kömək üçün milyonçu Hacı Zeynalabdin Tağıyevə müraciət etmək, ondan bu köməyi almaq və bütün dünyada məşhur olan hərbi tibb akademiyasında ali tibb təhsili almaq üçün Peterburqa getmək - gənclik illərində bunu heç də hər kəs bacarmazdı. Heç də hər kəs bu qədər məqsədyönlü ola bilməzdi. Başqa sözlə, bu qeyri-adi istedadı ilahidən gələn insan özünün məqsədyönlülüyü, fədakarlığı, zəhmətsevərliyi, biliklərə can atması sayəsində çox şey qazanmış, hərtərəfli insani keyfiyyətlər əldə etmişdir. O həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi".

## Səhiyyə təşkilatçısı

1920-ci ilin mayında daşnaklar bolşeviklərin köməyi ilə Şərurda da qırğınlar törədirlər. Şahtaxtı əhalisi, o cümlədən Əziz Əliyevin ailəsi Araz çayını keçərək Cənubi Azərbaycanın Ərəblər kəndində məskunlaşır. Əziz Əliyev burada həkim köməkçisi kimi fəaliyyətini davam etdirir. Tibbi dəstəyə böyük ehtiyacı olan əhaliyə mümkün vasitələrlə bacardığı yardımı göstərir. Burada onun həyatında daha bir ağır itki baş verir. 1920-ci ildə anasını itirir.

Həmin il gənc Əziz irəvanlı tacir Hacı Cabbar Abbasovun qızı Leyli xanımla ailə həyatı qurur. 1921-ci ilin iyununda gənc ailə Şahtaxtı kəndinə geri dönür. 1921-ci il oktyabrın 3-də oğlu Tamerlan, 1923-cü il aprelin 28-də isə qızı Zərifə bu kənddə dünyaya gəlir.

Əziz Əliyev 1923-cü ilin mayınadək Şahtaxtı kəndində orta tibb işçisi və həkim köməkçisi kimi fəaliyyət göstərir. Birinci kursun sonundan yarımçıq qalmış ali tibbi təhsili davam etdirmək, həkim kimi çalışmaq, peşəkar bilik və bacarıqlarını artırmaq arzusu onu bir an da olsun tərk etmirdi. Elə bu arzu ilə 1923-cü ildə ailə Bakıya köçür.

Bakıda Əziz Əliyev Azərbaycan SSR Xalq Komissarları Şurasında müxtəlif məsul vəzifələrdə çalışır, əvvəlcə iş icraçısı, daha sonra həmin qurumun ümumi şöbə müdirinin müavini, katibin müavini və nəhayət, Respublika Xalq Komissarları Şurasının katibi vəzifəsini icra edir. Bu məsul dövlət işləri ilə paralel olaraq, yarımçıq qalmış ali tibb təhsilini 1923-cü ildən Bakı Dövlət Universitetinin Tibb fakültəsində davam etdirir. 1927-ci ildə universiteti əla qiymətlərlə bitirdiyinə görə Diaqnostika kafedrasında saxlanılır. Burada əvvəlcə ordinator, sonra aspirant, assistent və dosent kimi elmi-pedaqoji fəaliyyət göstərir.

1929-1932-ci illərdə Əziz Əliyev Azərbaycan Klinik İnstitutunun rektoru vəzifəsində çalışır, sonrakı dövrlərdə isə Xalq Səhiyyə Komissarlığının Müalicə şöbəsinin müdiri, Bakı Şəhər Səhiyyə Şöbəsinin müdiri və Xalq Səhiyyə Komissarının müavini kimi məsul vəzifələrə təyin olunur.

1930-cu il iyunun 19-da Bakı Dövlət Universitetinin Tibb fakültəsinin bazasında Azərbaycan Dövlət Tibb İnstitutu (ADTİ) təsis edilərkən bu ali tibb ocağının yaradılmasında Əziz Əliyev müstəsna rol oynayır. 1932-ci ildə o, ADTİ-nin rektoru təyin edilir.

1934-cü il martın 30-da paytaxtda səhiyyə sisteminin təkmilləşdirilməsi məqsədilə Bakı Şəhər Səhiyyə Şöbəsinin müdiri vəzifəsinə gətirilən Əziz Əliyev 1935-ci il yanvarın 14-də Azərbaycanda yüksəkixtisaslı milli tibb kadrlarının hazırlanmasını gücləndirmək zərurəti ilə yenidən ADTİ-nin rektoru vəzifəsinə göndərilir. Rektor kimi fəaliyyətə başladıqdan dərhal sonra o, institutun qarşısında duran prioritet problemlərin həlli üçün genişmiqyaslı tədbirlər planının həyata keçirilməsinə nail olur. O cümlədən tədris və tərbiyə işini bacaran yerli mütəxəssislərin hazırlanmasında, ana dilində keyfiyyətli tibb ədəbiyyatının yaradılmasında mühüm nəticələr ortaya qoyur. Təkcə 1930-1945-ci illərdə Əziz Əliyev və ADTİ-nin əməkdaşları tərəfindən Azərbaycan dilində 80 adda dərslik və dərs vəsaiti tərtib edilərək tibb təhsili alan tələbələrin ixtiyarına verilir. Həmçinin onun təşəbbüsü ilə 1934-cü ildə "Tibb nəşriyyatı" yaradılır, ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı"nın nəşrinə başlanır.

Qeyd edək ki, Əziz Əliyev özü 1929-cu ildən "Azərbaycan Tibb Jurnalı"nın məsul katibi idi, 1935-ci ildə isə həmin jurnalın baş redaktoru təyin edilir. 1933-cü ildə yenə də Əziz Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin nəşrinə başlanılır. Hazırda "Təbib" adı ilə nəşrini davam etdirən bu qəzet həmin mətbu orqanın bazasında yaradılmışdır. Həmin illərdə ADTİ-də "Kitabxana komissiyası" da yaradılmışdı və komissiya müvafiq sahə üzrə SSRİ-də nəşr olunan bütün təzə kitabları, o cümlədən dövri tibbi-bioloji ədəbiyyatı alırdı.

## Örnək ziyalı

Əziz Əliyevin institutda Rektorluq Fondu yaratması, həmin fondun hesabına ehtiyacı olan tələbələr üçün hər il paltar, ayaqqabı alınması da bu böyük ziyalının ömürlüyünün rəğbət doğuran örnək məqamlarındandır. Bu faktın özü belə ziyalılarımızın bütün dövrlərdə, ən çətin vaxtlarda belə xalqımızın xeyirxahlıq, mərhəmət, yardımsevərlik ənənələrini necə davam etdirdiklərini göstərir.

Əziz Əliyevin tələbələrə ata qayğısı bununla tamamlanmırdı. O, hər il institutun sonuncu kurs tələbələri arasından ən bacarıqlıları seçər, onları təcrübə toplamaları, mövcud imkanlardan faydalanmaları üçün Moskvanın, Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezamiyyətə göndərərdi. Həmin tələbələrin əksəriyyəti sonralar tibbin müxtəlif sahələrində məşhur alim kimi böyük nüfuz qazanmışdılar.

Onun Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik etdiyi 6 il müddətində 11 doktorluq, 30 namizədlik dissertasiyası müdafiə edilmişdi. Əziz Əliyevin dəstəyi ilə tibb sahəsində alim kimi müvəffəqiyyət qazananların əksəriyyəti milli kadrlar idi. O, insanlar arasında milli ayrı-seçkilik salmırdı, sadəcə hər kəs üçün əlverişli mühit, bərabər imkanlar yaradırdı və belə bir mühitdə xalqımızın əsl istedadları tez bir zamanda parlaya bilirdi.

Görkəmli alim özü də təşkilati işlə yanaşı, elmi fəaliyyətini davam etdirirdi. O, 1929-cu ildə namizədlik dissertasiyasını uğurla müdafiə edərək tibb elmləri namizədi elmi dərəcəsi almışdı. 1934-cü ilin avqustunda isə Almaniyada elmi ezamiyyətdə olmuş və həmin il "Eksperimental nefrit" mövzusunda doktorluq dissertasiyasını müdafiə etdikdən sonra ona tibb elmləri doktoru alimlik dərəcəsi verilmişdi.

**"O həm həkim, həm alim, həm də səhiyyə təşkilatçısı idi. O, dövlət xadimi, nazir, çətin illərdə Azərbaycanın rəhbərlərindən biri, XX əsrin ən ağır illərində Dağıstanın birinci rəhbəri idi. Moskvada, sonra isə Azərbaycanda məsul işdə çalışmışdı".**
**Heydər ƏLİYEV**



Əziz Əliyevin təbabətin müxtəlif sahələrinə dair 87 elmi əsəri vardı. ADTİ-nin rektoru olmaqla yanaşı, o, müəyyən dövrdə Əczaçılıq İnstitutuna da rəhbərlik etmiş, 1937-ci ildə isə eyni zamanda həm ATİ-nin, həm də Bakı Dövlət Universitetinin rektoru vəzifəsində çalışmışdır. Elə ağır, təlatümlü bir dövrdə bu iki mühüm vəzifəni eyni vaxtda yerinə yetirmək, fikrimizcə, Əziz Əliyevin təşkilatçı kimi mükəmməlliyindən, şəxsiyyətinə olan yüksək etimaddan irəli gəlirdi.

O dövr, konkret desək, 1930-1940-cı illərdə Azərbaycanda malyariya və traxoma xəstəlikləri tüğyan edirdi. Hər il minlərlə insan bu xəstəliklərdən həyatını itirir, yaxud ömürlük şikəst olurdu. Belə bir zamanda Əziz Əliyev fövqəladə antiepidemioloji respublika komissiyasına sədrliyi üzərinə götürmüşdü. Onun təşəbbüsü ilə kütləvi sayda xəstələrin müalicəsi üçün xüsusi dispanserlər, xəstəxanalar yaradılmışdı. Dəhşətli epidemiyanın əhatə dairəsinin getdikcə kiçilməsində və zamanla tam kökünün kəsilməsində, yüz minlərlə insanın həyatının xilasında onun böyük rolu oldu.

Fəal elmi fəaliyyəti nəzərə alınaraq Əziz Əliyev 1941-ci ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyətinin nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü, 1956-cı ildə isə professor vəzifəsinə seçilmişdi.

## Siyasi rəhbər

O, Azərbaycanın ictimai-siyasi həyatında da fəal şəkildə iştirak edirdi. 1937-ci ilin dekabrında Naxçıvan MSSR-in Culfa dairəsindən SSRİ Ali Sovetinin, 1938-ci ildə isə Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdi. 1937-1946-cı illərdə II çağırış SSRİ Ali Sovetinin, 1938-1946-cı illərdə I çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdu. 1941-1942-ci illərdə Azərbaycan KP MK-nın katibi vəzifəsində çalışımışdı.

1941-ci il avqust ayının 25-də sovet qoşunları İran ərazisində yerləşdirildikdən sonra Əziz Əliyevin üzərinə daha bir siyasi missiya düşür. Onun rəhbərliyi altında Azərbaycanın partiya, sovet, hüquq-mühafizə, təsərrüfat və mədəniyyət işçilərindən ibarət qrup yaradılır. Qrup İrandakı Sovet qoşunlarının qərargahına ezam olunur. Polkovnik-komissar Əziz Əliyev Təbrizdə yerləşmiş 47-ci ordunun Hərbi Şurasının üzvü kimi geniş səlahiyyətlər yerinə yetirir, ordu hissələri daxilində təbliğat-izahat işi aparanlar Əziz Əliyevin göstərişlərini rəhbər tuturlar. Əziz Əliyevin rəhbərlik etdiyi qrupun üzvləri Təbrizdə, Urmiyada, Ərdəbildə, Mərənddə, Zəncanda fəaliyyət göstərərək qarşıya qoyulmuş vəzifələri yerinə yetirirlər. Bu qrupda Süleyman Rüstəm, Osman Sarıvəlli, Ənvər Məmmədxanlı, İsrafil Nəzərov, Qulam Məmmədli, Mehdixan Vəkilov və başqa nüfuzlu ziyalılarımız vardı. Yerli əhali Əziz Əliyevə də, qrupun üzvü olan digər ziyalılarımıza da böyük rəğbətlə yanaşır, onları doğma bilirdi.

1942-ci ilin avqustuna yaxın faşist qoşunları Dağıstana yaxınlaşıb Bakını hədəf seçərkən SSRİ rəhbərliyi belə gərgin bir dövrdə Dağıstan Vilayət Partiya Komitəsinin birinci katibi və Mahaçqala Müdafiə Komitəsinin sədri vəzifəsinə ən etibarlı namizəd kimi Əziz Əliyevin üzərində dayanır. Əziz Əliyev bu vəzifələri yerinə yetirmək üçün İran cəbhəsindən Dağıstan cəbhəsinə göndərilir.

Misilsiz təşkilatçılıq qabiliyyətinə malik Əziz Əliyevin səyləri nəticəsində elə çətin və mürəkkəb bir şəraitdə qısa müddət ərzində regionun müdafiəsi üçün mühüm işlər görülür. Respublika ərazisində partizan dəstələri yaradılır, xalq müqavimət qrupları, qırıcı batalyonları təşkil edilir, Mahaçqalanın müdafiəsi üçün qurğular tikilir. Dağıstanın yerli millətlərinin nümayəndələrindən ibarət kadrların hazırlanması və onların irəli çəkilməsi istiqamətində addımlar atılır. "Komsomolets Daqestana" zirehli qatarının inşası, Kaspiysk zavodunun, Mahaçqala limanının, dəmir yolu şəbəkəsinin təmiri başa çatdırılır və bütün bunlar Zaqafqaziya cəbhəsinə verilir. Respublikada fəaliyyət göstərən on beşdən çox təxliyə hospitalının fasiləsiz fəaliyyəti təmin olunur.

Əziz Əliyevin rəhbərliyi ilə respublikada Müdafiə Fondu yaradılır, Dağıstandan cəbhəyə 150 vaqondan çox isti paltar, 140 vaqon hədiyyə göndərilir, təxminən 1 milyard rubl məbləğində pul yığılaraq ianə edilir.

Belə gərgin bir dövrdə mədəniyyət, elm, təhsil məsələləri də diqqətdən kənarda qalmır. Məhz Əziz Əliyevin təşəbbüsü əsasında 1943-cü ilin dekabrında Dağıstan Dövlət Filarmoniyası yaradılır. 1945-ci ildə SSRİ Elmlər Akademiyasının Dağıstan bazası təşkil edilir. Yerli qadınların təhsili, onlar arasından milli kadrların yetişdirilməsi üçün Əziz Əliyevin bilavasitə iştirakı ilə Qadın Müəllimlər İnstitutu və Qadın Pedaqoji Məktəbi yaradılır, Uşaq Kitab Nəşriyyatı açılır. Müharibə illərində dağıstanlıların göstərdikləri əmək rəşadətinə görə respublikaya ilk dəfə Dövlət Müdafiə Komitəsinin Keçici Qırmızı Bayrağı verilir.

Əziz Əliyev sonralar xatırlayırdı ki, müharibəyə qədər Dağıstanda cəmi 8 elmlər doktoru vardısa, müharibədən sonra onların sayı artıb 16 nəfər olmuş, elmlər namizədlərinin sayı isə 62 nəfərə çatmışdı. Onun rəhbərliyi ilə respublikanın ali məktəbləri 1600-dən çox alitəhsilli mütəxəssis hazırlamışdır. Əziz Əliyev paytaxtın ali məktəblərində təhsil almağa, eləcə də aspiranturaya və doktoranturaya Dağıstandan 100 nəfərdən çox adam göndərmişdi.

Əziz Əliyev müharibədən sonra 3 il də Dağıstana rəhbrlik etmiş və bu bölgənin inkişafına böyük töhfələr vermişdir. 1948-ci ilin dekabrında o, Moskvaya, Sov.İK(b)P MK-nın nəzdində İctimai Elmlər Akademiyasının nəzdindəki Ali Partiya Məktəbinə təhsil almağa göndərildi. 1949-1950-ci illərdə Moskvada ÜİK(b)P MK-nın inspektoru, 1950-1951-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifələrində çalışdı.

## Özünü doğruldan inam

SSRİ rəhbərliyinin Əziz Əliyevə etimadı çox böyük idi və o, tezliklə Azərbaycana rəhbər təyin olunmağa ən uyğun namizəd sayılırdı. Əfsuslar ki, repressiya cinayətlərinin əliqanlı cəlladlarından olan Mircəfər Bağırov öz hakimiyyətinə qarşı belə bir "potensial təhlükə"ni aradan qaldırmaq üçün əlaltıları ilə əl-ələ verib Əziz Əliyev kimi təmiz, vətənpərvər, parlaq bir şəxsiyyətə böhtan atdı. 1951-ci ilin sentyabrında Əziz Əliyevə Azərbaycan KP MK-nın bürosunda şiddətli töhmət verildi. Buna gülünc bir səbəb göstərilmişdi. Guya Əziz Əliyev valideynlərinin sosial mənşəyini və İranda qohumlarının olması faktını gizlədibmiş. Halbuki bu faktlar hamıya bəlli idi. Son dərəcə mürəkkəb dövrlərdə və regionlarda mühüm dövlət vəzifələri tutmuş, uzun illər ərzində SSRİ rəhbərliyi səviyyəsində etimad göstərilmiş, həyatı da, şəxsiyyəti də şəffaf Əziz Əliyev kimi ictimai-xadimin tərcümeyi-halının heç bir məqamı bu qədər böyük bir zamanda qaranlıq qala bilməzdi. Amma xainlər öz niyyətlərinə çatdılar, o, həmin ilin 24 iyulunda Nazirlər Soveti sədrinin müavini vəzifəsindən azad edilərək Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsinə göndərildi.

Mircəfər Bağırovun xain xisləti isə buna da qane olmadı. Hətta bu vəzifədə belə Əziz Əliyevi özünə təhlükə mənbəyi gördüyündən onu buradan da kənarlaşdırdı. Azərbaycan və ümumən SSRİ məkanında Əziz Əliyev kimi qurucu insanların hava və su kimi lazım olduğu vaxtda belə təcrübəli ictimai-siyasi xadim Sabunçu rayonundakı Çaparidze adına 3 nömrəli Klinik Xəstəxananın baş həkiminin müavini vəzifəsinə təyin edildi. 1952-ci ilin oktyabrından 1954-cü il martın 3-dək bu vəzifədə işlədi. Amma Əziz Əliyev o qədər bütöv şəxsiyyətə malik ziyalı idi ki, heç bir haqsızlıq onu ruhdan salmaq gücündə deyildi. O, haqqın nahaqqa qalib gələcəyinə, ədalətin öz yerini tutacağına qəlbən inanırdı. Ulu Öndər Heydər Əliyev Əziz Əliyevin 100 illik yubileyində böyük alimin, dövlət adamının ağır, məşəqqətli həyatının maraqlı məqamlarına da toxunmuşdu: "Onun həyatı heç də asan keçmirdi, maneələrlə, çətinliklərlə, özünə qarşı edilən bir çox haqsızlıqlarla rastlaşırdı. Əziz Əliyev mənə danışırdı ki, o, 1938-ci il repressiyasından möcüzə nəticəsində xilas olmuşdur. Onu sonralar, 50-ci illərin əvvəlində repressiya etdilər. İşdən çıxarıb Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru təyin etdilər, amma tezliklə bu vəzifədən də çıxartdılar. Professoru, elmlər doktorunu, bu qədər xidmətləri olan bir insanı Sabunçu xəstəxanasına adi həkim göndərdilər və o, üç il orada işlədi. Bu, onun ovaxtkı rejimin bilavasitə Mircəfər Bağırov tərəfindən həyata keçirdiyi repressiyalara məruz qaldığı dövr idi... Deməliyəm ki, mən özüm də bu repressiyadan əziyyət çəkmişəm... Ovaxtkı dövlət təhlükəsizliyi naziri general Yemelyanov məni yanına çağırıb bu sözləri dedi: "Sən cavan və bacarıqlı işçisən. Leninqradda çox yüksək təhsil alıbsan, təhsili uğurla başa çatdırıbsan, sənin gələcəyin var. Ancaq sən Əziz Əliyevin ailəsi ilə bütün əlaqələri kəsməlisən, yoxsa biz səni işdən çıxarmalı olacağıq". 1953-cü ilin əvvəllərində general Yemelyanov yenidən məni yanına çağırdı və qəti şəkildə xəbərdarlıq etdi: "Əgər sən öz əlaqələrini kəsməsən, onda nəzərə al ki, işdən çıxarılacaqsan, həm də nəinki işdən çıxarılacaqsan, eyni zamanda ciddi şəkildə cəzalandırılacaqsan". Artıq o vaxt bilirdim ki, hər şey ona doğru gedir ki, Əziz Əliyevi həbs etməli, onun ailəsini isə Mircəfər Bağırovun göstərişi ilə buradan sürgün etməli idilər. Amma Allah kömək etdi. 1953-cü ilin martında Stalin öldü, həmin ilin yayında isə Mircəfər Bağırovu əvvəlcə işdən çıxartdılar, sonra da həbs etdilər. Bütün bu müddətdə Əziz Əliyev Sabunçuda həkim işləyirdi və onu öz əvvəlki vəzifəsinə - Ortopediya və Bərpa Cərrahiyyəsi İnstitutunun direktoru vəzifəsinə yalnız 1954-cü ilin martında qaytardılar... Müttəhimlər kürsüsündə Mircəfər Bağırovla birlikdə həmin general Stepan Yemelyanov da əyləşmişdi, o Yemelyanov ki Əziz Əliyevlə əlaqə saxladığıma görə mənə iki dəfə xəbərdarlıq etmiş və məni danlamışdı. Ona 25 il həbs cəzası kəsdilər. Görün tale necə olur. Sonralar, 70-ci illərdə mən MK-nın birinci katibi işləyərkən Yemelyanov öz cəzasını çəkib Bakıya qayıtdı və mənə məktub yazaraq ona bəzi şəxsi işlərində kömək göstərməyi xahiş etdi. Həyat bax, belədir".

1953-cü ildə İ.V.Stalinin ölümündən və Mircəfər Bağırovun həbsindən sonra, 1954-cü il fevralın 22-də Əziz Əliyevlə bağlı şiddətli partiya töhməti ləğv edildi. O, 1954-cü ilin martından 1956-cı ilədək yenidən Bərpa Cərrahlığı və Ortopediya İnstitutunun direktoru vəzifəsində işlədi. Qısa müddətdə burada da böyük irəliləyişlərə nail oldu. 1956-cı ildə isə Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifəsinə təyin edildi və ömrünün sonuna qədər bu vəzifədə çalışaraq ölkəmizin tibb təhsili müəssisələri arasında xüsusi yeri olan bu institutun fəaliyyətinə mühüm töhfələr verdi.

## Milli yaddaşı möhkəmləndirən irs

Mircəfər Bağırovun şəxsi qısqanclıq hisslərindən irəli gələrək məqsədli şəkildə aparılan qaralama kampaniyasını nəzərə almasaq, Əziz Əliyevin fəaliyyəti hər zaman keçmiş ittifaq rəhbərliyi səviyyəsində yüksək qiymətləndirilmiş, o, iki dəfə "Lenin" ordeni, daha sonra "Qırmızı Əmək Bayrağı", "I dərəcəli Vətən müharibəsi" ordenləri, "Səhiyyə əlaçısı" döş nişanı, bir çox medal, o cümlədən 1948-ci ildə "Moskvanın yaranmasının 800 illik" xatirə medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilmişdi. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR Əməkdar həkimi" fəxri adı verilmişdi. Bütün bunlar təbii ki, Əziz Əliyev şəxsiyyətinə verilən dəyərdir.

Onun bəşəriyyət qarşısındakı ən mühüm xidmətlərindən biri isə öz dövrünün ən tanınmış ziyalılarının tez-tez qonaq olduqları ailə ocağında yetişdirib tərbiyələndirdiyi, böyüyüb yaşa dolduqca özləri də Əziz Əliyev misallı ziyalılıq örnəyinə çevrilmiş övladlarıdır. Bu ailə dünyaya görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanı bəxş edib. Əziz Əliyevin ailə ocağında Əməkdar elm xadimi, professor Tamerlan Əliyev kimi alim yetişib. Əziz müəllimin daha bir övladı, əməkdar incəsənət xadimi Gülarə xanım Əliyeva dünya musiqisinin, incəsənətinin inkişafına, təbliğinə mühüm töhfələr verib. Əziz Əliyevin qızlarından Ləzifə Əliyeva uzun illər ATU-nun Göz xəstəlikləri kafedrasında aparıcı dosent kimi gənc tibb kadrlarının yetişdirilməsində böyük xidmətlər göstərib. Dilbər xanım rabitəçi-mühəndis kimi ölkəmizdə bu sahənin inkişafında mühüm rol oynayıb.

Oğlu, məşhur cərrah-onkoloq, dünyanın bir çox ölkəsinin akademiyalarının, o cümlədən Rusiya Elmlər Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, keçmiş SSRİ Elmlər Akademiyasının Akademik N.N.Petrov adına mükafatına və diplomuna, eləcə də Azərbaycanın "Şöhrət" və "Şərəf", 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenlərinə layiq görülmüş akademik Cəmil Əliyev hazırda Azərbaycan Respublikasının Prezidenti yanında tibb xidmətinin rəisi vəzifəsini yerinə yetirməklə yanaşı, həm də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinə, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Onkologiya kafedrasına rəhbərlik edir.

Böyük alim Əziz Əliyevin nəvə və nəticələri bu gün onun yolunu ləyaqətlə davam etdirirlər. Onun adını daşıyan nəvəsi, akademik Cəmil Əliyevin oğlu tibb üzrə elmlər doktoru, professor Əziz Əliyev hazırda İ.M.Seçenov adına Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru vəzifəsində çalışır, səhiyyəmizin inkişafına yüksək töhfələr verir.

*2026-cı il yanvarın 1-də Əziz Əliyevin anadan olmasından 129 il ötür. Əziz Əliyev kimi insanlar üçün belə rəqəmlər şərti mahiyyət daşıyır, çünki onlar əbədiyyət ömürlü şəxsiyyətlərdir. Belə şəxsiyyətlər yalnız yaşadıqları dövrün ehtiyaclarına cavab vermir, eyni zamanda gələcək nəsillər üçün intellektual, əxlaq və peşəkar meyarlar formalaşdırırlar. Onların irsi zamanın sınağından keçərək milli yaddaşda möhkəmlənir, cəmiyyətin davamlı inkişafında dayaq nöqtəsinə çevrilir.*

***Əhliman ƏMİRASLANOV,***
***akademik, SSRİ Dövlət mükafatı laureatı***








# Milli irs və müasirliyin vəhdəti





**Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi dövlətin uzunmüddətli inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Bu qərar ölkəmizdə aparılan genişmiqyaslı quruculuq işlərinin, müasir şəhərsalma prinsiplərinə əsaslanan inkişaf modelinin və milli memarlıq irsinin qorunmasına verilən xüsusi dəyərin bariz ifadəsidir.**

Azərbaycanın tarixi memarlıq ənənələri minilliklər boyu formalaşaraq zəngin və çoxşaxəli bir irs yaradıb. Ən qədim memarlıq nümunələrinə malik olması xalqımızın yüksək mədəni inkişaf səviyyəsindən xəbər verir. Qobustan qayaüstü rəsmləri və ilkin yaşayış məskənləri, Naxçıvan və Qarabağ ərazilərində aşkar edilmiş qədim yaşayış yerləri, ibadət məkanları bu irsin əsas təzahürlərindəndir. Bu abidələrdə daşdan davamlı istifadə, məkan quruluşunun təbii landşaftla uzlaşdırılması və müdafiə məqsədli planlaşdırma qədim Azərbaycan memarlığının əsas xüsusiyyətlərindəndir. Həmin nümunələr sonrakı dövrlərdə yaranmış memarlıq məktəbləri üçün möhkəm bünövrə rolunu oynayıb. Şirvanşahlar Saray Kompleksi, Atəşgah, Qarabağ, Naxçıvan və Şəki memarlıq məktəbləri bu ənənələrin canlı nümunələrinə çevrilib.

Azərbaycan memarlığı əsrlər boyu Şərq və Qərb mədəniyyətlərinin sintezini özündə əks etdirərək milli kimliyimizin formalaşmasında mühüm rol oynayıb. İçərişəhərdən tutmuş Şəki Xan Sarayına, Qarabağ memarlıq məktəbindən Bakı modernizminə qədər zəngin irs bu gün də milli kimliyimizin ayrılmaz hissəsidir. Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında" sərəncamında bildirildiyi kimi, Azərbaycanda şəhərsalma və memarlıq ənənələrinin çoxəsrlik zəngin bir keçmişi vardır. İpək yolu üzərində yerləşən və mühüm ticarət, sənətkarlıq, mədəniyyət mərkəzləri kimi Şərq ölkələri ilə sıx iqtisadi, siyasi və mədəni əlaqələr quran iri şəhərlərimizin özünəməxsus simasının formalaşmasında qiymətli memarlıq abidələri müstəsna rol oynamışdır.

Yerli təbii materiallardan - daş, kərpic və ağacdan məharətlə istifadə, ornamentlərin incəliyi, naxışların ahəngi Azərbaycan memarlığının əsas səciyyəvi cəhətlərindəndir. Bu irs yalnız estetik gözəllik deyil, həm də xalqın dünyagörüşünü, həyat tərzini və milli kimliyini əks etdirən mühüm mədəni yaddaşdır və müasir şəhərsalma proseslərində də həm nümunə, həm də ilham mənbəyi kimi çıxış edir. Dövlət başçısının sözügedən sərəncamında vurğulandığı kimi, Azərbaycan şəhərsalma və memarlıq sənətinin bariz nümunələri olub. Daim yüksək inkişaf səviyyəsinə görə seçilən tarixi şəhərlərimiz ötən dövrlərin memarlıq tendensiyalarına uyğun böyüyüb genişlənməklə bərabər, yerli mədəniyyətin əsas xüsusiyyətlərini qoruyub saxlamışdır. Ötən əsrin sonlarında Azərbaycan dövlət müstəqilliyinə qovuşdu. Sənəddə qeyd olunduğu kimi, ötən müddətdə dövrün qabaqcıl yanaşmalarını və milli təcrübələri əks etdirən layihələrin gerçəkləşdirilməsi sayəsində şəhərsalma sənətinin yüksək mənəvi-estetik təsir gücünə malik orijinal nümunələri yaradıldı: "Mövcud möhtəşəm binalar sırasına daimi yeniləşmə rəmzi olan Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal memarlıq abidələrinin və Ağ Şəhər kompleksinin əlavə edilməsi ilə paytaxtın mənzərəsi daha da zənginləşmiş, regionların memarlıq siması xeyli dəyişərək yeni şəkil almışdır".

Lakin respublikamız müstəqilliyini bərpa etdikdən sonra keçdiyi çətin sınaqlar əksər sahələr kimi, şəhərsalma və memarlıqda da dərin və dəhşətli izlər qoydu. Qarabağ və Şərqi Zəngəzur əraziləri Ermənistan tərəfindən münaqişə ocağına, müharibə meydanına çevrildi. Həmin bölgələrimiz 30 ilə yaxın Ermənistanın işğalı altında qaldı. Erməni vandalları istər tarixi, istərsə də müasir tikililəri uçurub dağıtdılar. Azərbaycanın dünya və ölkə əhəmiyyətli abidələrini, nadir memarlıq nümunələrini yerlə yeksan etdilər.

2020-ci ildə Vətən müharibəsi və 2023-cü ildə antiterror əməliyyatında qazandığımız möhtəşəm qələbələr nəticəsində ədalət bərpa edildi. Azərbaycan tam suverenliyinə nail oldu. İşğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda Vətən müharibəsindən qısa müddət sonra genişmiqyaslı tikinti, quruculuq işlərinə başlanıldı. Ermənistanın onilliklər boyu xarabalığa çevirdiyi həmin ərazilərimiz "Böyük qayıdış" proqramı çərçivəsində görülən işlər sayəsində dirçəlir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi Azərbaycanın həm də gələcəyə baxışını nümayiş etdirir. Həmin ərazilərdə yenidən qurulan şəhər və kəndlər müasir urbanistika nümunəsi olmaqla yanaşı, milli memarlıq elementlərini də özündə birləşdirir. Burada həyata keçirilən layihələr yalnız infrastrukturun bərpası deyil, həm də sosial həyatın yenidən qurulması, keçmiş məcburi köçkünlərin doğma yurdlarına layiqli şəkildə qayıdışının təmin olunması məqsədi daşıyır. Şəhərsalma və memarlıq sahəsində əldə edilən bu təcrübə ölkənin digər bölgələri üçün də model rolunu oynayır.

Müasir dövrdə şəhərsalma təkcə binaların inşası deyil, insan üçün rahat, təhlükəsiz, ekoloji cəhətdən dayanıqlı yaşayış mühitinin yaradılması deməkdir. Yeni konsepsiya yaşıl zonaların genişləndirilməsini, nəqliyyat infrastrukturunun optimallaşdırılmasını, enerjiyə qənaət edən texnologiyaların tətbiqini və rəqəmsal şəhər modellərinin qurulmasını nəzərdə tutur.

Son illər Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar fonunda şəhərsalma və memarlıq sahəsi prioritet istiqamətlərdən birinə çevrilib. Paytaxt Bakı ilə yanaşı, regionlarda aparılan abadlıq-quruculuq işləri, yeni yaşayış massivlərinin salınması, infrastruktur layihələrinin icrası ölkənin ümumi inkişaf mənzərəsini köklü şəkildə dəyişib. Söz yox ki, "Şəhərsalma və Memarlıq İli" bu proseslərin sistemli davam etdirilməsinə yeni təkan verəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*







## *Azərbaycan XİN:* "Tayvanın müstəqilliyini tanımırıq"

"Bölgədə sülhün və sabitliyin qorunması beynəlxalq təhlükəsizlik üçün vacib amildir. Azərbaycanın vahid Çin siyasəti ilə bağlı mövqeyi dəyişməz, aydın və ardıcıl xarakter daşıyır. Ölkəmiz Tayvanın müstəqilliyini tanımır".




AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadənin Tayvan ətrafında yaranmış vəziyyət ilə bağlı medianın sualına cavabında əksini tapır.

A.Hacızadənin şərhində həmçinin bildirilib: "Mübahisəli məsələlərin beynəlxalq hüquq çərçivəsində, xüsusilə suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında, sülh yolu ilə nizamlanmasını dəstəkləyirik".

# 2026-cı il "Şəhərsalma və Memarlıq İli"dir

## Bu, sosial rifahın yüksəldilməsini və dayanıqlı gələcəyin təmin olunmasını şərtləndirəcək

Mədəniyyət, eləcə də mədəni irsimizin qorunması, mühafizəsi, inkişafı Ümummilli Lider Heydər Əliyevin ən önəm verdiyi, yüksək peşəkarlıq və siyasi iradə ilə yürütdüyü daxili siyasətinin bir parçası olub və bu ənənə Prezident İlham Əliyev tərəfindən ardıcıl olaraq davam etdirilir.

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, xalqımızın yaratdığı irs nümunələrini, zəngin tariximizi qoruyub saxlamaq və gələcək nəsillərə ötürmək çox məsuliyyətli iş olmaqla yanaşı, multidissiplinar yanaşmanı tələb edir. Bu işə hər kəs həssas yanaşmalı, istər dövlət, özəl qurumlar, istərsə də ümumi əhali buna səfərbər olmalıdır. İrsimizi qorumaq və yaşatmaq hər bir vətəndaşın ümdə vəzifəsinə çevrilməlidir. "Bu gün Azərbaycan xalqının yaratdığı, zaman-zaman daha da inkişaf etdirdiyi 4 mədəni irs nümunəsi - Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə İçərişəhər, Qobustan Qaya Sənəti Mədəni Landşaftı və Şəki Xan Sarayı ilə birlikdə Şəkinin tarixi mərkəzi, Xınalıq və Köç yolu landşaftı və Hirkan meşələri UNESCO-nun Ümumdünya İrsi Siyahısına daxil edilib. Bundan başqa, 7 tarixi və 3 təbiət abidəmiz də UNESCO-nun İlkin İrs Siyahısındadır", - deyə o bildirib.

Deputat qeyd edib ki, tarixi, dini və memarlıq abidələrimizin qorunması, bərpası və saxlanılması Azərbaycanın dövlət siyasətinin mərkəzində dayanır: "Azərbaycan öz suverenliyini tam bərpa edib, hazırda isə regionun əsl və tarixi simasını geri qaytarmaq və keçmiş ruhunu dirçəltmək üçün tammiqyaslı yenidənqurma və bərpa işləri aparılır. Füsunkar və əzəmətli Şuşa saysız-hesabsız mədəni tədbirlərə səhnə olub. Mədəniyyətin beşiyi olan Qarabağ tarixi sahiblərinə qovuşub. XII əsrin



böyük Azərbaycan memarı və filosofu Memar Əcəminin dediyi kimi: "Biz gedərik, ancaq qalar ruzigar, biz ölərik əsər qalar yadigar".

Pərvanə Vəliyeva Prezident İlham Əliyevin birbaşa nəzarəti altında "Böyük qayıdış" proqramı çərçivəsində həm infrastruktur, həm də sosial və ekoloji layihələrin həyata keçirildiyini deyib. Onun sözlərinə görə, Azərbaycan bu torpaqlarda ekoloji ədaləti bərpa etməyə və regionu "yaşıl inkişaf" mərkəzinə çevirməyə nail olub. Yəni Azərbaycan təkcə itirilmiş torpaqlarını deyil, həm də itirilmiş ekoloji dəyərlərini bərpa edir. "Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2026-cı il "Şəhərsalma və Memarlıq İli" elan olunub. Bu sərəncam ölkəmizin daxili və xarici siyasətdə növbəti il üçün prioritet mövzusunu da özündə əks etdirir. Bu, həm də "Azərbaycan 2030: Sosial-iqtisadi İnkişaf üzrə Milli Prioritetlər" strategiyasına uyğun olaraq ölkəmizə urbanizasiya, ekoloji təhlükəsizlik və davamlı inkişaf sahələrində beynəlxalq əlaqələrini gücləndirmək və qlobal proseslərə təsir etmək üçün yeni imkanlar açır", - deyə o əlavə edib.

Deputat vurğulayıb ki, Azərbaycan, xüsusilə Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən "ağıllı şəhər", "ağıllı kənd", "yaşıl enerji" zonası kimi layihələri ilə dayanıqlı inkişaf gündəliyində qlobal liderliyə iddialıdır: "İşğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri şəhərsalma və memarlığın dövlət siyasətində prioritet istiqamət olduğunu bir daha təsdiqləyir. Şuşanın tarixi simasının bərpası milli iradənin, müasir yanaşmanın və tarixi məsuliyyətin vəhdətidir. Ölkəmiz növbəti il BMT-nin daha bir mötəbər tədbiri olan "Dünya Şəhərsalma Forumu"nun 13-cü sessiyasına evsahibliyi edəcək. Beynəlxalq tədbirlərə evsahibliyi Azərbaycanın xarici siyasətdə artan imicinə müsbət təsir göstərməklə yanaşı, diplomatik əlaqələrin də yeni formatda inkişafına imkan yaradır və beynəlxalq platformalarda mövqeyimizi daha da gücləndirir".

P.Vəliyeva qeyd edib ki, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Azərbaycanın milli inkişaf strategiyasının, qlobal məsuliyyətinin və gələcəyə yönəlmiş baxışının ifadəsidir: "Bu addım ölkəmizin dayanıqlı şəhərsalma, ekoloji tarazlıq, innovativ planlaşdırma və mədəni irsin qorunması sahələrində əldə etdiyi təcrübəni beynəlxalq müstəviyə çıxarmaq üçün mühüm platforma yaradır. "Dünya Şəhərsalma Forumu"nun Bakıda keçirilməsi isə Azərbaycanın qlobal urbanizasiya gündəliyinin formalaşmasında artıq fəal iştirakçı və etibarlı tərəfdaş kimi çıxış etdiyini təsdiqləyir. Tarixi irsə söykənən, müasir çağırışlara cavab verən və gələcək nəsilləri hədəfləyən bu yanaşma göstərir ki, Azərbaycan üçün şəhərsalma və memarlıq, sadəcə, məkan quruculuğu deyil, milli kimliyin qorunması, sosial rifahın yüksəldilməsi və dayanıqlı gələcəyin təmin olunmasıdır".

***Əsmər QARDAŞXANOVA, "Azərbaycan"***

# AZƏRTAC-ın 2025-ci ilin yekunlarına dair hesabat iclası keçirilib

Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) 2025-ci ilin yekunlarına həsr olunmuş geniş hesabat iclası keçirilib. İclasda agentliyin il ərzindəki fəaliyyəti təhlil olunub, qazanılan nailiyyətlər və qarşıda duran vəzifələr müzakirə edilib.



Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad olunub.

İclasda hesabat məruzəsi ilə çıxış edən AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev bildirib ki, Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycan mediasının inkişafına qayğı ilə yanaşıb, AZƏRTAC-ın milli dövlətçilik maraqlarının qorunmasındakı rolunu yüksək qiymətləndirib. Ulu Öndərin əsasını qoyduğu bu strateji xətt Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və müasir dövrün tələblərinə uyğun icra olunur.

Hesabat məruzəsində qeyd edilib ki, Azərbaycanın beynəlxalq arenada artan nüfuzu və regionun lider dövlətinə çevrilməsi ölkə mediasının, o cümlədən AZƏRTAC-ın üzərinə daha böyük məsuliyyət qoyur. Xüsusilə ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin, işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti-quruculuq işlərinin, "Böyük qayıdış" proqramı çərçivəsində reallaşdırılan köç prosesinin operativ və dolğun işıqlandırılması AZƏRTAC-ın 2025-ci ildəki fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edib.

İdarə Heyətinin sədri agentliyin 2025-ci ildəki fəaliyyətindən danışarkən bildirib ki, hesabat ili AZƏRTAC üçün həm texnoloji yenilənmə, həm də beynəlxalq informasiya məkanında nüfuzun möhkəmləndirilməsi baxımından uğurlu olub. Sədr Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında operativliyin artırıldığını, rəqəmsallaşmaya xüsusi önəm verildiyini vurğulayıb.

Sonra Texniki İdarənin müdiri - İdarə Heyətinin üzvü Fuad Qədilli, Maliyyə və Uçot Departamentinin baş mühasibi İlham Abdullazadə və agentliyin Həmkarlar İttifaqının sədri Arzu Muradova görülən işlər barədə hesabat veriblər.

Daha sonra İdarə Heyəti sədrinin müavinləri Dağbəyi İsmayılov və Sevinc Abdullayeva çıxış edərək, AZƏRTAC-ın hesabat ilindəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.

İdarə Heyətinin sədri gələcək hədəflərdən danışıb, müvafiq tapşırıqlar verib.

Hesabat iclasında agentliyin bir sıra əməkdaşına "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalları təqdim olunub.

# Türkiyə-Azərbaycan ticarət dövriyyəsi 15 milyard dollara çata bilər

"Türkiyə ilə Azərbaycan arasında ticarət əlaqələrinin, həmçinin idxal və ixrac əməliyyatlarının həcminin atırılmasında iş adamlarının və biznes qurumlarının böyük rolu var. Bu əlaqələr hər iki dövlətin iqtisadi inkişafına təkan verir və qlobal dünyada mövqelərini möhkəmləndirir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin Kırıkkale Universitetinin professoru Merve Suna deyib. O bildirib ki, Türkiyə ilə Azərbaycan arasındakı ticarət dövriyyəsinin 15 milyard dollara çatdırılması mümkündür. Bunum üçün hər iki dövlətin böyük iqtisadi potensialı var. Türkiyənin böyük sənaye imkanları, Azərbaycanın isə karbohidrogen ehtiyatları əməkdaşlıq əlaqələrinin dayanıqlı və səmərəli olmasını təmin edən faktorlardır.

"Digər tərəfdən Azərbaycanın təklif etdiyi və ABŞ kimi qlobal gücün dəstəklədiyi Zəngəzur dəhlizi layihəsi idxal-ixrac əməliyyatlarının həcmini artırmaq üçün geniş imkanlar yaradır. İqtisadi inkişafa nail olunması üçün nəqliyyat əlaqələri mühüm rol oynayır, dəhliz təkcə Azərbaycan ilə Türkiyəni deyil, eyni zamanda Avropa və Asiyanı birləşdirən bir layihədir", - deyən ekspert nəzərə çatdırıb ki, ABŞ-nin bu dəhlizə maraq göstərməsi regiona investisiya axınının təmin olunmasını şərtləndirir. Bu fürsətdən istifadə edən şirkətlər dəmir yolu kimi daha ucuz və daha çox daşıma imkanı olan nəqliyyat vasitəsindən istifadə edərək idxal və ixrac əməliyyatlarını həyata keçirə bilərlər. Dəhliz yeni şirkətlərin və xidmətlərin yaranmasına da şərait yaradacaq ki, bu da iqtisadi dövriyyənin artmasına səbəb olacaq.

Ekspert qeyd edib ki, sərmayə yatırımı yeni istehsal müəssisələrinin yaranmasına və ixrac potensialının artmasına gətirib çıxaracaq. Türkiyənin sənaye, kənd təsərrüfatı sahələrində böyük ixrac imkanları var. Azərbaycan isə iqtisadi diversifikasiya keçirərək qeyri-neft sektorunu inkişaf etdirib ixrac imkanlarını artıra bilər.

"Bu gün Azərbaycan Qarabağı azad etməklə daha çox iqtisadi üstünlüklər qazanıb. Bu regionda birgə müəssisələr, biznes strukturları qurub rəqabətədavamlı məhsul istehsal edərək ticarət dövriyyəsini artırmaq mümkündür", - deyən professor nəzərə çatdırıb ki, iqtisadi əlaqələrin inkişafı hər iki dövlətə siyasi üstünlüklər də qazandırır.

# Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə şəhidlərimizin ailələri ziyarət edilib





31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin təmin olunması, torpaqlarımızın işğaldan azad edilməsi və xidməti vəzifələrinin icrası zamanı şəhid olmuş sərhədçilərin ailələri ziyarət edilib.

Dövlət Sərhəd Xidmətinin Mətbuat mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, görüşlər zamanı şəhid ailələrinin sosial təminat məsələlərinin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğu xüsusi vurğulanıb, onların rifah halının yaxşılaşdırılması üçün ardıcıl və məqsədyönlü tədbirlərin görüldüyü qeyd olunub. Şəhid ailələri göstərilən diqqətə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə edib, dövlətimiz tərəfindən şəhidlərimizin xatirəsinin daim uca tutulmasından qürur duyduqlarını bildiriblər.

# Qarabağda bayram ovqatı yaşanır











## Xankəndi

Dekabrın 29-da Xankəndi şəhərində Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram konserti təşkil olunub.

AZƏRTAC xəbər verir ki, şəhərin Zəfər meydanında "Qış nağılı" yarmarkası günlərində baş tutan bayram konserti Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin dəstəyi, Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə keçirilib.

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konsertdə tanınmış ifaçılar və musiqiçilər çıxış ediblər. Səslənən ifalar şəhər sakinlərinə və qonaqlara yüksək bayram ovqatı bəxş edib, böyük coşqu və alqışlarla qarşılanıb. Konsert proqramının ardınca atəşfəşanlıq olub.

Qeyd edək ki, tədbirin keçirilməsində məqsəd Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü və Yeni ili birlik, həmrəylik və bayram ruhu ilə qeyd etmək, eyni zamanda Xankəndi şəhərində ictimai-mədəni həyatın canlandırılmasına töhfə verməkdir.

## Kəlbəcər

Kəlbəcər işğaldan azad edildikdən sonra ilk dəfə olaraq rayonda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram tədbiri keçirilib.

Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyi və Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin birgə təşkilatçılığı ilə baş tutan tədbir rayon ərazisində yaşayan ailələr və uşaqlar üçün bayram əhvali-ruhiyyəsinin yaradılmasına, həmrəyliyin və birlik hissinin gücləndirilməsinə xidmət edib.

Tədbir çərçivəsində şəhərin birinci yaşayış məhəlləsində Yeni il ağacı bəzədilib, Şaxta baba və Qar qız uşaqlara hədiyyələr təqdim ediblər. Musiqi sədaları altında davam edən bayram şənliyində uşaqlar böyük sevinc yaşayıblar. Tədbirdə iştirak edə bilməyən uşaqlar isə Şaxta baba tərəfindən evlərində ziyarət olunub, onlara bayram hədiyyələri çatdırılıb. Şənlik Kəlbəcərdə bərpa və yenidənqurma prosesləri fonunda sakinlər üçün unudulmaz bayram ab-havası yaradaraq, sakinlərin sosial həyatına xüsusi rəng qatıb.

## Cəbrayıl və Zəngilan

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Cəbrayıl şəhərində və Zəngilan rayonunun Ağalı kəndində sərgi-satış yarmarkası keçirilib. Yarmarka Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəliyinin dəstəyi, Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə ərsəyə gəlib.

Cəbrayıl şəhər meydanında və Zəngilanın Ağalı kənd parkında keçirilən yarmarkalarda Cəbrayıl və Zəngilan sakinləri iştirak ediblər. Burada yerli sakinlər tərəfindən hazırlanmış orqanik qidalar, kənd təsərrüfatı məhsulları, əl işləri təqdim olunub.

Yeni il musiqilərinin fonunda əylənən ziyarətçilər üçün soyuq qış havasında isti içkilər və qidalardan dadmaq imkanı yaradılıb. Sakinlər yarmarkanın müxtəlif hissələrində qurulmuş köşklərdə özlərinin hazırladıqları məhsulları satmaq imkanı da əldə ediblər. Ləziz təamların satışı ilə yanaşı, əl işləri və suvenirlərə də böyük maraq olub.

Yüksək əhvali-ruhiyyə ilə keçən yarmarkalar uşaqların sevdikləri rəngarəng nağıl personajları, canlı şoular və musiqili proqramlarla tamamlanıb.

## Laçın

Laçın rayonunda 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə bayram tədbiri keçirilib.

Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətindən verilən məlumata görə, Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi, Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti və "Laçın Abadlıq Xidməti" ASC-nin birgə təşkilatçılığı ilə "Qış möcüzəsi - Laçın 2026" adlı silsilə bayram proqramı təşkil olunub. Həkəri bulvarında müxtəlif yaş qruplarını əhatə edən zəngin mədəni və əyləncəli proqramlar təqdim edilib. Tədbir çərçivəsində fəaliyyət göstərən "Qış nağılı" yarmarkasında yerli istehsal məhsulları və müxtəlif əl işləri sakinlərə və şəhərin qonaqlarına təqdim olunub.

Gün ərzində uşaqlar üçün animasiya şouları təşkil edilib. Şaxta baba, Qar qız və nağıl personajlarının iştirakı ilə keçirilən faceart, şar şou və DJ-şou balaca iştirakçıların böyük sevincinə səbəb olub.

Tədbirlər çərçivsində "Klassik vokal gecəsi" keçirilib. "Lacinema" kinoteatrında təşkil edilən konsert proqramında istedadlı vokalçılar - Azərbaycan Respublikasının Əməkdar artistləri Fəridə Məmmədova (soprano), İlham Nəzərov (kontratenor/bariton), Sevda Rəhimova (bəstəkar, piano) və Ərtoğrul Balayev (piano) çıxış ediblər. Gecədə Üzeyir bəy Hacıbəyli, Hugo Volf, Henri Duparc, Franz Lehar, Sevda Rəhimova, Səid Rüstəmov və digər görkəmli bəstəkarların əsərləri, həmçinin "Laçın" xalq mahnısı səsləndirilib.

Bayram tədbirləri atəşfəşanlıqla başa çatıb.




# Gücümüz həmrəyliyimizdir

**Mingəçevirdə şəhər icra hakimiyyətinin və YAP şəhər təşkilatının birgə təşkilatçılığı ilə "Heydər Əliyev - Azərbaycanda Həmrəylik Gününü yaradan tarixi şəxsiyyətdir" mövzusunda "dəyirmi masa" keçirilib.**





Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarətlə başlayan tədbir Həmrəylik Günü ilə bağlı çəkilmiş sənədli filmin nümayişi ilə davam edib. Geniş məruzə ilə çıxış edən ŞİH-in başçısı İlham İsmayılov XX əsrin sonlarında Azərbaycanda mövcud olan xaos və anarxiyanın qarşısını qətiyyətlə alan Heydər Əliyevin dövlətçiliyimizi qorumaq naminə gördüyü işlərdən danışıb. Dünya azərbaycanlılarının həmrəyliyini təmin etmək, milli birliyimizi bərqərar etmək, xalqın həyat tərzini yaxşılaşdırmaq, güclü dövlət qurmaq və müstəqilliyimizi qorumaq, ordu quruculuğu, reallıqları, dövlətimizin haqq işini dünyaya tanıtmaq və bu kimi mühüm hadisələri həyata keçirməklə xalq sevgisi qazanan Ulu Öndərin fəaliyyətindən maraqlı faktları diqqətə çatdırıb. Bu siyasəti uğurla davam etdirən güclü lider, qalib Azərbaycanın Prezidenti İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə olunan Zəfərin qürur tariximiz olduğunu vurğulayan natiq hər kəsi dövlət başçısının ətrafında sıx birləşməyə çağırıb.

YAP şəhər təşkilatının sədri Bəxtiyar Mustafayev dünya azərbaycanlılarının birliyindən, diaspor təşkilatlarının fəaliyyətindən danışıb. Partiya veteranlarından Mirzə Cavadov, həmçinin partiya üzvləri Pərvanə Tahirova, Yasin Cavadov, Mənsur Həsənov çıxışlarında bayramla əlaqədar fikirlərini bölüşərək təbriklərini çatdırıblar.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# Ağdərənin Həsənriz kəndində torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün müraciətlərin qəbuluna başlanılır

Dekabrın 30-dan başlayaraq Ağdərə rayonunun Həsənriz kəndi üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) - eagro.az saytı vasitəsilə müraciətlərin qəbuluna başlanılır. Həsənriz kəndində məskunlaşan və yaşayan sakinlərdən müraciətlərin qəbulu prosesi 2026-cı ilin fevral ayının 2-si, günün sonunadək davam edəcək.




Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, Həsənriz kəndi üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli fərmanının 4.1-ci bəndi və Nazirlər Kabinetinin 2024-cü il 26 dekabr tarixli qərarı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na əsasən həyata keçiriləcək. Sahələr minimum 5 hektar təşkil etməklə dəmyə (suvarılmayan) ərazilər olub, əkin üçün uyğun kənd ətrafında yerləşən torpaqlardır. Bu kəndlərdə dəmyə ərazilər üçün xarakterik olan buğda, arpa, noxud, kartof, yem bitkilərindən olan yonca, xaşa, müxtəlif ot qarışıqlarının əkilməsi nəzərdə tutulur. Su təminatı mümkün olan sahələrdə çoxillik bitkilərdən qoz, fındıq, şabalıd, armud, gilas və bəzi giləmeyvələr yetişdirilə bilər.

Həsənriz kəndinə köçən sakinlər aşağıdakı ardıcıllıqla torpaqlarda güzəştli qaydada əkinlərin aparılması məqsədilə istifadəsi üçün müraciət edə bilərlər:

- EKTİS-də qeydiyyatdan keçmək (avtomatlaşdırılmış qaydada fermer elektron kabinetinə sahib olmaq).
- Elektron kabinet "Müraciətlərim" bölməsində "torpaq icarəsinə müraciət" - "Həsənriz" seçməklə ərizə formasını doldurmaq.
- Şəxsiyyət vəsiqəsi üzrə qeydiyyat yerindən asılı olmayaraq, faktiki yaşayış yerinin Həsənriz kəndinin olduğunu Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin "e-polis" tətbiqində qeyd etmək.

Qeyd edək ki, müraciət edən şəxslərlə təlimlərin keçirilməsi, müqavilələrin imzalanması və ərazilərin yerində tanıdılması 2026-cı ilin fevral ayından etibarən həyata keçiriləcək. İcarə müqavilələrinin müddəti birillik bitkilər və yem bitkiləri üçün 2 il təşkil edəcək və istifadə nəticələrinə müvafiq olaraq uzadılacaq.

# Dünyanı birləşdirən bayram

## Yeni ilin köhnə adətləri







Elə bayramlar var ki, coğrafiya, dil, din və mədəniyyət fərqlərindən asılı olmayaraq, hər kəsin qəlbində eyni hissləri oyadır. Yeni il də məhz belə bəşəri bayramlardan biridir. Yaşından, sosial statusundan asılı olmayaraq, insanlar yeni il gecəsini ümidlə, inamla və nikbinliklə qarşılayırlar.

Tarixi mənbələrə və fərziyyələrə görə, Yeni il ilk dəfə qədim Çində qeyd olunmağa başlayıb. Zaman keçdikcə bu ənənə qitələri aşaraq müxtəlif xalqların həyat tərzinə, inanclarına və folkloruna daxil olub.

Yeni ilin gəlişi təkcə təqvim dəyişikliyi deyil, həm də köhnə ili geridə qoymaq, arzulara yenidən yol açmaq, uğursuzluqları keçmişdə buraxmaq niyyətidir. Məhz buna görə də dünyanın hər yerində insanlar bu gecəyə xüsusi rituallar, inanclar və simvollarla hazırlaşırlar. Bayram süfrələrindən tutmuş geyim rənglərinə, evlərin bəzədilməsindən küçə mərasimlərinə qədər hər detalın özünəməxsus mənası var. Bu baxımdan Yeni il planetin ən rəngarəng və maraqlı bayramlarından biri hesab olunur.

Yeni il deyildikdə ilk ağla gələn simvollardan biri, şübhəsiz ki, Şaxta babadır. Uşaqların sevimlisi olan bu obraz dünyanın müxtəlif ölkələrində fərqli adlarla tanınır. Türkiyədə Noel baba, ABŞ, İngiltərə və Avstraliyada Santa Klaus, Fransada Le Pere Noel, İspaniya və Meksikada Papa Noel, Hollandiyada Sinte-Klaas, Rumıniyada Moş Carile, Yunanıstanda Müqəddəs Vasili adlanan bu obraz mahiyyət etibarilə özündə eyni ideyanı - xeyirxahlıq, bolluq və sevinci birləşdirir.

Şaxta babanın vətəni kimi qəbul edilən Finlandiyanın Laplandiya bölgəsi Yeni il ərəfəsində xüsusi canlanma yaşayır. Rovaniemi şəhəri yaxınlığında yerləşən məşhur "Santa-Klaus kəndi" minlərlə turistin ziyarət etdiyi məkana çevrilir. Burada Santanın evi, maral qoşqusu, qonaqları qarşılayan cırtdanlar və bayram ovqatı insanı nağıl dünyasına aparır.

Yeni ilin digər əsas rəmzi isə bəzədilmiş şam ağacıdır. Həyatın davamlılığını və yenidən doğuluşu simvolizə edən "yolka" qədim dövrlərdən müqəddəs ağac kimi qəbul edilib. Əvvəllər yalnız təbii ağaclardan istifadə olunsa da, sonralar ekoloji səbəblərdən süni şam ağacları geniş yayılıb. Al-əlvan işıqlar, parlaq oyuncaqlar və ulduzlarla bəzədilən bu ağac bu gün demək olar ki, bütün dünyada Yeni ilin ayrılmaz atributudur.

Yer kürəsinin müxtəlif saat qurşaqlarına bölünməsi səbəbindən Yeni il hər yerdə eyni anda qarşılanmır. 2025-ci ilə ilk qədəm qoyanlar Sakit okeanda yerləşən Tonqa və Kiribati adalarının sakinləri olacaqlar. Bu ərazilərdə Yeni il Bakı vaxtı ilə səhər saat 10-da başlayır. Ən gec isə ABŞ-nin Baker və Hauland adalarında Yeni il yanvarın 1-i saat 16-da qeyd olunacaq. Beləliklə, Yeni il sanki planet üzrə bir sutkalıq bayram yürüşü edir.

Yeni ili qarşılamaq hər xalqda fərqli rituallar və inanclarla müşayiət olunur. Bir çox ölkədə süfrədəki yeməklərin, əyindəki geyimlərin və edilən hərəkətlərin gələn ilin taleyinə təsir göstərəcəyinə inanılır. Məsələn, Danimarkada insanlar köhnə boşqabları yaxınlarının qapısına atır, stuldan tullanaraq pis ruhları qovduqlarına inanırlar. Finlandiyada əridilmiş metal suya tökülür və alınan fiqura baxaraq gələcək il haqqında proqnoz verilir. Panamada köhnə ili simvolizə edən kuklalar tonqalda yandırılır. İngiltərədə isə "ilk qonaq" inancları xüsusi əhəmiyyət daşıyır. Kürən kişinin evə birinci daxil olması uğur əlaməti hesab olunur. İtaliyada köhnə əşyaların pəncərədən atılması ilə insanın keçmiş yükdən azad olduğu düşünülür. Urbaniya şəhərində keçirilən Bafana festivalında böyüklər cadugər geyimində uşaqlara hədiyyələr paylayırlar. Türklər isə Yeni il gecəsi qapının ağzında nar sındıraraq bolluq və ruzi arzulayırlar. Qırmızı rəngli geyimlər Türkiyədə uğur və sevinc rəmzi sayılır. İspaniyada gecə saat 12-də 12 üzüm dənəsi yemək ənənəsi var. Hər üzüm ilin bir ayını simvolizə edir və ispanlar inanırlar ki, üzümü vaxtında və ardıcıl yeyən insanı uğurlu il gözləyir. Böyük şəhərlərdə isə insanlar bu mərasimi birlikdə yerinə yetirmək üçün mərkəzi meydanlara toplaşırlar.

Asiya ölkələrində Yeni il daha çox mənəvi təmizlənmə ilə əlaqələndirilir. Yaponiyada məbədlərdə 108 dəfə zəng çalınır, Kadomaçu ağacı evlərin qarşısına qoyulur, insanlar yeni ilin ilk dəqiqələrində gülərək uğuru dəvət edirlər. Çində isə ailə birliyi əsas şərt sayılır, evlər çiçəklərlə bəzədilir, hədiyyələr verilir.

Latın Amerikası ölkələrində bu bayram daha rəngarəng və qeyri-adi adətlərlə müşayiət olunur. Braziliyada atəş səsləri, okean sahilində şamlar və dualar, Kolumbiyada boş çamadanlarla gəzinti, Kubada pəncərələrdən su tökmək, Argentinada köhnə sənədlərin küçələrə atılması yeni il gecəsinin əsas rituallarıdır. Avstraliyada Yeni il yay fəslinə təsadüf etdiyindən bayram çimərliklərdə qeyd olunur. ABŞ-də isə qaragöz lobya yemək və "Auld Lang Syne" mahnısını oxumaq yeni ilə həmrəyliklə qədəm qoymağın rəmzidir.

Yeni ilin gəlişi Azərbaycanda da xüsusi coşqu və sevinc hissi ilə qarşılanır. Hər yerdə küçələr işıqlandırılır, meydanlarda hündür şam ağacları qurulur, vitrinlər yeni il atributları ilə bəzədilir. Ailələr süfrə açır, qohum-qonşu ziyarət olunur, uşaqlara hədiyyələr verilir. Yeni il xalqımız üçün həm də birlik, paylaşma və ümid bayramıdır. Diləyimiz odur ki, Yeni il hər kəsə sülh, sağlamlıq, bolluq və xoşbəxtlik gətirsin.

***Ülkər XASPOLADOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# *"Qarabağ"ın prezidenti:* "Birlik, inam və əzm sayəsində daha böyük nailiyyətlər əldə edəcəyik"

"İnanıram ki, qarşıdakı ildə də birlik, inam və əzm sayəsində daha böyük nailiyyətlər əldə edəcəyik. Komandamız öz üzərinə düşən məsuliyyəti dərk edərək bütün gücü ilə çalışacaq və xalqımıza yeni-yeni sevinclər, qürurverici anlar bəxş edəcək".

AZƏRTAC xəbər verir ki, bu sözləri "Qarabağ"ın prezidenti Tahir Gözəl 2025-ci ilin yekunları ilə bağlı danışarkən deyib.

O, 2025-ci ili komanda üçün uğurlu adlandırıb: "Arxada qoyduğumuz il futbol meydanlarında sevincdən göz yaşlarına, qürurdan həyəcan dolu anlara qədər saysız-hesabsız unudulmaz xatirələrlə yadda qaldı. "Qarabağ" 2025-ci ildə də yalnız nəticələrlə deyil, ortaya qoyduğu xarakter, sarsılmaz iradə və qələbə ruhu ilə öz adını bir daha zirvələrə yazdırdı. 2024/2025-ci illər mövsümünü böyük uğur və inamla başa vuran komandamız 12-ci dəfə Azərbaycan çempionu olaraq ölkə futbolundakı liderliyini bir daha təsdiqlədi və UEFA Çempionlar Liqasının II təsnifat mərhələsindən etibarən növbəti tarixi yürüşünə başladı. Təsnifat mərhələlərində meydanda nümayiş etdirilən hər oyun, hər mübarizə və hər son fitə qədər davam edən əzm bizi ikinci dəfə UEFA Çempionlar Liqasının əsas mərhələsinə daşıdı. "Benfika", "Kopenhagen" kimi Avropanın nəhəng klubları üzərində qazanılan qələbələr təkcə xallar deyil, bütün Azərbaycan futbolu üçün qürur mənbəyinə çevrildi".



T.Gözəl bildirib ki, "Qarabağ" tarixdə ilk dəfə UEFA Çempionlar Liqasının əsas mərhələsində qələbə qazanan Azərbaycan təmsilçisi kimi adını futbol tariximizin qızıl səhifələrinə yazdırdı: "Klublararası dünya çempionu olmuş İngiltərə nəhəngi "Çelsi" ilə aparılan möhtəşəm, nəfəs kəsən və qürurverici mübarizə isə bir daha göstərdi ki, "Qarabağ" Avropanın ən güclüləri ilə eyni səviyyədə dayanmaq gücünə malikdir. Qazanılan hər xal, yaşadılan hər an milyonlarla azarkeşimizin ürəyində silinməz iz buraxdı".

Klub rəhbəri bu uğurların təsadüfi olmadığını deyib: "Hər qələbənin, hər tarixi anın arxasında illərin zəhməti, fədakarlığı, peşəkarlığı və böyük inamı dayanır. Komandamız həm ölkə daxilində, həm də beynəlxalq arenada adına və tariximizə layiq mübarizə apararaq Azərbaycan futbolunu daha da yüksəklərə daşıdı. Azarkeşlərimizin sarsılmaz sevgisi və dəstəyi, futbolçularımızın meydandakı qətiyyəti, klubumuzda hökm sürən birlik və ailə ruhu 2025-ci ilin ən böyük qələbəsi, ən dəyərli qazancı oldu. Biz bu birliklə, bu inamla və bu qürurla qarşıdakı illərdə daha böyük hədəflərə, daha uca zirvələrə doğru yolumuza davam edəcəyik. Çünki bu yolun adı "Qarabağ"dır və bu hekayə hələ yeni başlayır".


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "Euronews" kanalı "Bakı Ağ Şəhər"dən videoreportaj hazırlayıb

"Euronews" kanalı Bakı şəhərində həyata keçirilən urban yenidənqurma layihələrindən biri olan "Bakı Ağ Şəhər" (Baku White City) barədə videoreportaj yayımlayıb.




AZƏRTAC xəbər verir ki, reportajda "Bakı Ağ Şəhər" genişmiqyaslı şəhərsalma transformasiyasının mühüm nümunəsindən biri kimi təqdim olunur. Bildirilib ki, "Bakı Ağ Şəhər" vaxtilə ciddi şəkildə çirklənmiş sənaye zonası olmuş ərazinin müasir, davamlı və piyadayönümlü yaşayış məkanına çevrilməsinin nümunəsidir. Layihə gündəlik şəhər həyatının rahat təşkili prinsipi əsasında planlaşdırılıb və yaşayış, ticarət və mədəni məkanları bir-birinə yaxın məsafədə birləşdirir. Materialda vurğulanır ki, ərazinin planlaşdırılması avtomobillərdən asılılığın azaldılmasına, piyada hərəkətinin təşviqinə və rahat yaşayış mühitinin yaradılmasına xidmət edir. Davamlı memarlıq həlləri, yaşıl zonalar və ictimai incəsənət elementləri "Bakı Ağ Şəhər"də gündəlik həyatın əsas hissəsinə çevrilib.

Videoreportajda həmçinin yerli bizneslərin və sahibkarların məhəllə kimliyinin formalaşmasında mühüm rol oynadığı, sakinlərin isə bu ərazidə ailə həyatı, sosial ünsiyyət və ümumi rifah üçün əlverişli şəraitin yaradıldığını bildirdiyi qeyd olunur. "Euronews"un təqdim etdiyi reportajda Bakı şəhərində insanmərkəzli şəhərsalma yanaşmasına doğru gedən daha geniş tendensiyaya da diqqət çəkilir.

# Ruben Vardanyanın barəsində cinayət işi üzrə məhkəmə prosesi təxirə salınıb

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə ilə bağlı maddələri ilə və digər ağır cinayətlərdə təqsirləndirilən Ermənistan vətəndaşı Ruben Vardanyanın barəsində cinayət işi üzrə dekabrın 30-na təyin olunmuş məhkəmə prosesi qeyri-müəyyən müddətədək təxirə salınıb.

AZƏRTAC xəbər verir ki, buna səbəb həmin cinayət işi üzrə hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Anar Rzayevdən və Camal Ramazanovdan ibarət məhkəmə heyətinin (ehtiyat hakim Günel Səmədova) digər iş (15 nəfər Ermənistan vətəndaşının barəsində cinayət işi) üzrə məhkəmə iclasında müşavirəyə getməsidir.

Beləliklə, R.Vardanyanın barəsində cinayət işi üzrə növbəti məhkəmə iclası məhkəmə heyəti müşavirədən qayıdandan sonra keçiriləcək.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası CM-in 100.1, 100.2 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 107 (əhalini deportasiya etmə və məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114.1 (muzdluluq), 115.2 (müharibə qanunlarını və adətlərini pozma), 116.0.1, 116.0.2, 116.0.10, 116.0.11, 116.0.16, 116.0.18 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 120.2.1, 120.2.3, 120.2.4, 120.2.7, 120.2.11, 120.2.12 (qəsdən adam öldürmə), 29,120.2.1, 29,120.2.3, 29,120.2.4, 29,120.2.7, 29,120.2.11, 29,120.2.12 (qəsdən adam öldürməyə cəhd), 192.3.1 (qanunsuz sahibkarlıq), 214.2.1, 214.2.3, 214.2.4 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218.1, 218.2 (cinayətkar birlik yaratma), 228.3 (qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1.2, 270-1.4 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278.1 (hakimiyyəti zorla ələ keçirmə və ya onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279.1, 279.2, 279.3 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və ya qrupları yaratma) və 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) maddələri ilə ittiham olunur.

# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatları Ağalar Vəliyev və Heydər Əsədov Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatları Ağalar Vəliyev və Heydər Əsədov Milli Məclisin sabiq sədri Oqtay Əsədova qızı

**NƏRMİNƏ ƏSƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABIL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağdamdan Vaqif Həsənov Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Aytəkin İbrahimovaya anası

**İRADƏ VERDİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 4121
Sifariş 2641
Qiyməti 60 qəpik